# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

COP29 Baku Azerbaijan

№ 444 Noyabr 2024



AYLIQ DƏRGİ

ISSN 2218-2772
khazar-review.khazar.org

# COP29 - DÜNYA BAKIYA TOPLAŞDI

# COP29 - THE WORLD GATHERED IN BAKU





Noyabrın 11-23-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 keçirildi. Noyabrın 11-də Bakıdakı Olimpiya stadionunda 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçı ilə COP29-un rəsmi açılış mərasimi olub. COP28-in Prezidenti Sultan Ahmad Al-Jaber Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin COP29-un Prezidenti seçildiyini elan edib.

Mərasimdə Muxtar Babayev çıxış edib. Bildirib ki, qlobal səviyyədə temperatur 3 dərəcəyədək artıb: "Bu isə fəlakətdən xəbər verir. Yeni müəyyənləşdiriləcək səylər özündə daha effektiv nəticələri ehtiva etməlidir", - o qeyd edib.

Noyabrın 12-13-də Dünya liderlərinin sammiti keçirilib. Sammitin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, BMT-nin Baş katibi Antonio Quterreş və digərləri çıxış etdilər. Həmin gün və liderlər sammitinin ikinci günündə 80 prezident, vitse-prezident və baş nazirlər bəyanatlarla çıxış etdilər.

*(Ardı səh.6-da)*



United Nations Climate Change | COP29 Baku Azerbaijan



On November 11-23, the 29th session of the UN Framework Convention on Climate Change (COP29) was held in Baku. On November 11, the official opening ceremony took place at the Olympic Stadium, with 72,000 registered participants from 196 countries. COP28 President Sultan Ahmad Al-Jaber announced that Azerbaijan's Minister of Ecology and Natural Resources, Mukhtar Babayev, was elected as COP29 President.

At the ceremony, Mukhtar Babayev spoke, noting that global temperatures have risen by up to 3 degrees: "This signals a catastrophe. New efforts must encompass more effective results."

On November 12-13, the World Leaders' Summit was held. The opening ceremony featured speeches by Azerbaijan's President Ilham Aliyev, UN Secretary-General Antonio Guterres, and others. During these days, 80 presidents, vice presidents, and prime ministers delivered statements.

(*To be continued page 7*)





# İÇİNDƏKİLƏR


**COP29 - Dünya Bakıya toplaşdı ........ 6**
**Dünya liderlərinin sammitində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı ........ 8**
**Dünya liderlərinin sammitində BMT-nin Baş katibi Antonio Quterreş`in çıxışı ........ 11**
**"Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda keçirilmiş konfransda Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın çıxışı ........ 14**
**COP29-un bağlanış plenar iclası ........ 17**
**COP29 çərçivəsində "Təmiz hava, təmiz su: davamlı həllər" mövzusunda seminar ........ 18**
**COP29 və Yaşıl dünya naminə həmrəylik ili çərçivəsində tədbir ........ 19**
**Departament müdiri COP29 çərçivəsində "Qlobal iqlim böhranında strateji kommunikasiya" mövzusunda keçirilmiş forumda ........ 20**
**COP29 çərçivəsində Asiya İnkişaf Bankı İnstitutu ilə birgə tədbir ........ 21**
**Bakıda COP29 çərçivəsində Çin-Aİ iqlim və Dayanıqlı İnkişaf Əməkdaşlığı üzrə Dialoq ........ 22**
**Xəzər Universiteti "Dünyanın ən yaxşı universitetlərinin reytinq siyahısı: dayanıqlılıq 2025" reytinqində yer alıb ........ 23**
**COP29 çərçivəsində Xəzər və Exeter Universitetlərinin əməkdaşlığı: antologiya hazırlanmışdır ........ 24**
*Akkan Suver*. **Şuşa'nın dağları (*Türkiyə türkcəsində*) ........ 25**
**Xəzər Universiteti Çin Tədqiqatlar Mərkəzinin direktoru Aqşin Əliyev Beynəlxalq Konfutsiçilik Assosiasiyasının 7-ci Şurasının üzvü seçilib ........ 26**
**"Dünya" məktəbinin yeddi yaşlı şagirdi Miryusif beynəlxalq turnirin qalibi oldu ........ 27**
**Həyat elmləri departamentinin müəllim və tələbələri "Citrus Valley"də ........ 28**
**"Süni intellekt tətbiqləri üzrə aktual mövzular" adlı seminar ........ 29**
**Mühəndislik Biomateriallar Tədqiqat Mərkəzinin açılışı və ilk beynəlxalq seminarı ........ 34**
**NextKhazar İdea Show startap layihəsinin yekun tədbiri ........ 37**
**AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ........ 40**
*Əlirza Balayev*. **Xalqının mədəniyyətinə və dövlətçiliyinə böyük töhfələr vermiş insan – Teymur Elçin ........ 42**
**Cihannüma cəmiyyətinin təmsilçiləri "Xəzər"də ........ 48**
**Seminar: "Gender bərabərsizliyi: miflər və gerçəklər" ........ 51**
**Nobel mükafatı laureatları-2024 ........ 52**
**Beynəlxalq Enerji Agentliyi təmsilçilərinin tələbələrlə görüşü ........ 63**
**Xəzər Universitetinin əməkdaşları ERASMUS+ 3E-Tərəfdaşlıq layihəsi çərçivəsində İspaniyanın Coruna Universitetinə səfər ediblər ........ 64**
**Xəzər Universiteti və Müasir Çin və Dünya Araşdırmaları Akademiyası gələcək əməkdaşlıq üçün möhkəm təməl qoydu ........ 68**
**Amerika Texnologiya Universiteti ilə Xəzər Universiteti arasında Anlaşma memorandumu imzalanıb ........ 70**
**Naxçıvan Dövlət Universiteti xəbərləri ........ 74**



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000



**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan



**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

**COP29 - The World Gathered in Baku ........ 6**
**Speech of Ilham Aliyev, the President of Azerbaijan in the Summit of World Leaders (*in Azerbaijani*) ........ 8**
**Speech of Antonio Guterres, Secretary General of UN in the Summit of World Leaders (*in Azerbaijani*) .... 11**
**Speech of Mehriban Aliyeva, the First Lady of Azerbaijan in the Conference named "Youth at the Forefront of Climate Activities" (*in Azerbaijani*) ........ 14**
**COP29 Closing Plenary Session ........ 17**
**"Clean Water, Clean Air: Sustainable Solutions" Seminar Held as Part of COP29 ........ 18**
**Event within the framework of COP29 and Year of Solidarity for a Green World ........ 19**
**Department Head Participates in Forum on "Strategic Communication in Global Climate Crisis" within COP29 Framework ........ 20**
**Joint Event with Asian Development Bank Institute in the Framework of COP29 ........ 21**
**China-EU Dialogue on Climate and Sustainable Development Cooperation Held within COP29 in Baku ........ 22**
**Khazar University is in the "QS World University Sustainability Rankings 2025" ........ 23**
**Collaboration between Khazar and Exeter Universities during COP29: An Anthology Compiled ........ 24**
***Akkan Suver*. Mountains of Susha (*in Turkish*) ........ 25**
**Director of Khazar University's China Studies Center Agshin Aliyev Elected Member of the 7th Council of International Confucian Association ........ 26**
**Seven-Year-Old "Dünya" School Student Miryusif is the Winner of an International Tournament ........ 27**
**Instructors and Students of the Department of Life Sciences Visit "Citrus Valley" ........ 28**
**"Hot Topics in Artificial Intelligence Applications" Workshop ........ 29**
**Opening and First International Seminar of the Engineering Biomaterials Research Center ........ 34**
**Final Event of NextKhazar Idea Show Startup Project ........ 37**
**News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ........ 40**
***Alirza Balayev*. A Person who Made Great Contributions to His People's Culture and Statehood – Teymur Elchin (*in Azerbaijani*) ........ 42**
**Representatives of the Cihannüma Society at "Khazar" ........ 48**
**Seminar: "Gender Inequality: Myths and Realities" ........ 51**
**Nobel Award Laureates-2024 (*in Azerbaijani*) ........ 52**
**Meeting of International Energy Agency Representatives with Students ........ 63**
**Khazar University Employees Visit Coruña University within the ERASMUS+ 3E-Partnership Project ........ 64**
**Khazar University and Academy of Contemporary China and World Studies Laid a Solid Foundation for Future Collaboration ........ 68**
**American University of Technology Signs MoU with Khazar University ........ 70**
**Nakhchivan State University News (*in Azerbaijani*) ........ 74**

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

United Nations Climate Change | COP29 Baku Azerbaijan

# COP29 - DÜNYA BAKIYA TOPLAŞDI

Noyabrın 12-də COP29 çərçivəsində "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda konfrans təşkil olunub. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva konfransda çıxış edib.

Noyabrın 13-də COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammiti keçirilib. Sammitdə Azərbayvan Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş çıxış ediblər.

Noyabrın 15-də COP29 çərçivəsində müstəmləkə ərazilərinin nümayəndələri yerli xalqların hüquqlarının kütləvi pozulması əleyhinə etiraz aksiyası keçirib, Cənub-Cənub əməkdaşlığı üzrə forum baş tutub.

Noyabrın 16-17-də Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçirilib. Görüşdə 66 ölkədən və beynəlxalq təşkilatlardan 92 nümayəndə heyəti, 330-dək iştirakçı, 12 spiker və vitse-spiker olmaqla, 167 parlament üzvü iştirak edib.

COP29 çərçivəsində rəsm sərgiləri, kitab təqdimatları və digər tədbirlər keçirilib, yüzədək pavilyon fəaliyyət göstərib.

Noyabrın 23-də COP29-un bağlanış plenar iclası keçirilib. (*Ardı səh.17-də*)








# COP29 - THE WORLD GATHERED IN BAKU

On November 12, a conference on "Youth at the Forefront of Climate Action" was organized within COP29. Azerbaijan's First Lady Mehriban Aliyeva spoke at the conference.

On November 13, a summit for developing small island states (SIDS) was held within COP29. President Ilham Aliyev and UN Secretary-General Antonio Guterres delivered speeches.

On November 15, representatives of colonial territories held a protest against mass human rights violations, and a South-South Cooperation Forum was conducted.





On November 16-17, a Parliamentary Meeting was organized jointly by the Interparliamentary Union and the National Assembly. The meeting was attended by 92 delegations from 66 countries and international organizations, with 330 participants, including 167 parliament members, 12 speakers, and vice-speakers.

Various events were held during COP29, including art exhibitions, book presentations, and over a hundred pavilions were operational.

On November 23, the closing plenary session of COP29 was held.

*(To be continued page 17)*




# DÜNYA LİDERLƏRİNİN SAMMİTİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Hörmətli BMT-nin Baş katibi!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.

Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin, təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir.

Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz, həmçinin, ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Yaşıl gündəliyimiz, həmçinin, Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10-15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.

Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu

gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, – mən beynəlxalq medianı nəzərdə tuturam, – mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!

Sağ olun!

*AZƏRTAC*
**12.11.2024**




## DÜNYA LİDERLƏRİNİN SAMMİTİNDƏ
# BMT-NİN BAŞ KATİBİ ANTONİO QUTERREŞ`İN ÇIXIŞI

Cənab Prezident Əliyevə, COP sədri Muxtar Babayevə və eyni zamanda, Azərbaycan Hökumətinə qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Çox sağ olun!

Prezidentlər bizim əməkdaşlığa etibar edə bilərlər. Həqiqətən də sizin səyiniz nəticəsində uğurlu bir COP-a imza atacağıq. Hər kəsə bu COP-da ehtiyacımız vardır. Həqiqətən bir saata bənzəyən və bir toplam olaraq biz qlobal temperaturların 2,5-ə çatdırılmasına yaxınlaşırıq və vaxt bizim tərəfimizdə deyil. Bu, 2024-cü ilin əlavəsi və ən yüksək temperatur olaraq ən isti il olacaqdır, rekordları qıracaqdır. İqlim baxımından görürük ki, növbəti qasırğa çatmamış ailələr artıq evlərindən qaçırlar, biomüxtəliflik dağılır, insanlar, işçilər həqiqətən də isti bir dövrdə öz huşunu itirirlər. İnsanlar daşqınlardan, infrastrukturu dağıdılan təbii fəlakətlərdən, quraqlıqdan əziyyət çəkirlər, bitkilər tələf olur.

Bütün bunlar və digər faciələr, eyni zamanda, faktiki olaraq insanların səbəb olduğu iqlim dəyişmələri ucbatından baş verir. Burada hər hansı bir ölkə istisna deyil. Bu şoklar bütün xərcləri artırır. Dağıdılmış evlər sığorta haqlarının artımına səbəb olur. Meşələr məhv edilir. Bütün bunlar, həqiqətən də bir növ qaçılmaz ədalətsizliyə səbəb olur, bunu varlılar yaradır, yoxsullar isə onun haqqını ödəyirlər. Biz görürük ki, karbonlar və emissiyalar ortalama olaraq aşağı düşməsə, adaptasiya tədbirləri tətbiq

olunmasa, bütün iqtisadiyyatlar daha böyük ziyana uğrayacaq. Amma bu kontekstdə hələ də ümidimiz qalır. COP28-də siz hər biriniz öz üzərinizə karbohidrogen resurslarından yayınma və xalis sıfra yaxınlaşma öhdəliyi götürmüsünüz. İqlimə uyğunlaşma tədbirlərini təşviq etməyə və eyni zamanda, iqtisadi baxımdan iqlim dəyişmələri planları və milli təklifləri qəbul etməyə söz verdiniz. İndi isə bu sözə əməl etməyin vaxtı çatıb. Bəşəriyyət sizi dəstəkləyəcək. BMT-nin İnkişaf Proqramı və Oksford Universiteti göstərir ki, dünyada əhalinin 80 faizi planda nəzərdə tutulan tədbirləri təşviq etməyə hazırdır. Alimlər, gənclər – hər kəs bu dəyişikliyi tələb edir. Onları eşitmək və duymaq lazımdır, səslərini kəsmək deyil. Beləliklə, daha çox bərpaolunan enerjilər, hər yeni innovasiyalar və hər qiymətin aşağı salınması ilə irəliləyişə nail olmaq imkanınız olacaqdır. Şəbəkələrə və bərpaolunan enerjiyə qoyulan sərmayələr karbohidrogen resurslarından daha çox idi. Demək olar ki, hər yerdə Günəş və külək enerjisi istehsalı ən ucuz variantdır. Ona görə bu resursların, karbohidrogen resurslarının olmaması problem olmayacaqdır və yeni biznes, hər hansı bir ölkə onu dayandıra bilməz. Beləliklə, bərpaolunan enerji hökm sürəcək. Biz əmin olmalıyıq ki, bu, çox sürətli olmalıdır ki, temperaturlar 2,5-dən yuxarı qalxmasın. Eyni zamanda, burada üç prioritetə fokuslanmaq istərdim. İlk növbədə, emissiyaların azaldılması. Qlobal temperaturun azaldılması və 2,5 Selsiyə çatdırılması üçün qlobal emissiyanı hər il 9 faiz azaltmalıyıq. Bu, 2030-cu ilə qədər 43 faiz azalmalıdır. Təəssüf ki, 2019-cu ilin baza xəttinə əsasən bu emissiyalar hələ də artmağa davam edir.

Bu COP sammitində səmərəli karbon bazarının yaradılmasına dəstək göstərilməsi çox önəmlidir. Dünən də biz bu məsələni müzakirə etdik. Təbii ki, yeni bazar qaydaları təmin edilməlidir. Yerli ictimaiyyətlərə torpağın alınmasına və yaxud da hər hansı bir digər problemə icazə verməmək üçün işlər görülməlidir, iqlim dəyişikliyi planları hazırlanmalıdır. Razılaşdıq ki, sizin yeni planlarınız 1,5 temperatura uyğun olacaq. Bu, o deməkdir ki, həmin plan bütün emissiyaları və iqtisadiyyatları əhatə etməlidir.

Qlobal ehtiyacları nəzərə alaraq enerji səmərəliliyinin ikiqat artırılması və səhralaşmanın qarşısının alınması önəmlidir. Qlobal karbohidrogen resursları 30 faiz azalmalıdır. Eyni zamanda, ölkə daxilində enerji keçidi dayanıqlı iqlim məqsədlərinə, iqlim dəyişikliyi tədbirlərinə uyğun olmalıdır ki, lazımi investisiyaları təşviq edək. Bütün bunlar yerli şərait nəzərə alınaraq ortaq və eyni zamanda, paylaşılmış məsuliyyət əsasında reallaşmalıdır. Amma əlbəttə ki, hər bir ölkə öz işini görməlidir və G20 bu istiqamətdə lider olmalıdır. Onlar ən böyük emissiya edən ölkələrdir. Onların məsuliyyəti daha da yüksəkdir. Onlar texnoloji transferi və keçidi təmin etməlidirlər, inkişaf edən ölkələrə dəstək göstərməlidirlər, bütün dövlətlərin əlində lazımi alətlər və resurslar olmalıdır. BMT bu səylərə dəstək göstərməyə tam hazırdır. İnkişaf edən ölkələrə yeni milli səviyyədə cəlb olunmuş töhfələr, eyni zamanda, ədaləti bərqərar etmək bərpaolunan enerji sektorunda kritik enerji keçidi təşəbbüsləri vasitəsilə bunu etməyə nail olacağıq. Amma nəticə etibarilə bu işi bacara biləcək ölkələr məhz sizsiniz. Ancaq siz bu saata qarşı mübarizə apararaq 1,5 dərəcə hədəfinə nail ola bilərsiniz.

İkincisi, siz öz xalqlarınızı, insanlarınızı iqlim dəyişmələrinin və iqlim böhranlarının fəsadlarından müdafiə etməlisiniz. Eyni zamanda, adaptasiya ehtiyacları ilə maliyyə arasında olan boşluq 2030-cu ilədək milyardlarla dollara bərabər və ya 300 milyarddan yuxarı olacaqdır. Çatışmayan bu vəsait hər hansı hesabatda qeyd olunan rəqəm deyil. Bu, həyat itkiləri, infrastrukturun dağıdılması deməkdir. Bu cür maliyyə vədlərini icra etmək lazımdır. 2025-ci ilə qədər ən azı 40 milyard dollar vəsait toplanmalıdır. Adaptasiya və investisiya iqtisadiyyatları dəyişə və Dayanıqlı İnkişaf Məqsədləri ətrafında formalaşa bilər. Ölkələr yeni fəaliyyət planları hazırladığı zamanda məhz maliyyə vəsaiti bu şəkildə formalaşacaq, dünyada hər kəs erkən xəbərdarlıq sistemləri tərəfindən qorunmalıdır. Bütün təşəbbüslər üzrə bu erkən xəbərdarlıq sistemləri qurulmalıdır, eyni zamanda, iqlim ədalətliliyinə ehtiyacımız var. Həmçinin İtki və Zərərə Cavab Fondundan danışaraq bu cür vəsaiti lazım olan insanlara çatdırmaq önəmlidir.

Eyni zamanda, çarpaz şəkildə olan bütün sektorlara fundamental baxsaq, üçüncü prioritet məhz maliyyədir. İnkişaf edən ölkələr, əlbəttə ki, bir sıra problemlərlə üzləşir. Çatışmayan dövlət infrastrukturu vəsaiti, eyni zamanda, iqlim dəyişmələri, borclanma və digər sahələrdə böyük çətinliklər mövcuddur. Məhz bunun nəticəsində adaptasiya tədbirləri də ləngiyə bilər. Çin istisna olmaqla, keçən il ərzində inkişaf edən və meydana çıxan yeni bazarlar investisiya olunmuş hər bir dollara cəmi 15 sent alıb. COP29 yeni fərq yaratmalıdır və inkişaf edən ölkələr Bakını əliboş tərk etməməlidir. Əminəm ki, buna birlikdə nail olacağıq.

Yeni maliyyə imkanları və bu istiqamətdə beş əsas element lazımdır. Birincisi, dövlət investisiyalarının kəskin şəkildə artırılmasıdır. Dövlət investisiyaları səfərbər olunmalı, inkişaf edən ölkələrə trilyon dollarlarla vəsait ayrılmalıdır. İnnovativ resurslar, xüsusən aviasiya, karbohidrogen mədən işləridir və buna görə də çirkləndirici tərəflər "daha çox ödəməlidir" prinsipinə əsasən ödəməlidir. Şəffaflıq, hesabatlılıq olmalıdır ki, həqiqətən də bu vəsait reallaşsın. Bu işə daha böyük çoxtərəfli banklar cəlb edilməlidir və əminəm ki, yaxşı xəbərlər olacaq. Burada böyük kapital qoyuluşu səylərinə və biznes modellərin islahatlarına ehtiyac var ki, onlar özəl sektordan əlavə vəsait ala bilsinlər. Bu resurslar çatışmayan kimi görünə bilər, amma onlar çoxtərəfli sistemdə böyüyə bilər. Böyük nəticələr böyük dəyişikliklər tələb edir. Beləliklə, sentyabr ayında Nyu-Yorkda əldə etdiyimiz konsensusa əsasən irəli getməliyik.

Beləliklə, bütün dövlət nümayəndələrinə müraciət etmək istəyirəm ki, artıq itirməyə vaxtımız qalmayıb. İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar. Əks halda, bu, bəşəriyyətə baha başa gələcək. İqlim maliyyələşməsi xeyirxah əməl deyil, bu, bir investisiyadır. Bu, ixtiyari məsələ deyil, məcburi məsələdir. Hər ikisi əvəzolunmaz tədbirdir, bunlar bəşəriyyətin gələcəyi və firavanlığı üçün lazımdır. Vaxt gedir, sizə inanıram, sizə təşəkkürümü bildirirəm.

*AZƏRTAC*
**12.11.2024**




## “GƏNCLƏR İQLİM FƏALİYYƏTLƏRİNİN ÖN CƏBHƏSİNDƏ” MÖVZUSUNDA KEÇİRİLMİŞ KONFRANSDA

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

Hörmətli Birinci xanımlar!
Hörmətli qonaqlar!
Əziz gənc iştirakçılar!
Xanımlar və cənablar!

Əvvəlcə, sizi Azərbaycanda salamlamaq, sizin hamınıza möhkəm cansağlığı arzulamaq və COP29-da təmsil etdiyiniz ölkələrə sülh və əmin-amanlıq diləmək istərdim.

“Gənclər iqlim fəaliyyətinin ön cərgəsində” panelimizin elə adının özündən məqsəd bəllidir. Son tədqiqatlara görə, dünya gənclərinin 60 faizdən çoxu iqlim dəyişmələrini təxirəsalınmaz məsələ hesab edir.

Ümid edirəm ki, COP29 çərçivəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gənc nəsil tərəfindən birgə layihələrin müəyyənləşdirilməsi üçün platformanı yaratmaq imkanımız olacaq.

Mən COP29-da iştirak edən və qayğı ilə yanaşan bütün gəncləri, ekofəalları, gənclər

təşkilatlarının bütün nümayəndələrini salamlayıram.

Mən Sıfır Atık Fondunun yaradılmasında təşəbbüs göstərmiş və ətraf mühitin, eləcə də mədəni irsin qorunmasına yönələn layihələrə şəxsən töhfə vermiş Türkiyə Respublikasının birinci xanımına təşəkkürümü bildirirəm.

2024-2030-cu illərə aid iqlim gündəliyində uşaqların və gənclərin iştirakını, o cümlədən dayanıqlı inkişafı təşviq etmək məqsədilə ötən il Mərkəzi Asiya Strategiyasının qəbul edilməsi ilə nəticələnən təşəbbüsünə görə Özbəkistanın səylərini yüksək dəyərləndirirəm.

Mən bu cür mühüm mərama şəxsən himayədarlıq etmiş Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyevaya təşəkkürümü bildirmək istərdim.

Mən ətraf mühit gündəliyi barədə maarifləndirmənin artırılmasında, həmin gündəliyə gənclərin qoşulmasında oynadığı fəal rola və iştirakına görə Qırğızıstanın birinci xanımına minnətdaram.

Əziz dostlar, COP29 ölkəsi seçilmək bizim üçün böyük şərəfdir. Biz fərəhlənirik ki, Cənubi Qafqazda, Mərkəzi Asiyada və daha geniş regionda ilk COP konfransı məhz Azərbaycanda keçirilir.

Dünya biosferin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühit çağırışları ilə üz-üzədir. Bizim ölkəmiz də istisna deyil. Biz çay sularının, Xəzər dənizinin səviyyəsinin azalmasını müşahidə edirik və su qıtlığı təhlükəsi ilə üzləşirik.

Mən qeyd etmək istərdim ki, qlobal istixana tullantılarının 0,1 faizi Azərbaycanın payına düşür. Biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik. Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik.

Biz, həmçinin, Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2050-ci ilə qədər "xalis sıfır atılmalar zonası"nın yaradılmasına diqqət yetiririk. Əsasən Günəş və külək enerjisi layihələri ilə bağlı artıq fəal iş aparılır. Yaşıl enerjinin istehsalı və ixracı Azərbaycanın enerji strategiyasında prioritet təşkil edir.

Uzun müddətdir ki, iqlim fəaliyyəti beynəlxalq arenada ən vacib və prioritet məsələlərdən biridir. Atılmış addımlara baxmayaraq, bəşəriyyətin üzləşdiyi çağırışlar və təhdidlər günbəgün daha da ciddiləşir. Bunu nəzərə alaraq, qlobal məsələlərin həllində tətbiq olunan yanaşma və üsullara yenidən baxılması vaxtı yetişib. Bu gün mən açıq və düzgün qeyd olunmalı digər mühüm mövzuya toxunmaq istəyirəm: riyakarlıq və ikili standartlar beynəlxalq ətraf mühit gündəliyində aydın görünür.

COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan ətraf mühit məsələlərindən xeyli uzaq olan mülahizələr hesabına ədalətsiz hücum dalğası, yalan hekayətlər və ikili standartlar ilə üzləşib.

Azərbaycan COP29-a ev sahibliyi etmək öhdəliyini üzərinə götürməklə, Qlobal Cənub və Qlobal Şimal, eləcə də inkişaf etmiş və inkişaf edən ölkələr arasında körpülər salmağa çalışır. Məqsədimiz bu məsələnin həllinə verdiyimiz töhfəni ortaq gələcəyə verəcəyimiz töhfəyə çevirməkdən ibarətdir. Bununla belə, bəzi hallarda dəstək vermək və konstruktiv dialoq aparmaq əvəzinə, biz çoxsaylı Qərb mətbuatında böhtan və qarayaxma kampaniyalarının hədəfinə çevrilmişik. Məlumdur ki, həmin media əv-

vəlcədən cızılmış ssenariyə uyğun getməyən və ya qoyulmuş qaydalarla oynamayan, müstəqil siyasət yürüdən və öz milli maraqlarını qoruyan ölkələri gözdən salmaq üçün alətə çevrilib. Müəyyən ölkələrin təsiri altında olan bəzi iri media platformaları əmr ilə Azərbaycan haqqında mənfi hekayətləri yaymağa başlayırlar.

Əslində, bəs bunun arxasında dayanan nədir? Bu cür çirkin kampaniyanın sponsorları hansı məqsədləri güdürlər? Əslində, biz cavabı bilirik.

Vətəndaşlarımızın öz ölkəsini beynəlxalq səhnədə ədalətli və düzgün şəkildə təmsil etmək hüquqları var. Onların Azərbaycanın müstəqil mövqeyini təhdid kimi görən dairələrin təzyiqinin və manipulyasiyanın qurbanına çevrilməmək hüququ var.

Nailiyyətlərimiz və işimiz bəzi dövlətlərin geosiyasi maraqları uğrunda səhv təsvirə deyil, hörmətə layiqdir.

Riyakarlıq, həmçinin, müxtəlif ölkələr tərəfindən öz iqlim öhdəliklərinə necə yanaşmasında özünü büruzə verir.

Əsrlər boyu çirklənmənin əsas mənbəyi və sərvətlərin məsuliyyətsiz istehlakçısı olmuş inkişaf etmiş ölkələr hazırda sərt hakim rolunda çıxış edir. Onlar hamı üçün sərt məhdudiyyətləri təşviq edir və eyni zamanda, öz siyasətində iddialı məqsədlərini güdür, öz maraqları uğrunda işini davam etdirir. Onlar digər ölkələrdən transformasiyanı tələb edir, lakin bununla belə, maliyyə və ya texnoloji baxımdan yardım etməyə tələsmirlər.

Azərbaycan manipulyasiya və təzyiq deyil, səmərəli fəaliyyət, real həll variantları və ədalətli əməkdaşlığı arzulayan ölkədir.

Biz platformamızdan elə istifadə etmək istəyirik ki, qlobal koalisiya yaransın və orada hər ölkənin – böyük və ya kiçik, inkişaf etmiş və ya inkişaf edən ölkənin mövqeyi, haqqı ədalətli şəkildə qəbul edilsin.

Yalan hekayətlər və riyakarlıq nəinki reallığı səhv göstərir, o cümlədən ədalət və düzgünlük, ləyaqət və məsuliyyət kimi fundamental konsepsiyaları sual altına qoyur.

Səhv informasiyanın yayılmasında, ölkələrə qarşı qarayaxma kampaniyalarının aparılmasında mediadan istifadə həmin ölkələrə o qədər zərər vurmur, nəinki mənəvi dəyərlərin mahiyyətini dəyərsizləşdirir, etimadı zəiflədir və parçalanma yaradır.

Mən bütün iştirakçılara üz tutaraq istəyirəm onlar yadda saxlasınlar ki, COP29 siyasi hücumlar arenası deyil. O, iqlim böhranı qarşısında hamımızın birləşdiyi məkandır.

Yalnız ədalətli əməkdaşlıq və real tədbirlərə hazırlıq bizi uğura aparacaq.

Əziz dostlar, yekun olaraq, mən növbəti konfransların təşkilinə gəldikdə təkliflə çıxış etmək istərdim. Təklif edirəm ki, gələcəkdə konfransların onlayn formatda keçirilməsi imkanı araşdırılsın. Bu yanaşma nəinki ciddi şəkildə vəsaitlərə qənaət edəcək, o cümlədən uçuşlar və böyük tədbirlər nəticəsində yaranan atılmaları, həmçinin ətraf mühitə təsiri azaldacaq.

İşçi qruplar təfərrüatlı müzakirələr və əlaqələndirmə üçün şəxsən görüşə bilərlər. Lakin rəhbərlərin sammitləri videokonfrans formasında keçirilə bilər.

Bu, bizə resursları, səyləri və vaxtı hədəflənmiş məsələlərə yönəltmək imkanı yaradacaq və prosesi ətraf mühit baxımından daha uyğun edəcək.

Diqqətinizə görə minnətdaram.

*AZƏRTAC*
**12.11.2024**

## COP29-UN BAĞLANIŞ PLENAR İCLASI

Noyabrın 23-də bağlanış plenar iclasında COP29-un Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Braziliyanın ətraf mühit naziri Marina Silva, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil tədbirdə çıxış ediblər.

COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan edilməsi barədə qətnamə qəbul olunub.

Plenar iclasda Paris Sazişinin 6-cı maddəsi tam təsdiq olunub. Bu, yüksək inteqrasiya olunmuş karbon bazarları üzrə danışıqların onillik müddətdən sonra başa çatmasıdır.

Tədbirdə inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən tarixi qərar qəbul olunub. Fond iqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə yardımı göstərmək məqsədi daşıyır. Bu, Azərbaycanın COP29 Sədrliyinin növbəti uğurudur.

Plenar iclasda Paris Sazişinin 13-cü maddəsinə uyğun olaraq İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması, qabiliyyət quruculuğu sahəsində inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki dəstəyin göstərilməsinə dair qərar qəbul olunub.

COP29-un iqlim şəffaflığı sahəsində əsas irsi olan Bakı Qlobal İqlim Şəffaflığı Platformasının yaradılması tərəf dövlətləri tərəfindən alqışlanıb.

Plenar iclasda COP29-un əsas prioriteti olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi qəbul olunub. Sənədə əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər olunması təmin ediləcək.

Plenar iclasda, eyni zamanda, "Gender və iqlim dəyişikliyi", "Uyğunlaşmaya dair qlobal hədəf", "Şarm əl-Şeyx yumşaltma ambisiyaları və icra iş proqramı" da daxil olmaqla, bir sıra digər sənədlər təsdiqlənib.

Plenar iclas işini müxtəlif ölkələrin nümayəndələrinin çıxışları ilə davam etdirib və bununla da başa çatıb.

## COP29 CLOSING PLENARY SESSION

On November 23, the closing plenary session of COP29 was held. The COP29 President, Azerbaijan's Minister of Ecology and Natural Resources Mukhtar Babayev, Brazil's Environment Minister Marina Silva, and the Executive Secretary of the UN Framework Convention on Climate Change (UNFCCC) Simon Steele delivered speeches at the event. A resolution was adopted officially thanking Azerbaijan for the high-level organization of COP29.

The plenary session fully confirmed Article 6 of the Paris Agreement. This marks the conclusion of negotiations on highly integrated carbon markets after a decade.

A historic decision was made to ensure the full operational start of the Loss and Damage Fund, which was eagerly anticipated by developing countries, including small island, least developed, and African states. The fund aims to provide financial assistance to countries most vulnerable to the effects of climate change. This is another success of Azerbaijan's COP29 Presidency.

In accordance with Article 13 of the Paris Agreement, a decision was made on the preparation of Biennial Transparency Reports and providing financial and technical support to developing countries in capacity building.

The establishment of the Baku Global Climate Transparency Platform, which is COP29's key legacy in the field of climate transparency, was applauded by the participating states.

The plenary session adopted the New Collective Quantified Goal on Climate Finance, which was a key priority of COP29. According to the document, developed countries will ensure the joint mobilization of $100 billion annually for climate action in developing countries.

The plenary session also confirmed several other documents, including "Gender and Climate Change", "Global Goal on Adaptation", and the "Sharm el-Sheikh Mitigation Ambition and Implementation Work Programme".

The plenary session continued with speeches by representatives from various countries and concluded accordingly.

# COP29 ÇƏRÇİVƏSİNDƏ "TƏMİZ HAVA, TƏMİZ SU: DAVAMLI HƏLLƏR" MÖVZUSUNDA SEMİNAR

# "CLEAN WATER, CLEAN AIR: SUSTAINABLE SOLUTIONS" SEMINAR HELD AS PART OF COP29





*Tahir Cavadzadə*

Noyabrın 5-də Xəzər Universitetində COP29 və Yaşıl Dünya naminə Həmrəylik tədbirləri çərçivəsində Kimya və kimya mühəndisliyi departamentinin müəllimi Tahir Cavadzadə tərəfindən "Təmiz hava, təmiz su: davamlı həllər" mövzusunda elmi seminar keçirilmişdir. Seminarda universitetin rəhbərliyi, müəllim və tələbələri iştirak edirdilər.

Məruzəçi öz çıxışında ölkə ərazisində, əsasən də Abşeron yarımadasında uzun müddət aktual problem olan çirkab sularının neft sənayesi tullantılarından, xüsusilə də ağır metallarlardan təmizlənməsi üçün effektiv həll yolları haqqında danışmışdır. Bundan əlavə, dövrün qlobal problemi olan karbon qazının sintez olunmuş yeni katalizatorlar iştirakında faydalı birləşmələrə çevrilməsi istiqamətində apardığı tədqiqat haqqında ətraflı məlumat vermişdir.

Sonda müzakirələr aparılmış, məruzəçi sualları cavablandırmışdır.

On November 5, a seminar on "Clean Water, Clean Air: Sustainable Solutions" was conducted by Tahir Javadzadeh, lecturer of the Department of Chemistry and Chemical Engineering, as a part of COP29 and Green World Solidarity events at Khazar University. The seminar was attended by university administration, lecturers, and students.

In his speech, the speaker talked about effective solutions for cleaning waste water from oil industry pollutants, especially heavy metals, which has been an actual problem for a long time in the country, mainly on the Absheron peninsula. Moreover, he presented comprehensive information about his research focusing on the catalytic conversion of carbon dioxide, a pressing global issue, into valuable compounds using novel synthetic catalysts.

The session concluded with discussions, during which the presenter addressed questions from the audience.

# COP29 VƏ YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ ÇƏRÇİVƏSİNDƏ TƏDBİR

# EVENT WITHIN THE FRAMEWORK OF COP29 AND YEAR OF SOLIDARITY FOR A GREEN WORLD




*Xuraman Nağızadə*

Noyabrın 7-də Xəzər Universitetinin Təhsil departamenti və Sumqayıt "Dünya" məktəbinin birgə əməkdaşlığı ilə universitetin Mərmər salonunda "COP29 və gənclərin rolu" adlı tədbir təşkil edilmişdir.

Tədbir gənclərin iqlim dəyişikliyi, qida təhlükəsizliyi və COP29-un Azərbaycanda təşkil edilməsinin






*Könül Cəlilova*

əhəmiyyəti ilə bağlı məlumatlılığını artırmaq məqsədi daşıyıb.

Tədbirdə Sumqayıt "Dünya" məktəbinin direktor müavini Xuraman Nağızadə və Xəzər Universitetinin müəllimi Könül Cəlilovanın iştirakı ilə tələbələrlə COP29 və gənclərin rolu, iqlim fəallığı, iqlim dəyişikliyi və qida təhlükəsizliyi kimi aktual mövzularda müzakirələr aparılmışdır

Çıxışlar zamanı COP29-un təşkilinin Azərbaycan, ümumilikdə dünya üçün əhəmiyyətinə xüsusilə toxunulmuşdur. Fəal müzakirələrlə keçən tədbir gənclərin suallarının cavablandırılması ilə yekunlaşmışdır.

On November 7, an event titled "COP29 and the Role of Youth" was organized through the collaboration of Khazar University's Education Department and Sumgayit "Dunya" School in the Marblr hall of the university.

The event aimed to raise awareness among young people about climate change, food security, and the significance of hosting COP29 in Azerbaijan.

Discussions were held with students on current topics such as COP29 and the role of youth, climate activism, climate change, and food security, with the participation of Khuraman Naghizadeh, deputy director of Sumgayit "Dunya" School, and Konul Jalilova, instructor at Khazar University.

During the presentations, special emphasis was placed on the importance of organizing COP29 for Azerbaijan and the world in general. The event, which featured active discussions, concluded with a Q&A session addressing the youth's questions.

# DEPARTAMENT MÜDİRİ COP29 ÇƏRÇİVƏSİNDƏ "QLOBAL İQLİM BÖHRANINDA STRATEJİ KOMMUNİKASİYA" MÖVZUSUNDA KEÇİRİLMİŞ FORUMDA

Noyabrın 11-də Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsi tərəfindən Bakıda keçirilən COP 29 çərçivəsində "Abşeron" hotelində "Qlobal iqlim böhranında strateji kommunikasiya" mövzusunda forum təşkil olunub.

Forumda Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin sədr müvani Çağatay Özdemir, Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin media müşaviri Dr. Cihangir İşbilir, azərbaycanlı və əcnəbi mütəxəssislər iştirak etmişlər.

Açılış nitqlərindən sonra Siyasət, İqtisadiyyat və Toplum Araşdırmaları Fondunun (SETA) Vaşinqton ofisinin direktoru Kılıç Buğra Kanat`ın moderatorluğu ilə keçən forumda digər mütəxəssislərlə yanaşı, Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev də çıxış edərək, mövzu ilə əlaqədar mülahizələrini bildirmişdir.

Dos. Vəliyev çıxışında birinci və ikinci sənaye inqilabları ilə insanın təbiətə kəskin müdaxiləsindən, iyirminci əsrin ikinci yarısından isə təbiətə müdaxilənin ilkin fəsadları ortaya çıxmağa başlayanda alimlərin siyasətçilərin diqqətini iqlim böhranına çəkməyə çalışdıqlarından danışmışdır.. O, üçüncü sənaye inqilabı ilə bərabər iqlim dəyişikliyinin qlobal bir məsələ kimi gündəliyə gələrək, siyasət və iqtisadiyyatda istifadə olunan sistemlərə təsir göstərməyə başladığını qeyd etmiş, fiziki, bioloji və elektron dünyanı bir-birinə yaxınlaşdıran müasir dördüncü sənaye inqilabının isə iqlim dəyişikliyi sahəsində regional və qlobal əməkdaşlığı dövlətlər üçün zərurətə çevirdiyini nəzərə çatdırmışdır. Azərbaycan Respublikasının ev sahibliyi etdiyi COP 29 iqlim böhranları ilə üzləşən dünya qarşısında yeni imkanlar açacaqdır – deyə, natiq çıxışını bitirmişdir.

# DEPARTMENT HEAD PARTICIPATES IN FORUM ON "STRATEGIC COMMUNICATION IN GLOBAL CLIMATE CRISIS" WITHIN COP29 FRAMEWORK

On November 11, a forum on "Strategic Communication in Global Climate Crisis" was organized at the "Absheron" hotel in Baku within the framework of COP29 by the Communications Directorate of the Presidency of the Republic of Türkiye.

The forum was attended by Çağatay Özdemir, Deputy Chairman of the Communications Department of the Presidential Administration of the Republic of Türkiye, Dr. Cihangir İşbilir, Media Advisor of the Embassy of the Republic of Türkiye in Azerbaijan, and Azerbaijani and foreign experts.

Following the opening speeches, Associate Professor Orkhan Valiyev, Head of the Political Science and Philosophy Department at Khazar University, along with other experts, shared his views on the subject at the forum moderated by Kılıç Buğra Kanat, Director of the Washington office of the Foundation for Political, Economic and Social Research (PESR).

In his speech, Associate Professor Valiyev discussed how the first and second industrial revolutions led to humanity's sharp intervention in nature, and how scientists tried to draw politicians' attention to the climate crisis when the initial consequences of environmental intervention began to emerge in the second half of the twentieth century. He noted that with the third industrial revolution, climate change emerged as a global issue and began to influence systems used in politics and economics. He emphasized that the modern fourth industrial revolution, which brings the physical, biological, and electronic worlds closer together, has made regional and global cooperation in the field of climate change a necessity for states. The speaker concluded by stating, "COP29, hosted by the Republic of Azerbaijan, will open new opportunities for the world facing climate crises."

# COP29 ÇƏRÇİVƏSİNDƏ ASİYA İNKİŞAF BANKI İNSTİTUTU İLƏ BİRGƏ TƏDBİR

Xəzər Universiteti Asiya İnkişaf Bankı İnstitutu (ADBI) ilə birgə COP29 tədbirləri çərçivəsində noyabrın 14-də universitetin Mərkəz kampusunda "İqlim fəaliyyətində vətəndaş cəmiyyətinin rolu: həssas əhali qrupuna dəstək" (Civil Society Climate Action: collaboration to support vulnerable populations) adlı konfrans keçirdi.

Konfransda 20-dən çox ölkənin təmsilçiləri iştirak etdi. Müzakirələr iqlim dəyişikliyinin gender aspektləri, gənclərin bu istiqamətdə təşkilatlanması və icma səviyyəsində fəaliyyətin səmərəliliyinin artırılması yolları, ayrı-ayrı ölkələrin bu sahədə təcrübələri ətrafında aparıldı.

***

Tetsushi Sonobe konfransın yüksək səviyyədə təşkilinə görə Xəzər Universitetinə təşəkkür məktubu göndərmişdir.



*Asiya İnkişaf Bankı İnstitutunun icraçı direktoru Tetsushi Sonobe*

# JOINT EVENT WITH ASIAN DEVELOPMENT BANK INSTITUTE IN THE FRAMEWORK OF COP29





Khazar University, in collaboration with the Asian Development Bank Institute (ADBI), held a conference titled "Civil Society Climate Action: Collaboration to Support Vulnerable Populations" on November 14, at the university's Central Campus as part of the COP29 events. Representatives from over 20 countries participated in the conference. Discussions focused on the gender aspects of climate change, ways of organizing youth in this direction, increasing the effectiveness of community-level actions, and experiences of individual countries in this field.

***

Tetsushi Sonobe sent appreciation letter to Khazar University for the organisation of the event in high standarts.

# BAKIDA COP29 ÇƏRÇİVƏSİNDƏ ÇİN-Aİ İQLİM VƏ DAYANIQLI İNKİŞAF ƏMƏKDAŞLIĞI ÜZRƏ DİALOQ

Noyabrın 14-də COP29 çərçivəsində Müasir Çin və Dünya Araşdırmaları Akademiyası (ACCWS) Xəzər Universiteti Çin Araşdırmaları Mərkəzinin dəstəyi ilə "Çin-Aİ İqlim və Dayanıqlı İnkişaf Əməkdaşlığı Dialoqu"nu təşkil edib. "French Bridge" (Fransız Körpüsü) beyin mərkəzi ilə birgə təşkil olunan tədbirdə BMT-nin keçmiş baş katibinin müavini Eric Solheim və Chao Qingchen də daxil olmaqla aparıcı şəxslər iştirak ediblər.

Dialoq zamanı Müasir Çin və Dünya İnstitutunun vitse-prezidenti Fan Daqi və "French Bridge" (Fransız Körpüsü) beyin mərkəzinin sədri Zhou Rui tərəfindən "Çin-Fransa iqlim və dayanıqlı inkişaf əməkdaşlığı: problemlər, imkanlar və perspektivlər" hesabatı təqdim edilib. Digər diqqətəlayiq məruzəçilər arasında Çinhua Universitetinin İqlim Dəyişikliyi İnstitutunun vitse-prezidenti Zhang Jian, Fransa Enerji 2050-nin prezidenti Stéphane Buffari, Çinhua Universitetinin Enerji, Ətraf Mühit və İqtisadiyyat İnstitutunun müdir müavini Teng Fei və Fransız InVivo Qrupunun Kənd Təsərrüfatı Həlləri direktoru Edward Lancrete olub.

Xəzər Universitetinin rektoru İradə Xəlilova Çinə səfərlərindən təəssüratlarını bölüşərək, ölkənin elm, texnologiya və dayanıqlı inkişafa yönəlmiş əhəmiyyətli nailiyyətlərini təqdir edib. O, Xəzər Universitetinin dayanıqlılıq tədqiqatlarına sadiqliyini vurğulayıb və konfransda qlobal iqlim əməkdaşlığının gücləndirilməsi üçün daha güclü beynəlxalq konsensusun əldə olunacağına ümid etdiyini bildirib.

Tədbir COP29 çərçivəsində hökumətlər, tədris qurumları, müəssisələr və vətəndaş cəmiyyətinin töhfələrini bir araya gətirərək, çoxtərəfli dialoqu təşviq etməkdə mühüm addım olub. Avropa İttifaqı Asiya Mərkəzi, Çinhua Universitetinin İqlim Dəyişikliyi İnstitutu və Xəzər Universiteti Çin Araşdırmaları Mərkəzinin dəstəyi ilə keçirilən dialoqda Çin, Fransa, Azərbaycan və müxtəlif qlobal təşkilatlardan olan beynəlxalq ekspertlər, hökumət rəsmiləri, biznes liderləri və gənc nümayəndələr iştirak ediblər.

# CHINA-EU DIALOGUE ON CLIMATE AND SUSTAINABLE DEVELOPMENT COOPERATION HELD WITHIN COP29 IN BAKU

On November 14, during COP29 The Academy of Contemporary China and World Studies (ACCWS) supported by Khazar University China Studies Center, hosted the "China-EU Climate and Sustainable Development Cooperation Dialogue." Co-organized with the French Bridge Think Tank, the event gathered leading figures, including Eric Solheim, former UN Under-Secretary-General, and Chao Qingchen.

The dialogue featured the launch of the report "China-France Climate and Sustainable Development Cooperation: Problems, Opportunities, and Prospects," presented by Fan Daqi, Vice President of the Institute of Contemporary China and the World, and Zhou Rui, Chairman of the French Bridge Think Tank. Other notable speakers included Zhang Jian, Vice President of Tsinghua University's Institute of Climate Change; Stéphane Buffari, President of France Energy 2050; Teng Fei, Deputy Director of Tsinghua University's Institute of Energy, Environment, and Economy; and Edward Lancrete, Director of Agricultural Solutions at the French InVivo Group.

Irada Khalilova, rector of Khazar University, shared her insights from visits to China, praising the nation's significant progress in science, technology, and its focus on sustainable development. She highlighted Khazar University's commitment to sustainability research and expressed hope for stronger international consensus at the conference to enhance global climate collaboration.

The event marked an important step in fostering multi-stakeholder dialogue under the COP29 framework, bringing together contributions from governments, academic institutions, enterprises, and civil society. Supported by the European Union Asia Center, Tsinghua University's Institute of Climate Change, and Khazar University China Studies Center, the dialogue saw extensive participation from international experts, government officials, business leaders, and youth representatives from China, France, Azerbaijan, and various global organizations.



*İradə Xəlilova, QS-in vitse-prezidenti Ben Sauter*

# XƏZƏR UNİVERSİTETİ "DÜNYANIN ƏN YAXŞI UNİVERSİTETLƏRİNİN REYTİNQ SİYAHISI: DAYANIQLILIQ 2025" REYTİNQİNDƏ YER ALIB

# KHAZAR UNIVERSITY IS IN THE "QS WORLD UNIVERSITY SUSTAINABILITY RANKINGS 2025"

Noyabrın 18-də Bakıda keçirilən COP29 çərçivəsində dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "QS Quacquarelli Symonds" tərəfindən "QS dünyanın ən yaxşı universitetlərinin reytinq siyahısı: dayanıqlılıq 2025"- in nəticələri açıqlanıb.

Tədbir Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və "QS Quacquarelli Symonds" təşkilatının birgə təşkilatçılığı və rəhbərliyinin iştirakı ilə keçirilib. Tədbirdə ali təhsil müəssisələrinin rəhbərləri, o cümlədən Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova iştirak ediblər.

Reytinqdə Azərbaycandan 7 ali təhsil müəssisəsi təmsil olunmuşdur. Azərbaycanın özəl ali təhsil müəssisələrindən cədvəldə yalnız Xəzər Universiteti yer almış və həmin reytinqdə 1500+ yerdə qərarlaşmışdır.

107 ölkədən 1751 universitetin iştirak etdiyi reytinqdə Xəzər Universiteti elmi tədqiqata, sosial layihələrə və dayanıqlı inkişaf məqsədlərinə verdiyi töhfəyə görə yüksək nəticələr əldə etmişdir. Bununla yanaşı, beynəlxalq əməkdaşlıq, professor-müəllim və tələbə mübadilə proqramlarında iştirakı üzrə üstünlüyü ilə fərqlənmişdir.

Tədbirdə reytinqə daxil olan ali təhsil müəssisələri QS rəhbərliyi tərəfindən sertifikatla təltif olunub.

Tədbir haqqında xəbər ölkə mediası tərəfindən geniş yayımlanıb.

On November 18, as part of COP29 held in Baku, QS Quacquarelli Symonds, one of the world's most influential ranking organizations, announced the "QS World University Rankings: Sustainability 2025" results. Seven higher education institutions from Azerbaijan were represented in the rankings. Among private universities in Azerbaijan, only Khazar University was included in the list, ranking in the 1500+ category.

The event was organized with the collaboration of the Ministry of Science and Education, the State Agency for Science and Higher Education, and QS Quacquarelli Symonds, with the participation of their leadership. Rectors of higher education institutions, including the Rector of Khazar University, Assoc. Prof. Irada Khalilova, participated in the event.

In the rankings, which included 1,751 universities from 107 countries, Khazar University achieved high results due to its contributions to research, social projects, and sustainable development goals. Khazar University stood out for its excellence in international collaboration and active participation in faculty and student exchange programs.

At the event, higher education institutions included in the ranking were awarded certificates by the QS leadership. The media widely covered the event.

***https://azertag.az/xeber/cop29_cherchivesinde_dunyanin_en_yaxsi_universitetlerinin_reytinq_siyahisi_dayaniqliliq_2025in_neticeleri_elan_edilib-3289628*** və s.




## COP29 ÇƏRÇİVƏSİNDƏ XƏZƏR VƏ EXETER UNİVERSİTETLƏRİNİN ƏMƏKDAŞLIĞI: ANTOLOGİYA HAZIRLANMIŞDIR

Azərbaycanda keçirilən COP29 tədbiri münasibətilə İngiltərənin nüfuzlu universitetlərindən biri olan Exeter Universiteti və Xəzər Universitetinin birgə əməkdaşlığı nəticəsində "We Are the Possible – The Land of Fire: 12 Stories for 12 Days of COP29" ("Bizim imkan - Odlar Yurdu: COP29-un 12 günü üçün 12 hekayə") adlı antologiya yaradılmışdır. Bu ədəbi layihə ölkənin milli kimliyini və Odlar Yurdu ruhunu əks etdirən orijinal bir təşəbbüsdür.

Antologiyanın ingilis dilindən Azərbaycan dilinə tərcüməsi Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşları - departament müdiri Milana Abbasova, müəllimlər Zamirə Qurbanova, Sonası Vəliyeva, Şəhla Qəməri və Elmira Cahangirli tərəfindən edilmişdir.

Tərcümə prosesinin bədii redaktəsi isə tanınmış yazıçı və tərcüməçi Leyli Salayeva tərəfindən həyata keçirilib. Antologiyanın həm orijinal, həm də Azərbaycan dilindəki nəşri Exeter Universitetində işıq üzü görüb.

Bu layihə COP29 kontekstində Azərbaycanın mədəni potensialını və ədəbi yaradıcılığını beynəlxalq səviyyədə nümayiş etdirən dəyərli bir təşəbbüsdür.

## COLLABORATION BETWEEN KHAZAR AND EXETER UNIVERSITIES DURING COP29: AN ANTHOLOGY COMPILED

On the occasion of COP29 in Azerbaijan, an anthology titled "We Are the Possible – The Land of Fire: 12 Stories for 12 Days of COP29" has been created through a joint collaboration between the prestigious University of Exeter from the United Kingdom and Khazar University. This literary project is an original initiative reflecting the nation's national identity and the spirit of the Land of Fire.

The translation of the anthology from English to Azerbaijani was carried out by staff members of Khazar University's Department of English Language and Literature - Department Head Milana Abbasova, lecturers Zamira Gurbanova, Sonasi Valiyeva, Shahla Gamari, and Elmira Jahangirli.

The artistic editing of the translation process was conducted by renowned writer and translator Leyla Salayeva. The publication of the anthology in both its original and Azerbaijani versions has been published at the University of Exeter.

This project is a valuable initiative that demonstrates Azerbaijan's cultural potential and literary creativity at an international level within the context of COP29.

*https://greenfutures.exeter.ac.uk/our-impact/we-are-the-possible/12-poems-for-the-12-days-of-cop28/we-are-the-possible-the-land-of-fire-cop29/we-are-the-possible-cop29-the-anthology/*

# ŞUŞA'NIN DAĞLARI

**Akkan Suver**



*Hamlet İsaxanlının "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabından da bəhs olunan məqaləni oxucularımıza təqdim edirik.*

Geride kalan dört yılda ülkemden neredeyse gitmeyenin kalmadığı Karabağ'a ben ancak geride bıraktığımız günlerde gidebildim.

Türkiye'de, Karabağ hakkında çeşitli gazete ve yayın organlarında sayısız makale yazmış, televizyon ve radyo kanallarında defaatle Karabağ'ın haklı davasını savunmuş biri olduğum halde bir türlü gidemediğim Karabağ'a COP29 toplantıları münasebetiyle gittiğim Bakü'de görevimizi tamamladıktan sonra Şeyh-ül-İslam Allahşükür Paşazade'nin tertiplediği bir oluşumla ulaştım. Karabağ ziyareti öncesi Azerbaycan'ın yaşayan değerlerinden Hamlet İsahanlı'nın "Karabağ Düğünü" kitabını okumuştum. Fuzuli Havalimanı'na indiğimde elimde "Karabağ Düğünü" kitabı vardı.

Kitabın yazarı Hamlet İsahanlı diyor ki; "Her Azerbaycanlının bir Karabağ sevgisi ve bir Karabağ ağrısı vardır. Karabağ'ın Azerbaycan medeniyetinde ve Azerbaycan tarihinde hususi bir yeri vardır."

Bu haklı değerlendirmeyi Karabağ ziyaretimde hissettim, gördüm, yaşadım.

Tarih boyunca bir kültür başkenti olmuş olan Şuşa için Karabağ'ın atan kalbi denilmesi yetiştirdiği müstesna evlatlarından ve bir kültür merkezi olmasından kaynaklanmaktadır.

Fuzuli'yi, Ağdam'ı, Hankendi'yi ve Şuşa'yı ziyaret ederken bölgenin büyük evladı Ahmet Ağoğlu'nun Türk Dünyası'ndaki yüksek hizmetlerini hatırladım. Şuşa'da bestekar Üzeyir Hacıbeyov'un ölümsüz notaları kulağımda çınlarken, Reşit Behbudov'un müstesna sanatını hissettim. Uğradığı yüksek mezalimden dolayı Ağdam şehrine Kafkas'ın Hiroşima'sı adını vermelerinin acısını ve uğranılan büyük haksızlıkları hissederken, gördüğüm inşaat çalışmalarıyla yakın bir gelecekte Ağdam'ın modern şehirciliğin estetik merkezi olacağını sezerek acılarımı teselli ettim.

Gene Ağdam'ın Karabağ Üniversitesi'nin oluşumuyla bir üniversite, bir eğitim şehri olacağını da öğrenmiş olmanın huzurunu yaşadım.

Öte yandan bilmek gerekir ki; halı dokumada da bu bölge kendine mahsus renk ve nakışlarıyla dikkat çeken bir coğrafya oluşturmaktadır.

Hâr-ı Bülbül diye isimlendirilen bu topraklara özgü bir çiçek olarak, Gül üstüne konmuş bir bülbülü canlandıran bu çiçek Karabağ'ı temsil eden bir simgedir. Gene Karabağ atları da bu bölgeye ait bir at cinsi olarak Karabağ'a ayrı bir nam kazandırmış bulunmaktadır.

Elbette yakın bir gelecekte modern ve estetik bir şehircilik örneği oluşturacak olan Karabağ'ın dünden bugüne intikalinde her Azerbaycanlının kendine göre bir hizmeti vardır.

Bu unutulmaz ve inkâr edilemez. Yalnız unutmamak gerekir ki Haydar Aliyev Fondu'nun (Vakfı'nın) hizmetleri de pek büyüktür. Karabağ'ın Ermeni elinde olduğu yıllarda Haydar Aliyev Fondu gerek Azerbaycan'da gerekse de yurt dışında konuyu unutturmayacak sayısız faaliyete imza atmıştı.

Değişik dillerde yayımlanan kitaplar, tertiplenen konferanslar, uluslararası etkinlikler, güzel sanat sergileri, tertiplenen müzikal gösteriler, medeniyet ve dini hoşgörüyle bezenmiş toplantılarla Haydar Aliyev Fondu Karabağ konusunu işgalli yıllarda canlı tutmuştu. Bunun da hakkını teslim etmek gerek! Şuşa olmadan Karabağ, Karabağ olmadan Azerbaycan olmaz diyen Haydar Aliyev'in sözlerine sahip çıkan Azerbaycanlı kardeşlerimiz inanıyorum ki yakın bir gelecekte Karabağ topraklarında yeni bir medeniyet, yeni bir kültür coğrafyası oluşturacaklardır.

**"Gözlem" qəzeti**
*23-29.11.2024*




*Aqşin Əliyev*

## XƏZƏR UNİVERSİTETİ ÇİN TƏDQİQATLAR MƏRKƏZİNİN DİREKTORU AQŞİN ƏLİYEV BEYNƏLXALQ KONFUTSİÇİLİK ASSOSİASİYASININ 7-Cİ ŞURASININ ÜZVÜ SEÇİLİB

## DIRECTOR OF KHAZAR UNIVERSITY'S CHINA STUDIES CENTER AGSHIN ALIYEV ELECTED MEMBER OF THE 7TH COUNCIL OF INTERNATIONAL CONFUCIAN ASSOCIATION

Noyabrın 8-də Pekində Çin mütəfəkkiri Konfutsinin anadan olmasının 2575 illiyinə həsr olunmuş beynəlxalq konfrans və Beynəlxalq Konfutsiçilik Assosiasiyasının (BKA) 7-ci qurultayı keçirilib.

Konfransda 110 ölkədən 800-ə yaxın sinoloq-alim iştirak edib. Konfransın açılış mərasimində çıxış edən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun daimi üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasinin sədri Vanq Huninq Konfutsinin humanist ideologiyasının müasir dövrdə aktuallığını qeyd edib, hazırda mədəniyyətlərarası mübadilənin dünyada sülhün bərqərar olunmasındakı rolunu xüsusi olaraq vurğulayıb.

Pekin Xarici Dillər Universiteti Asiya fakültəsi Azərbaycan dili kafedrasının müdiri, Xəzər Universiteti Çin Tədqiqatlar Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev Beynəlxalq Konfutsiçilik Assosiasiyasının 7-ci Şurasının ilk azərbaycanlı üzvü seçilib.

Qeyd edək ki, 1994-cü ildə yaradılan BKA özündə dünyanın 80 ölkəsindən filosofları, dilçiləri, tərcüməçiləri, ədəbiyyatşünasları birləşdirən nəhəng beynəlxalq elmi təşkilatdır.

*AZƏRTAC* bu barədə xəbər yayımlayıb:

An international conference dedicated to the 2,575th anniversary of Chinese philosopher Confucius's birth and the 7th Congress of the International Confucian Association (ICA) was held in Beijing on November 8.

Nearly 800 sinologist-scholars from 110 countries participated in the conference. Wang Huning, Standing Member of the Political Bureau of the Communist Party of China Central Committee and Chairman of the Chinese People's Political Consultative Council, speaking at the opening ceremony, noted the relevance of Confucius's humanist ideology in modern times and particularly emphasized the role of intercultural exchange in establishing world peace.

Dr. Agshin Aliyev, Head of the Azerbaijani Language Department at Beijing Foreign Studies University's Asian Faculty and Director of Khazar University's China Studies Center, Ph.D. in Philology, was elected as the first Azerbaijani member of the 7th Council of the International Confucian Association.

It should be noted that the ICA, established in 1994, is a massive international scientific organization that unites philosophers, linguists, translators, and literary scholars from 80 countries worldwide.

*AZERTAC* published news about this:

***https://azertag.az/xeber/azerbaycanli_alim_beynelxalq_konfutsichilik_assosiasiyasinin_7_ci_surasinin_uzvu_sechilib-3268424***

# "DÜNYA" MƏKTƏBİNİN YEDDİ YAŞLI ŞAGİRDİ MİRYUSİF BEYNƏLXALQ TURNİRİN QALİBİ OLDU



*Şahin Atamov, Miryusif Məcidov*

Xəzər Universiteti "Dünya" məktəbinin ikinci sinif şagirdi Miryusif Məcidov noyabrın 25-də Gürcüstanın paytaxtı Tbilisi şəhərində karate üzrə keçirilən "Tbilisi Open-2024" beynəlxalq turnirinin qalibi olub.

Yarışda Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, İran və Ermənistandan olan idmançılar güclərini sınayıblar.

Beynəlxalq turnirdə böyük heyətlə təmsil olunan Azərbaycan Karate Federasiyasının uşaq, yeniyetmə və gənclərdən ibarət üzvləri final görüşlərində yüksək nəticələr əldə ediblər.

Həmin idmançılardan biri də Dünya və Avropa çempionatlarında dəfələrlə mükafatlar qazanmış məşqçi Şahin Atamovun yetirməsi Miryusif Məcidovdur. O, uşaqlar arasında şəxsi kumite yarışlarında dörd döyüş keçirib. İki erməni, iki gürcü karateçisi ilə üz-üzə gəlib. Finalda erməni karateçiyə 12:3 xal hesabı ilə qalib gələn Miryusif Məcidov turnirin qalibi olub.

# SEVEN-YEAR-OLD "DÜNYA" SCHOOL STUDENT MIRYUSIF IS THE WINNER OF AN INTERNATIONAL TOURNAMENT

Miryusif Majidov, a second-grade student at Khazar University's "Dünya" School, born in 2017, has won the "Tbilisi Open-2024" international karate tournament recently held in the capital of Georgia, Tbilisi.

Athletes from Azerbaijan, Türkiye, Georgia, Kazakhstan, Iran, and Armenia competed in the tournament.

The Azerbaijan Karate Federation was represented by a large team of children, teenagers, and youth who achieved high results in the final matches.

One of these athletes is Miryusif Majidov, a student of coach Shahin Atamov. He competed in four personal kumite matches among children, facing two Armenian and two Georgian karatekas. In the final, Miryusif Majidov defeated an Armenian karateka with a score of 12:3, winning the tournament.

Some websites have published reports about this achievement.

## HƏYAT ELMLƏRİ DEPARTAMENTİNİN MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİ "CITRUS VALLEY"DƏ

Oktyabrın 22-də Həyat elmləri departamentinin təşkilatçılığı ilə biomüxtəlifliyin öyrənilməsi məqsədilə "Citrus valley" təsərrüfatına səfər edilmiş və ekskursiya Dünya Vahid Sağlamlıq Gününə həsr olunmuşdur.

## INSTRUCTORS AND STUDENTS OF THE DEPARTMENT OF LIFE SCIENCES VISIT "CITRUS VALLEY"

On October 22, the Department of Life Sciences organized a field trip to the "Citrus Valley" farm to study biodiversity. The excursion was dedicated to World Unified Health Day.



*Rəftarə Şükürova* *Cavid Ocaqi*

Tələbələrə biomüxtəlifliyin əhəmiyyəti, bitkilərin müxtəlif ətraf mühit amillərinə adaptasiyası, müxtəlif sitrus bitkiləri, onların növləri, meyvəsi, həmçinin, iqlim dəyişikliyinin və antropogen faktorların bu tip ekosistemlərə təsiri haqqında məlumat verilmişdir. Bundan əlavə, departamentin dosenti Cavid Ocaqi tələbələrə hektara düşən ağac sayının və məhsuldarlığın müəyyən edilməsini əyani şəkildə izah etmişdir. Sonda çay süfrəsinə qonaq olan tələbələr bağın sahibi Rəftarə Şükürovanın 15 hektar ərazini əhatə edən "Citrus valley" təsərrüfatının yaradılması haqqında söhbətini dinləmişlər.

The students were provided information on the importance of biodiversity, plant adaptation to various environmental factors, different citrus plants and their varieties, fruits, as well as the impact of climate change and anthropogenic factors on such ecosystems. Additionally, Javid Ocaghi, an associate professor in the department, gave a hands-on demonstration on how to determine the number of trees per hectare and productivity.

Finally, the students, who were invited to a tea, listened to the owner of the garden, Raftar Shukurova, talk about the creation of the "Citrus Valley" farm, which covers an area of 15 hectares.

# "SÜNİ İNTELLEKT TƏTBİQLƏRİ ÜZRƏ AKTUAL MÖVZULAR" ADLI SEMİNAR

# "HOT TOPICS IN ARTIFICIAL INTELLIGENCE APPLICATIONS" WORKSHOP





*Asadullah Şahbəhrami*

Oktyabrın 22-24-də Xəzər Universiteti "Süni intellekt tətbiqləri üzrə aktual mövzular" adlı üçgünlük seminara ev sahibliyi etdi. Universitetin İntellektual Sistemlər üzrə Tədqiqat Mərkəzi (İSTM) tərəfindən təşkil edilən seminar süni intellekt (Sİ) sahəsindəki ən son tendensiyaları, çağırışları və yenilikləri araşdırmaq həvəsində olan tədris işçilərini, sənaye ekspertlərini və tələbələri bir araya gətirdi.

Seminarın ilk günü Prof. Reza Həsənpur "Maşın öyrənməsinin kök sistemlərə inteqrasiyası: imkanlar və çağırışlar" mövzusunda məruzə etdi, maşın öyrənməsinin praktiki tətbiqinin əhəmiyyətini vurğuladı və texnologiyanın transformativ gücünü nümayiş etdirən real tətbiqləri nəzərə çatdırdı.

İkinci gün universitetin Mərmər zalında keçirilən sessiya rəqəmsal təsvir emalında, ağıllı nəqliyyat sistemlərində (ANS) və robotikada Sİ tətbiqlərinə yönəldi. Prof. Asadullah Şahbəhrami tərəfindən "ANS-də rəqəmsal təsvir emalı tətbiqləri" mövzusunda sessiya ilə başladı və təsvirə əsaslanan ANS və nömrə nişanlarının aşkarlanmasını əhatə etdi. İştirakçılar inkişaf edən ANS və onun təsvir emalı texnikalarından əhəmiyyətli asılılığı haqqında məlumat əldə etdilər. Sonra Əli Turani tərəfindən robotların qavrayışı üçün kompüter görünüşü sistemləri haqqında maraqlı təqdimat edildi. Daha sonra Prof. Həsənpur Prof. Şahbəhrami ilə birgə tələbələrə və gənc tədqiqatçılara

(Ardı səh.30-da)

From October 22-24, Khazar University hosted a dynamic three-day workshop titled "Hot Topics in Artificial Intelligence Applications." Organized by the university's Intelligence Systems Research Center (ISRC), the workshop brought together esteemed teaching staff, industry experts, and students eager to explore the latest trends, challenges, and innovations in artificial intelligence (AI).

On the first day of the workshop, Prof. Reza Hassanpour presented a report on "Integrating Machine Learning in Embedded Systems: Opportunities and Challenges," emphasized the importance of applying machine learning practically, and explored real-world applications that showcased the technology's transformative power.

On the second day, the focus shifted to AI's applications in digital image processing, intelligent transportation systems (ITS), and robotics, held in the university's marble hall. The day began with a session by Prof. A. Shahbahrami on "Digital Image Processing Applications in ITS," covering vision-based ITS and license plate detection. Participants gained insights into the growing field of ITS and its critical reliance on image processing techniques. This was followed by an insightful presentation on computer vision for robotic perception by Ali Tourani. Then Prof. Hassanpour, collaborating with Prof.

(To be continued page 30)



*Əli Turani*

tədqiqat məqalələri və təklifləri yazmaq üçün tövsiyələrini bildirdilər.

3-cü günün əsas məqamları mental sağlamlıq üçün Sİ, PUA təhlükəsizliyi, İoT və təsvir keyfiyyətinin qiymətləndirilməsi oldu. Nima Esmi günə "Mental sağlamlıqda Sİ: imkanlar və çağırışlar" mövzusunun müzakirəsi ilə başladı və son Sİ modelləri təqdim edildi. Nima Esmi, həmçinin, bu həssas sahədə etik narahatlıqlar və data çətinliklərini də işıqlandırdı.



Əkbər Telikani "PUA-dəstəkli ANS-də düşmən hücumları və müdafiələr" mövzusunda təqdimat edərək, pilotsuz uçuş aparatları tərəfindən dəstəklənən ANS sistemlərində təhlükəsizlik zəiflikləri ilə bağlı artan narahatlıqları müzakirə etdi. Prof. Seyid Haşım Mirbahari "İoT və onun tətbiqinin dərindən araşdırılması" mövzusunda İoT texnologiyasının çoxşaxəliliyi üçün təxminən səkkiz praktik layihə nümayiş etdirdi.

Seminar Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyevanın rəhbərliyi ilə sertifikat təqdimetmə mərasimi ilə başa çatdı.

Shahbahrami, provided students and young researchers with strategies for writing research papers and proposals, enhancing their academic skillset.

Highlights of the third day were AI for Mental Health, UAV Security, IoT, and Image Quality Assessment. Nima Esmi opened the day by discussing "AI in Mental Health: Opportunities and Challenges," where he introduced recent AI models. Esmi also shed light on the ethical concerns and data challenges in this sensitive area. Akbar Telikani presented "Adversarial Attacks and Defenses in UAV-Aided ITS," addressing



*Fəxrəndə Əfəndiyeva, Reza Həsənpur*

the growing concerns around security vulnerabilities in ITS systems facilitated by unmanned aerial vehicles. Prof. Syed Hashem Mirbahari presented a session titled "In-Depth Exploration of IoT and Its Application," where he showcased nearly eight practical projects to demonstrate the versatility of IoT technology.

The workshop concluded with a certificate presentation ceremony led by Dr. Fakhranda Afandiyeva, Dean of the School of Science and Engineering.



# DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNDƏ



# LANGUAGES AND LITERATURE DEPARTMENT LECTURER AT SUMGAYIT STATE UNIVERSITY

Oktyabrın 28-də Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr. Sevinc Qəmbərova Sumqayıt Dövlət Universitetinin Filologiya fakültəsinin təşkil etdiyi "Müştərək dərs" layihəsində iştirak etmək üçün dəvət olunmuşdur. Dərs "Azərbaycan dilinin tarixi morfologiyası" fənnindən "Azərbaycan dilinin tarixi morfologiyasında zərf" mövzusunda keçirilmişdir.

Dil və ədəbiyyat kafedrasının baş müəllimi Elnarə Əhmədova dərsi açıq elan etmiş, tələbələrə zərflər və məna növləri, quruluşu, dilçilik ədəbiyyatında zərflərə yanaşmalar, klassiklərin dilində işlədilən zərflər və s. barədə əhatəli məlumat vermişdir. Dr. Sevinc Qəmbərova qədim və müasir türk dillərində zərf, Azərbaycan dili şivələrində zərf və s. barədə danışmış və tələbələrin suallarını cavablandırmışdır. Dərsdə Filologiya fakültəsinin dekanı Dos. Günel Paşayeva, Dil və ədəbiyyat kafedrasının müdiri Dos. Böyükxanım Eminli, Xarici dillər kafedrasının müdiri Prof. Nigar İsgəndərova və başqaları iştirak etmişlər. Dərs müsbət qarşılanaraq, yüksək qiymətləndirilmişdir.

On October 28, Dr. Sevinj Gambarova, lecturer of the Department of Languages and Literature, was invited to participate in the "Joint Lesson" project organized by the Faculty of Philology at Sumgayit State University. The lesson was conducted on the topic "Adverbs in the Historical Morphology of the Azerbaijani Language" in the subject "Historical Morphology of the Azerbaijani Language."

Senior lecturer of the Department of Language and Literature, Elnara Ahmadova, opened the lesson and provided comprehensive information to students about adverbs and their semantic types, structure, approaches to adverbs in linguistic literature, adverbs used in classical literature, and more. Dr. Sevinj Gambarova spoke about adverbs in ancient and modern Turkic languages, adverbs in Azerbaijani dialects, and answered students' questions. The lesson was attended by the Dean of the Faculty of Philology Assoc. Prof. Gunel Pashayeva, Head of the Department of Language and Literature Assoc. Prof. Boyukhanim Eminli, Head of the Foreign Languages Department Prof. Nigar Iskenderova, and others. The lesson was positively received and highly evaluated.

# "ABŞ-DA TƏHSİL" MÖVZUSUNDA GÖRÜŞ

# MEETING ABOUT EDUCATION IN THE USA

Oktyabrın 28-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən universitet tələbələri üçün "ABŞ-da təhsil" mövzusunda görüş təşkil edildi. Görüşdə Fulbrayt proqramı çərçivəsində Xəzər Universitetinə gəlmiş Natalia Rekhter və Azərbaycanın Amerika Şurasından olan ekspertlər çıxış edərək, tələbələri ABŞ-dakı təhsil barəsində məlumatlandırdılar.

On October 28, the International Relations Department of Khazar University organized a meeting for university students about education in the USA. At the meeting, Natalia Rekhter, who came to Khazar University under the Fulbright program, and experts from the American Councils for Azerbaijan gave speeches and informed students about education in the USA.



*Natalia Rekhter*



Universitetin rektoru Dos. İradə Xəlilova qonaqları təqdim etdikdən sonra tədbir Natalia Rekhter`in çıxışı ilə davam etdi. O, ABŞ-da mövcud olan universitetlər, onlara qəbul üçün hansı sənədlərin və hansı beynəlxalq sertifikatların tələb olunduğu haqda tələbələrə məlumat verdi. Beynəlxalq Təhsil üzrə Amerika Şurasının nümayəndələri Jalə Axundova və Ramilə Verdiyeva, əsasən, ABŞ-dakı yüksək reytinqli universitetlərə qəbul üçün təhsil göstəricilərindən savayı namizədin hansı sosial fəallıqlara, o cümlədən hansı sosial profilə sahib olması barəsində öz fikirlərini tələbələrlə bölüşdülər.

Sonra tələbələr spikerlərə suallarını ünvanladılar və bu suallar ətrafında müzakirə aparıldı.

After Associate Professor Irada Khalilova, the university's rector, introduced the guests, the event continued with Natalia Rekhter's speech. She provided information to students about existing universities in the USA, and what documents and international certificates are required for admission. Representatives of the American Council on International Education, Jala Akhundova and Ramila Verdiyeva, mainly shared their thoughts with students about what social activities and social profile a candidate should have, in addition to educational indicators, for admission to highly ranked universities in the USA.

Afterwards, students addressed their questions to the speakers, and discussions were held around these questions.

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİ ƏMƏKDAŞLARININ BİRGƏ MƏQALƏSİ “*UNIVERSIDAD & SOCIEDAD*” JURNALINDA




Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müdiri, dosent Dilbər Zeynalova və departamentin dosenti Ülvi Babasoyun “Metatextual and intertextual relationship in Kamal Abdulla's novel "Laokoon...Laokoon...or the "true" writing history of a novel" (“Kamal Abdullanın “Laokoon… Laokoon… yaxud bir romanın “gerçək” yazılma tarixçəsi” romanında metatekstual və intertekstual əlaqə”) adlı birgə “məqaləsi Kubanın Senfueqos Universitetinin nəşri Web of Science bazasında indeksləşən “Universidad & Sociedad” jurnalında (2024, cild 16, № 4, s. 178-188) dərc edilib.

Məqalədə Kamal Abdullanın “Laokoon… Laokoon… yaxud bir romanın “gerçək” yazılma tarixçəsi” romanının süjetinə müəllifin ilk postmodern romanı “Yarımçıq əlyazma”nın yazılma tarixçəsi daxil edildiyinə görə metatekstual və intertekstual əlaqə məsələləri tədqiq edilir.

## CO-AUTHORED ARTICLE BY LANGUAGES AND LITERATURES DEPARTMENT COLLEAGUES PUBLISHED IN "*UNIVERSIDAD & SOCIEDAD*"

A joint article by Dilbar Zeynalova, Head of the Languages and Literatures Department at Khazar University, and Department Associate Professor Ulvi Babasoy, titled "Metatextual and intertextual relationship in Kamal Abdulla's novel "Laokoon...Laokoon...or the 'true' writing history of a novel" has been published in the "Universidad & Sociedad" journal (2024, Volume 16, No. 4, pp. 178-188), which is indexed in the Web of Science database, published by Senfuegos University in Cuba.

The article investigates metatextual and intertextual relationships in the novel, noting that the plot includes the writing history of the author's first postmodern novel "Incomplete Manuscript".

***https://rus.ucf.edu.cu/index.php/rus/article/view/4686***




## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ ƏMƏKDAŞININ HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ "*JOURNAL OF LANGUAGE & EDUCATION*" JURNALINDA

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Dr. Məhəmməd İmranın həmmüəllifi olduğu "Variation in Academic Writing: A Corpus-Based Investigation on the Use of Syntactic Features by Advanced L2 Academic Writers" ("Elmi yazıda variasiya: ikinci dildə peşəkar səviyyəli müəllliflər tərəfindən sintaktik xüsusiyyətlərin istifadəsinə dair korpus əsaslı tədqiqat") adlı məqalə Scopus Q2 və ISI Q2 indeksli "Journal of Language & Education" jurnalında (cild 10, nömrə 3, səh. 25-39) dərc olunmuşdur.

Məqalədə ikinci dildə peşəkar səviyyəli müəlliflərin yazılarında sintaktik xüsusiyyətlərin istifadəsindəki fərqlilik və oxşarlıqlar (müxtəlif elm sahələri üzrə) araşdırılır və müxtəlif sahələr üzrə akademik yazı tədrisi və tədris proqramının hazırlanması üçün faydalı məlumatlar verilir.

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT EMPLOYEE’S CO-AUTHORED ARTICLE IN “*JOURNAL OF LANGUAGE & EDUCATION*” JOURNAL

Dr. Muhammad Imran of Khazar University's English Language and Literature Department, as a co-author, has published an article titled “Variation in Academic Writing: A Corpus-Based Investigation on the Use of Syntactic Features by Advanced L2 Academic Writers. Journal of Language & Education, 10(3), 25-39, a Scopus Q2 and ISI Q2 indexed journal.

This article explores the disciplinary variations and commonalities in the use of syntactic features in academic writing among non-native advanced L2 writers, offering insights for tailored academic writing instruction and curriculum development across diverse fields.

***https://doi.org/10.17323/jle.2024.21618***

# MÜHƏNDİSLİK BİOMATERİALLAR TƏDQİQAT MƏRKƏZİNİN AÇILIŞI VƏ İLK BEYNƏLXALQ SEMİNARI





*Hamlet İsaxanlı*

Oktyabrın 29-30-da Xəzər Universitetində yeni yaradılmış Mühəndislik Biomateriallar Tədqiqat Mərkəzinin (MBTM) açılışı və mərkəzin ilk beynəlxalq seminarı təşkil olunmuşdur. Proqram 2 əsas hissədən - musiqili bədii və biomaterialların həyat elmlərində tətbiqinə dair müasir yanaşmaları əhatə edən elmi məruzələrdən ibarət olmuşdur. Seminarda Xəzər Universitetinin professor-müəllim heyəti və tələbələri ilə yanaşı, digər universitetlərin rəhbərləri, elmi tədqiqat institutlarının alimləri, özəl şirkətlərin nümayəndələri, sənaye üzrə mütəxəssislər və iş adamları iştirak etmişdir.

Seminarın bədii proqramı Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə təşkil

# OPENING AND FIRST INTERNATIONAL SEMINAR OF THE ENGINEERING BIOMATERIALS RESEARCH CENTER

On October 29-30, the opening ceremony and first international seminar of the newly established Engineering Biomaterials Research Center (EBRC) were organized at Khazar University. The program consisted of 2 main parts - an artistic musical performance and scientific presentations covering modern approaches to the application of biomaterials in life sciences. The seminar was attended by academic staff and students of Khazar University, along with leaders from other universities, scientists from research institutes, representatives of private companies, industry specialists, and business people.

The artistic program was organized under the direction of Zulfiyya Sadigova, Head of the Music and Arts Department at Khazar University, honored teacher, and pianist. The



*Soodabeh Davaran (İran)*

olunmuşdur. Tədbir universitetin Kamera Orkestrinin ifası ilə açılmış və Prezident mükafatçısı Orxan Həşimovun dirijorluğu ilə davam etmişdir. Proqramda Azərbaycan və dünya musiqisinin seçilmiş əsərləri təqdim olunmuşdur. Xüsusilə Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından parçalar, Qara Qarayevin "Yeddi Gözəl" baletindən rəqslər və Asəf Zeynallının "Ölkəm" əsəri böyük maraqla qarşılanmışdır.




*Omid Mashinchian (İsveçrə)*

Seminarın elmi hissəsi Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şu-

*(Ardı səh.36 -da)*

event opened with a performance by the university's Chamber Orchestra and continued under the conductorship of Presidential Award winner Orkhan Hashimov. The program featured prominent works from Azerbaijani and world music. Particularly well-received were excerpts from Uzeyir Hajibeyli's opera "Leyli and Majnun," dances from Gara Garayev's ballet "Seven Beauties," and Asaf Zeynalli's "My Country."




*Aziz Eftekhari (İran)*



*Hayrettin Ozan Gülcan ( Şimali Kipr)*

The scientific portion began with an opening speech by Prof. Acad. Hamlet Isakhanli,

*(To be continued page 36)*



*Peyman Keyhanvar (İran)*

rasının sədri Prof.Akad. Hamlet İsaxanlının açılış nitqi ilə başlamışdır. O, elmi tədqiqat mərkəzinin yaradılmasının əhəmiyyəti və fəaliyyət istiqamətlərinin cəmiyyət və sənaye üçün vacibliyini vurğulamışdır. Sonra, mərkəzin direktoru Prof. Soodabeh Davaran mərkəz üzvlərini və iştirakçıları salamlamış, yeni mərkəzin vizyonu, məqsədləri və istiqamətləri barədə ətraflı məlumat vermişdir. Həmçinin İran, Türkiyə, İsveçrə, Kipr və Azərbaycandan olan mərkəz üzvləri də seminarda iştirak etmiş, biomateriallarla bağlı müxtəlif mövzular üzrə məruzələr təqdim olunmuş və geniş müzakirələr aparılmışdır.

Seminarın əsas məqsədi biomateriallar sahəsində universitet-sənaye əməkdaşlığını genişləndirmək, innovativ yanaşmaları ictimaiyyətə təqdim etmək və bu sahədə yeni perspektivlər açmaq olmuşdur. Seminar biomaterialların elmi və tətbiqi potensialını həm tədris, həm də sənaye nümayəndələrinə geniş şəkildə nümayiş etdirmişdir.

Sonda mərkəz üzvlərinə Xəzər Universiteti adından hədiyyələr təqdim olunmuşdur.

founder of Khazar University and Chairman of the Board of Directors and Trustees. He emphasized the importance of establishing the research center and the significance of its activities for society and industry. Then, the center's director Prof. Soodabeh Davaran greeted center members and participants, providing detailed information about the new center's vision, objectives, and directions. Center members from Iran, Türkiye, Switzerland, Cyprus, and Azerbaijan also participated in the seminar, presenting reports on various topics related to biomaterials and engaging in extensive discussions.



*Fikrettin Şahin (Türkiyə)*

The main purpose of the seminar was to expand university-industry collaboration in the field of biomaterials, present innovative approaches to the public, and open new perspectives in this field. The seminar extensively demonstrated both the scientific and practical potential of biomaterials to both educational and industry representatives.

At the conclusion, center members were presented with gifts on behalf of Khazar University.

# NEXTKHAZAR IDEA SHOW STARTAP LAYİHƏSİNİN YEKUN TƏDBİRİ



*Hamlet İsaxanlı*

Oktyabrın 30-da Xəzər Universitetində NextKhazar Idea Show startap layihəsinin yekun tədbiri keçirilmişdir. Layihənin əsas məqsədi startap ideyalarının formalaşması üçün dəstəkləyici ekosistemin yaradılmasıdır. Belə ekosistemin yaradılması sahibkarlığın, həmçinin iqtisadi artımın təşviqi, biliklərin ötürülməsi üçün olduqca vacibdir və inkubatorlar, akseleratorlar, texnologiya transferi ofisləri kimi əsas komponentlərdən ibarət olmalıdır. Bu xüsusiyyətləri tədris mühitinə daxil etməklə Xəzər Universiteti tədqiqat nəticələrini sosial-iqtisadi dəyərə malik məhsul və xidmətlərə çevirməyi hədəfləyir.

Tədbirdə Idea Show-un rəhbəri Prof.Akad. Hamlet İsaxanlı, layihənin baş katibi Prof. Soodabeh Davaran, Strateji komitənin rəhbəri Dr. Solmaz Hazratgholizad, elmi katibi dosent Cavid Ocaqi, texnoloji katibi dosent Peyman Keyhanvar, icra katibi Dr. Cəmalə Eldarova, Xəzər Universitetinin professor-müəllim heyəti, tələbələr, digər universitetlərin elmi tədqiqat müəssisələrinin nümayəndələri iştirak edirdilər.

26 günlük prosesi əhatə edən NextKhazar Idea Show-ya ümumilikdə 9 ölkədən - ABŞ, Böyük Britaniya, Kanada, İsveç, Danimarka, Almaniya, Türkiyə, Azərbaycan və İrandan olmaqla 86 el-

*(Ardı səh.38 -də)*

# FINAL EVENT OF NEXTKHAZAR IDEA SHOW STARTUP PROJECT

*Hilal Əsədli*

On October 30, the final event of the NextKhazar Idea Show startup project was held at Khazar University. The main goal of the project is to create a supportive ecosystem for the formation of startup ideas. Creating such an ecosystem is crucial for promoting entrepreneurship and economic growth, knowledge transfer, and should consist of key components such as incubators, accelerators, and technology transfer offices. By incorporating these features into the educational environment, Khazar University aims to transform research results into products and services with socio-economic value.

The event was attended by Idea Show director Prof. Acad. Hamlet Isakhanli, project secretary general Prof. Soodabeh Davaran, Strategic committee head Dr. Solmaz Hazratgholizad, scientific secretary associate professor Javid Ojaghi, technological secretary associate professor Peyman Keyhanvar, executive secretary Dr. Jamala Eldarova, Khazar University faculty members, students, and representatives from other universities' research institutions.

The 26-day NextKhazar Idea Show received 86 scientifically significant ideas from 9 countries - USA,

*(To be continued page 38)*



*Solmaz Hazratgholizad (İran)*

mi əhəmiyyətli ideya təqdim olunmuşdur. Bu təqdimat platforması (https://nextkhazar.com/) startapa müraciət prosesini asanlaşdırmaq və Xəzər Universitetini üçüncü nəsil universitetə çevirmək üçün xüsusi hazırlanmışdır.

Təqdim olunmuş ideyaların qiymətləndirilməsi üçün professorlar və sənaye investoru da daxil olmaqla altı ekspertdən ibarət iki mərhələli seçim prosesini əhatə edən bir panel təşkil edilmişdir. Münsiflər heyətinin üzvləri Prof. Soodabeh Davaran, dosent Peyman Kayhanvar, dosent Cavid Ocaqi, Dr. Omid Mashinchian, Dr. Solmaz Hazratgholizad və investor cənab Mohammad Miyabi olmuşdur.

İlk seçim turunda daxil olmuş 86 ideyadan 15-i, daha sonra onlardan 8-i növbəti mərhələyə keçmişdir. Qiymətləndirmə meyarlarında innovasiya, potensial təsir və tətbiq dərəcəsi, həmçinin Xəzər Universitetinin vizyonuna uyğun olan fənlərarası yanaşmalar da öz əksini tapmışdır.

Idea Show-un yekun tədbirində aşağıda qeyd olunan ən yaxşı ideyalar seçilmişdir:

1-ci yerin qalibi - Mahsa Javan və Deniz Zareian (Iran), "Explored the use of Urmia Lake algosomes as delivery systems for anticancer and antibacterial agents, an idea rooted in sustainable, locally sourced biotechnology";

2-ci yerin qalibi - Aygün Muradova (Azərbaycan), "İntroduced Green Sphere, a concept integrating AI with eco-friendly biomaterials to address environmental challenges";

3-cü yerin qaibi - Şəfa Yusifova (Azərbaycan) "Captivated the judges with Shafa's Class, an educational platform designed to make biomaterials science more accessible";

4-cü yerin qalibi - Salar Hooshyar və Mehrnoosh Nemati (ABŞ), "Presented a promising hydrogel designed to promote tissue regeneration and an-

UK, Canada, Sweden, Denmark, Germany, Türkiye, Azerbaijan, and Iran. This presentation platform (https://nextkhazar.com/) was specially designed to facilitate the startup application process and transform Khazar University into a third-generation university.

A panel consisting of six experts, including professors and an industry investor, was organized for a two-stage selection process to evaluate the submitted



*Mohammad Mostafa Pourseif (İran)*

ideas. The jury members were Prof. Soodabeh Davaran, Assoc. Prof. Peyman Kayhanvar, Assoc. Prof. Javid Ojaghi, Dr. Omid Mashinchian, Dr. Solmaz Hazratgholizad, and investor Mr. Mohammad Miyabi.

From the initial 86 ideas, 15 were selected in the first round, and then 8 proceeded to the next stage. The evaluation criteria reflected innovation, potential impact and application level, as well as interdisciplinary approaches aligned with Khazar University's vision.

The following best ideas were selected at the Idea Show's final event:

1st place winner - Mahsa Javan and Deniz Zareian (Iran), "Explored the use of Urmia Lake algosomes as delivery systems for anticancer and antibacterial agents, an idea rooted in sustainable, locally sourced biotechnology";

2nd place winner - Aygun Muradova (Azerbaijan), "Introduced Green Sphere, a concept integrating AI with eco-friendly biomaterials to address environmental challenges";

3rd place winner - Shafa Yusifova (Azerbaijan) "Captivated the judges with Shafa's Class, an educational platform designed to make biomaterials science more accessible";

4th place winner - Salar Hooshyar and Mehrnoosh Nemati (USA), "Presented a promising hydrogel designed to promote tissue regeneration and




*Aygün Muradova, Cəmalə Eldarova, Hayrettin Ozan Gülcan*

giogenesis, essential for complex wound management" olmuşdur.

NextKhazar İdea Show Xəzər Universitetinin dinamik gələcəyə doğru qabaqcıl addımını simvolizə etməklə əhəmiyyətli elmi innovasiyalar üçün zəmin yaradır. Bu kimi təşəbbüslər həm Xəzər Universiteti, həm də digər universitetlərin tələbələrini sabahın çağırışlarına hazırlamaqla yanaşı, mütərəqqi, üçüncü nəsil universitet modelini əks etdirən davamlı, fənlərarası ekosistem yaradır.

Ətraflı məlumat: www.nextkhazar.com

angiogenesis, essential for complex wound management".

NextKhazar Idea Show symbolizes Khazar University's progressive step toward a dynamic future, creating a foundation for significant scientific innovations. Such initiatives prepare students from both Khazar University and other universities for tomorrow's challenges while creating a sustainable, interdisciplinary ecosystem reflecting a progressive, third-generation university model.

For more information: www.nextkhazar.com




*Soodabeh Davaran, Əlövsət Əmirbəyli, Şəfa Yusifova*

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN "AZƏRBAYCAN MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏDƏ" KİTABI İŞIQ ÜZÜ GÖRÜB

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsinin müdiri filologiya elmləri doktoru Gülər Abdullabəylinin tərcüməsində Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan müstəqillik uğrunda mübarizədə" (Polyak-Azərbaycan əlaqələri) kitabı işıq üzü görüb. Qeyd edək ki, kitab 1938-ci ildə Varşavada çap olunub.

Kitab Prezident İlham Əliyevin Məhəmməd Əmin Rəsulzadənin 140 illik yubileyinin keçirilməsi haqqında Sərəncamına uyğun olaraq nəşr edilib.

Kitabın elmi redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Əsəri polyak dilindən tərcümə edən və əhatəli Ön sözün müəllifi Azərbaycan Polşa elmi-mədəni cəmiyyətinin sədri Gülər Abdullabəylidir.

98 səhifəlik kitab Azərbaycan, rus və ingilis dillərindədir. Polyak dilində olan əslinin də surəti yer alıb.

# İZZƏDDİN HƏSƏNOĞLU VƏ MİRZƏ ƏLƏKBƏR SABİRİN TÜRKİYƏDƏ NƏŞR OLUNMUŞ KİTABLARININ TƏQDİMATI

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında İzzəddin Həsənoğlu və Mirzə Ələkbər Sabirin Türkiyədə nəşr olunmuş kitablarının təqdimatı olub. İzzəddin Həsənoğlunun "Kitab-ı Siretün-nebi" kitabını və Mirzə Ələkbər Sabirin "Hophopnamə"sini Seyfəddin Altaylı çapa hazırlayıb.



*Avrasiya Yazarlar Birliyinin başqanı Ufuk Tuzman, İsa Həbibbəyli*

Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Avrasiya Yazarlar Birliyinin başqanı Ufuk Tuzman, Xalq şairi Sabir Rüstəmxanlı, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, akademiyanın müxtəlif institutlarının əməkdaşları, media mənsubları və digərləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açıb. Akademik İsa Həbibbəyli Türkiyə və Azərbaycanın dostluq-qardaşlıq münasibətlərinin elm və mədəniyyət sahəsində də günü-gündən inkişaf etdiyini vurğulayıb. Ədəbi əlaqələrin nəticəsi olaraq Türkiyədə işıq üzü görən bu kitabların tarixi və elmi əhəmiyyətindən bəhs edib. İki ölkə arasındakı mədəni səviyyədə nəzərə çarpan uğurların digər türk dövlətlərində də geniş vüsət aldığını vurğulayıb. Son vaxtlar tərcümə sahəsində işlərin xeyli genişləndiyini də qeyd edib. Əlavə edib ki, Sabirin kitabını Türkiyədə 1950-ci illərdə çap ediblər. Seyfəddin Altaylının "Hophopnamə"ni orada yenidən nəşr etdirməsini "Molla Nəsrəddin" ədəbi məktəbinə böyük töhfə kimi xarakterizə edib.

Akademik İsa Həbibbəyli hər iki kitabı böyük əziyyət və şövqlə ərsəyə gətirdiyi üçün Seyfəddin Altaylıya təşəkkürlərini bildirib. Avrasiya Yazarlar Birliyininə uzun illər rəhbərlik etmiş, Türk dünyası aşiqi, Azərbaycan sevdalısı Yaqub Öməroğlunu qədirşünalıqla xatırlayıb. Yeni başqana da işlərində uğurlar arzulayıb, əməkdaşlıq sahəsinə təkliflər səsləndirib. Avrasiya Yazarlar Birliyinin başqanı Ufuk Tuzman çıxışında yeni başqan olaraq ilk dəfə AMEA-nın kürsüsündə olmaqdan qürur duyduğunu bildirib. Birlik tərəfindən həyata keçirilən işlər haqqında məlumat verərək bildirib ki, rəhbərlik etdiyi qurumun 29 Cümhuriyyət və Muxtar Respublikalarla əlaqələri qurulub. "Hophopnamə"nin mahiyyətini yüksək qiymətləndirən başqan əlavə edib ki, bu kitab Yaqub Öməroğlu üçün "Bengü" yayınlarının 500-cü nəşri idi.

Natiq vurğulayıb ki, Azərbaycana səfəri zamanı Sabirin yurdu Şamaxını da gəzib, oranın çoxlu sayda ziyalı yetişdirməsindən məmnun qalıb. Bildirib ki, Avrasiya Yazarlar Birliyinin 540 kitabı çap olunub, onun da əllisi Azərbaycan ədəbiyyatına aiddir. Özünün başqanlıq etdiyi müddətdə isə 40 kitabın işıq üzü gördüyünü vurğulayıb. Eyni zamanda Birlik tərəfindən türk toplumları arasında aparılan maarifləndirmə işləri haqqında da məlumat verib.

Qonaqlardan Xalq şairi Sabir Rüstəmxanlı, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli çıxışlarında nəşrlərin milli və elmi əhəmiyyətinə xüsusi nəzər salıblar.

Ədəbiyyat İnstitutunun əməkdaşlarından Azərbaycan şifahi xalq ədəbiyyatı və yazılı abidələr şöbəsinin baş elmi işçisi, professor, Əməkdar elm xadimi Qəzənfər Paşayev, elmi katib filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı nəşrlərin əhəmiyyətindən söz açıblar.

Həmçinin Bakı Avrasiya Universitetinin müəllimi filologiya üzrə fəlsəfə doktoru, dosent Seyfəddin Altaylı da nəşrlərin xarakterik xüsusiyyətləri, kitabların özəllikləri, hazırlanma prosesinin incəlikləri haqqında ətraflı məlumat verib.

Sonda Bakı Avrasiya Universitetinin kafedra müdiri filologiya elmləri doktoru Elmira Məmmədova-Kekeç tədbirin təşkili üçün təşəkkürlərini bildirib, kitabların tərtibçisi Seyfəddin Altaylıya hədiyyə təqdim edib.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# XALQININ MƏDƏNİYYƏTİNƏ VƏ DÖVLƏTÇİLİYİNƏ BÖYÜK TÖHFƏLƏR VERMİŞ İNSAN – TEYMUR ELÇİN

*("Həyatın hər üzü" adlı sənədli romanın "Şəxsiyyətlər" bölümündən; anadan olmasının 100 illiyi münasibətilə)*

**Əlirza Balayev**
əməkdar jurnalist

Universitetdə oxuyarkən, bəlkə də orta məktəb illərindən Teymur Elçini bir şair kimi, təbii ki, tanıyırdıq.

Teymur müəllimi görmək və onu dinləmək 1968-ci il fevralın 21-22-də Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının XXVI qurultayı keçiriləndən təxminən 15-20 gün sonra baş verdi. Mən artıq üç ay idi ki, komsomolun Mərkəzi Komitəsində işləyirdim. Bizə – Təbliğat və Mədəni-Kütləvi İşlər Şöbəsinin əməkdaşlarına bildirdilər ki, Azərbaycan KP Mərkəzi Komitəsinin Təbliğat və Təşviqat Şöbəsində bizimlə görüş keçiriləcək.

Ancaq görüşdən əvvəl komsomolun Mərkəzi Komitəsindəki, xüsusilə çalışdığım şöbədəki söhbətlərdən Teymur Süleymanoviçin (həmin dövrdə rəhbər işçilərin belə adlandırılması ümumi qayda idi) nüfuzlu və səlahiyyətli bir partiya işçisi olduğunu bilirdim.

Təyin olunan gündə təbliğat üzrə yeni seçilmiş MK katibi Rauf Axundov, Təbliğat və Mədəni - Kütləvi İşlər Şöbəsinin müdiri Yasif Nəsirli, Mühazirəçilər qrupunun rəhbəri İqor Plavski, Mədəni - kütləvi işlər sektorunun müdiri Zaur Rüstəmzadə və sektorun təlimatçısı Rafiq Kaşıyev, Lenin siyasi dərsləri üzrə təlimatçı Rafiq Talıbov və mən Azərbaycan KP MK-ya getdik.

Bizi Azərbaycan KP MK-nın Təbliğat və Təşviqat Şöbəsinin müdiri Teymur Əliyev qəbul etdi. İlk görüşün təəssüratı həmişə yadda qalır. İşıqlı siması, geniş alnı ("Sokrat alnı" da deyilir), çıxışından sonra isə təmkini, natiqliyi ilə (görüş dövrün qaydasına görə əvvəldən sonadək rus dilində keçirildi) diqqəti cəlb edirdi.

Qeyd edim ki, Teymur Əliyev komsomolda yetişib bərkimiş (təxminən səkkiz il) rəhbərlərdən idi. Böyük Vətən müharibəsi dövründə Zaqafqaziya cəbhəsində alay komsomol təşkilatçısı olmuşdu. Ordu sıralarından tərxis ediləndən sonra Azərbaycan Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Komsomol Komitəsinin katibi, Azərbaycan LKGİ Bakı Şəhər Komitəsinin birinci katibi, Azərbaycan LKGİ MK Təbliğat və Təşviqat Şöbəsi müdirinin müavini vəzifələrində işləmişdi.

Əvvəlcə tanışlıq oldu. Teymur müəllim mənim komsomol işinə Azərbaycan Sovet Ensiklopediyası (ASE) Baş Redaksiyasının Sözlük və Elmi Nəzarət Redaksiyasının elmi redaktoru vəzifəsindən gəldiyimi biləndə, (komsomolun Mərkəzi Komitəsinə, bir qayda olaraq, məhz komsomol işində çalışıb təcrübə qazananlar qəbul edilirdilər), onun təəccübünü duyan Rauf Axundov izahat verdi ki, müttəfiq respublikaların mərkəzi komitələrində yeni – Mətbuat, radio və televiziya sektorunun müdiri vəzifəsi yaradılmışdır. Teymur müəllim gülümsəyərək, – bizə köməkçi işə götürmüsüz ki...

– dedi. (Azərbaycan komsomolu Mərkəzi Komitəsinin üç qəzeti, üç jurnalı nəşr olunurdu, radio və televiziyada uşaq və gənclər baş redaksiyaları, "Комсомольская правда" və "Пионерская правда" mərkəzi qəzetlərinin Azərbaycan üzrə xüsusi müxbirləri fəaliyyət göstərirdi).

Sonralar Teymur müəllimin mənə fərqli münasibətini hiss edirdim. Mühüm tədbirlərdə bizi köməkçi kimi dəvət edirdilər, böyük tədbirlərin mətbuat mərkəzlərinin üzvü olurduq, əlaqələr var idi.

Tanışlıqdan sonra katib Rauf Axundov çıxış etdi. Qarşıda duran işlər barədə planları cızdı. Düşüncələrində və fikirlərini ifadə etməkdə çox sərbəst olan və həyatının sonuna qədər belə qalan Rauf Axundov əlini stolun üstünə qoyaraq, sözünü belə tamamladı ki, "biz bu qırmızıdan uzaqlaşmaq istəyirik" ("мы хотим отходить от этого красного"). O zaman rəsmi idarələrdə bəzən stolun üstünə qırmızı parça sərərdilər. Katib demək istəyirdi ki, ehkamlardan uzaqlaşmaq istəyirik.

Sonra Teymur müəllim çıxış etdi, tövsiyələrini verdi. Mən gözləyirdim ki, "qırmızı" məsələsinə toxunacaq, aydınlıq gətirəcək. Görünür, gənc katibin çıxışına münasibət bildirməyi lazım bilməmişdi.

Həmin ilin yay aylarının birində Mərkəzi Komitənin plenumu oldu. Ertəsi gün birinci katib Elmira Qafarovanın köməkçisi zəng etdi ki, Teymur Süleymanoviçdə sənəd var, onu gətirib Elmira Mikayılovnaya çatdırın.

Mərkəzi Komitəyə getdim. Sənəd, adətən, katibədə olmalı idi. Lakin katibə məni Teymur müəllimin otağına ötürdü, salamlaşandan sonra zərfi mənə verdi. Zərf açıq idi, elə Mərkəzi Komitədə zərfin içindəkinin Elmira Qafarovanın plenumdakı məruzəsinin Teymur müəllim tərəfindən redaktə olunmuş mətni olduğunu gördüm. Məni maraq bürüdü: necə redaktə olunmuşdu?

Ensiklopediyanın Baş Redaksiyasında çalışdığım bir il ərzində Azərbaycanın ən savadlı redaktorlarının (Rəsul Rzanın istəyi ilə nəşriyyatların ən təcrübəli redaktorları ensiklopediyaya toplanmışdı) yanında bu peşənin sirlərinə yiyələnməyə çalışmışdım. Çox ecazkar peşədir. Redaktor peşəsinə dərindən bələd olanlar bilirlər ki, sözün hətta sinonimi ilə əvəz olunması belə necə yeni məna çaları yaradır. İyirmi ildən artıq bir müddət ərzində mətbuatda çalışandan sonra qələmə aldığım "Ağrıdağ" ağrısı" adlı məqaləmdə yazmışdım: "Ensiklopediyada çalışdığım bir illik müddət ərzində yiyələndiyim redaktə vərdişini heç bir qəzet-jurnal redaksiyasında qazanmaq olmazdı." (Yaşıl rəngin işığı. İlk Azərbaycan ensiklopediyasının taleyi ilə bağlı xatirələr, məqalələr toplusu.Tərtib edəni:Teyyub Qurban. Bakı, Nurlan, 2000-ci il, s. 21).

Əlimə "məktəb" keçmişdi. Öz iş yerimə çəkilib, bu redaktorluq nümunələrini (məruzə, təbii ki, rus dilində idi) incələməyə başladım və heyran qaldım. Təxminən yarım saatdan sonra məruzəni Elmira Qafarovaya verdim və gənclər qəzetlərinin növbəti nömrəsində dərc edildi. Sonra daha bir plenumun sənədi ilə bu minvalla tanış oldum. Daha sonra isə Elmira Qafarovanın iş yeri dəyişdirildi...

Adını yuxarıda çəkdiyim Rafiq Kaşıyev (hazırda Kaşanlı, Azərbaycan Yaradıcılıq Fondunun sədrinin birinci müavini, Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru) və tələbə yoldaşım, Səriyyə İsmayılova sonralar Teymur müəllim mədəniyyət nazirinin müavini ikən müvafiq olaraq xeyli müddət Mədəni-Maarif Müəssisələri Baş İdarəsinin və Muzeylər İdarəsinin rəisi oldular. Mən bu yazı üzərində işləyərkən onlar nazirlikdə formalaşmış belə bir fikri mənə çatdırdılar ki, Teymur müəllim idarəetmə ilə yanaşı, sənəd hazırlamaq ustalığı ilə də nazirliyin dayağı idi.

Hazırda Türkiyədə yaşayan Səriyyə İsmayılova xahişimlə mənə göndərdiyi məktubda yazır: "Nazlrlikdə, əlaqədar təşkilatlarda belə bir fikir mövcud idi ki, Teymur müəllim ən savadlı, ən mükəmməl yazı yazan və redaktə edən şəxslərdən biridir. Onun yazdığı, redaktə etdiyi yazıların heç bir düzəlişə ehtiyacı ollmazdı. Teymur müəllim yorulmadan çalışan, tələbkar və ədalətli nazir müavini idi. Respublikadakı mədəniyyət ocaqlarından, nazirlikdən kimi yanına dəvət edirdisə, hər kəs həyəcanlanırdı. Çünki bilirdik ki, onun yanına hazırlıqlı getmək lazımdır."

Teymur müəllimin komsomolun Mərkəzi Komitəsinə aid bir məsələni necə operativ həll etməsi indiki kimi yadımdadır, əslində, mənimlə də əlaqədar olduğu üçün unudulası deyil. 1969-cu ilin iyul ayında Bakıda komsomolun xətti ilə çox möhtəşəm bir tədbir keçirildi: SSRİ-Yaponiya Fəhlə Gənclərinin Həmrəylik Festivalı. Festivalın açılışı iyulun 18-də olacaqdı. Yenicə respublikanın rəhbəri seçilmiş Heydər Əliyev vaxt tapıb, komsomolun Mərkəzi Komitəsinin birinci katibi Elmira Qafarovanı, Moskvada komsomolun Mərkəzi Komitəsində işləyən Həsən Həsənovu və festivalın qərargah rəhbəri olan ÜİLKGİ MK-nın Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavinini (ad və soyadını xatırlamıram) qəbul etmiş, hazırlıq işləri ilə maraqlanmışdı.

Festivalın Azərbaycanda işıqlandırılmasının təşkili tutduğum vəzifəyə görə MK bürosunun qərarı ilə mənə həvalə olunmuşdu. Radio (Fəridə Babayeva) və televiziyanın (Firudin Ağayev) baş gənclər redaksiyaları ilə işləri planlaşdırmışdıq. "Azərbaycan gəncləri" (Cəmil Əlibəyov) və "Молодёж Азербайджана" (Asim Cəlilov) qəzetləri ilə belə razılaşdırmışdıq ki, qəzetlər festival günlərində 3 nömrə ardıcıl 6 səhifə çıxsın. Bunun üçün Azərbaycan KP MK katibliyinin qərarı tələb olunurdu. Məktub hazırlayıb, Elmira Qafarovaya imzalatdırmışdım. Məktubu ideologiya üzrə katib, ya da şöbə müdiri aparmalı idi. Di gəl, onların heç birini tapa bilmirdim, Moskvadan gələn komsomol işçilərini müşayiət edirdilər...

İyulun 17-də səhər məcburən bu qərara gəldim ki, məktubu özüm aparım. Teymur müəllimin yanına gedib, üzrxahlıq da elədim ki, katib, şöbə müdiri qonaqlarla məşğul olduqlarına görə, gec də olsa, məktubu mən gətirməli oldum. Əhəmiyyət vermədi, məktubu oxudu, dedi ki, katibə zəng edər, gəlib qərarı apararsan. Mən hələ qəbul otağında ikən onun telefonla danışığını eşitdim. Bilirdim ki, katiblik təcili, özü də belə məsələyə görə toplanmaz. Aparatda belə iş təcrübəsi vardı ki, qərar layihəsi gəzdirilir, katiblik üzvləri imzalayırdılar. Buna aparat dilində "опросным путём" (sorğu yolu ilə) deyilirdi.

Təxminən iki saatdan sonra zəng oldu, qərarın çıxarışını katibədən götürüb, təcili "Kommunist" nəşriyyatına çatdırdım. Qəzetlər 3 nömrə ardıcıl 6 səhifə çap olundu. O zaman düşündüm, indi də bu fikirdəyəm ki, idarəetmə belə olar!

Mən 1973-cü ilin iyul ayında "Azərbaycan gəncləri" qəzetinin redaktor müavini vəzifəsinə işə göndəriləndən sonra redaktoru əvəz elədiyim vaxtlarda Teymur müəllimə zəng edər, qarşıya çıxan problemlərə aid müdrik məsləhətlərini, tövsiyələrini alardım. Lakin bu müddət çox da çəkmədi.

Teymur müəllim Mədəniyyət nazirinin müavini vəzifəsinə təyin olunandan sonra əlaqəmiz olmamışdı. Mən "Azərbaycan pioneri" – "Пионер Азербайджана" qəzetinə işə keçəndən sonra Teymur müəllim zəng etdi və bir poema göndərdi. Əlyazması idi, olduqca gözəl xətlə yazılmışdı. Öz xətti belə gözəl idi, ya yazdırmışdı? Poema əlimizdəki nömrədə dərc olundu. Ümumiyyətlə, həmin vaxtdan həyatının sonunadək Teymur müəllim nə yazı göndərirdisə, hazırlanan nömrədə çap olunurdu. Sonuncu şeirləri həftəlik "Savalan" qəzetində (əvvəlki "Azərbaycan pioneri") 1992-ci il yanvarın 3-də (7 şeir), bir nömrə sonra – yanvarın 17-də (5 şeir) çap olunmuşdu. Yəqin ki, bu, mətbuat təcrübəsində nadir hadisələrdən biri idi. Bəlkə də elə buna görə həmin qəzetləri arxivimdə saxlamışam.

Yeddi şeirin hamısı balaca nəvəsi Çingizə həsr olunmuşdu. Teymur müəllim şeirlərə "İstədim" adlı bir epiqraf da yazıb, "Savalan"ı "hörmətə mindirmişdi":

**İstədim**

Mənim Çingiz balam
hələ körpədir.
Yaş yarımında
təzəcə dil açır.
Tələsir qaçır,
qəribə bir aləm
yaranır onda.
İstədim sizə də
danışım ondan.
Qulaq asdı mənə
yazdı "Savalan".

Şeirlərin hamısı baba-nəvə sevgisinin incə, ürkək, kövrək və digər ecazkar məqamlarını təbii boyalarla əks etdirir:

**"Quşlardan qabaq"**

Səhər-səhər,
Hələ quşlar oyanmamış,
Günəş gəlib
Pəncərədən boylanmamış
Çin-çin qalxır
Yatağından
Haray salır otağımdan:
-Baba! Baba!
Qaçıb gəlir.
Qapımızı döyür: tak - tak,
Tak-tak-tak!
-Baba! Baba!

Oyanmışıq, necə yataq?
-Haycan! Haycan!
-Baba!Baba!
Qapımızı açan kimi
İşıqlanır birdən otaq.

Balaca Çingiz də "borclu qalmır". Babasını qoruyur, əzizləyir:

**Laylay**

Baba yatır,
baba – xəstə.
Çin-çin tutub
barmağını
burnu üstə.
Nənəsinə, anasına
deyir: - ts-ts!
Baba laylay...

Bir nömrə sonra çap olunmuş beş şeir 20 yanvar faciəsinə həsr olunmuşdu və Teymur müəllim onları redaksiyaya faciənin ikinci ildönümü ərəfəsində göndərmişdi. Kiçik ön söz ilə: "Aşağıdakı sətirlər 1990-cı ilin qanlı yanvar günlərində yazılıb. O zaman hərbi yasaqçılar bu yazıları dərc olunmağa qoymadılar." Şeirlər "Balaca Muradın şeirləri" başlığı ilə çap olunub.

Şairin nəcibliyi, uzaqgörənliyi hörmət doğurur. Şeirləri faciənin birinci ildönümündə göndərməmişdi: birdən çap edərlər, redaksiya mənə görə cəzaya məruz qalar. Qeyd edim ki, həmin vaxt fövqəladə vəziyyət qüvvədə idi, hərbi senzura işləyirdi, Bakının hərbi komendantı Valeri Bünyadov vəzifə başında idi. Ehtiyat etdiyi "birdən çap edərlər" isə başqa müəlliflə gerçəkləşmişdi: "Azərbaycan pioneri" - "Пионер Азербайджана" qəzetinin 1990-cı il 21, 26 və 28 dekabr tarixli nömrələrində yazıçı Qılman İsmayılovun "Qanlı yanvar" ("Кровавый январь") povestini çap etmişdik. Bir qayda olaraq, bədii əsərlərin rus dilinə tərcüməsi çap olunmurdu. Lakin bu povesti mövzusunun zəruriliyinə görə çətinliklə də olsa, təcili tərcümə etdirə bilmişdik. Tərcüməçi ad-soyadının göstərilməməsi şərtilə bu işi görmüşdü. Həmin dövrdən 30 ildən çox vaxt keçib. Tərcüməçinin kimliyini xatırlamıram...

Povestdə yazıçı təxəyyülü və hiddəti ilə həmin gecə baş verənlər daha şiddətli tərzdə qələmə alınmışdı:

"Советская солдатня, подобно фашистским подонкам, с каким-то жутким удовольстием истребляла беззащитных людей. Машины, стоящие на обочине дороги, под гусеницами танков превращались в железные "лепешки". Намеренно рушились телеграфные столбы, горели машины. Вооруженные автоматоми солдаты звериными криками приказывали людям сбиться в кучу и гнали их впереди себя, затем хладнокровно стреляли им в спину. Сраженные пулями убийц люди падали на изрытый асфальт, обильно поливая его кровью, те же, кто оставался в живых, стремился спрятаться за ближайшими деревьями. Прожекторы высвечивали раненых и их также хладнокровно добивали автоматными очередями." ("Пионер Азербайджана", 28 декабря 1990 г.).

(Tərcüməsi: "Əsgər adına ləkə olan sovet soldatları faşist tör-töküntüləri kimi hansısa bir heyvani hisslə köməksiz adamları qırırdılar. Yolun kənarında duran maşınlar tankların tırtılları altında yastı dəmir parçalarına çevrilirdilər. Teleqraf dirəkləri qəsdən dağıdılır, maşınlar yanırdı. Əli avtomatlı soldatlar vəhşi qışqırıqlarla adamlara bir yerə cəm olmağı əmr edir, onları qovur, sonra arxadan güllələyirdilər. Qatillərin gülləsi ilə qətlə yetirilən adamlar dəlmə-deşik edilmiş asfaltı öz qanları ilə boyayırdılar. Sağ qalanlar isə yaxınlıqdakı ağacların arxasında gizlənməyə çalışırdılar. Projektorlar yaralıların üzərinə işıq salır, onları da soyuqqanlılıqla avtomatdan buraxılan güllə qatarı ilə yerə sərirdilər.").

Əsərin baş qəhrəmanı, Böyük Vətən müharibəsinin iştirakçısı Zeynal baba qətlə yetirilməmişdən əvvəl nəvəsi Ənvərə deyir: "Черт возьми, они оказались хуже фашистов ("Bunlar faşistdən pis imiş ki!").

Povest bütünlüklə bu ruhda yazılmışdı. Və mən – qəzetin baş redaktoru kimi Daxili İşlər Nazirliyinə Valeri Bünyadovun yanına çağırıldım, bir ay həbs edilməklə təhdid olundum, nəticədə ciddi xəbərdarlıq aldım.

Aydındır ki, Teymur müəllim də şeirlərini həmin vaxt göndərsəydi, çap olunacaqdı. Şeirlərdə məhz şairin üslubuna xas səmimiyyətlə balacaların həyəcanı qələmə alınmışdır.

**Nə vaxt bunlar qurtaracaq?**

Hardan gəldi bu soldatlar,
Əllərində avtomatlar?
Atəş açır taraq-taraq.

Nə vaxt bunlar qurtaracaq?
Mən bilmirəm.
Deyin mənə!

**Nə etmişik biz?**

Nə olub sənə
Niyə beləsən?
Gəlib Bakıya
Bizimkiləri
Qıra biləsən?

Nə etmişik, de,
Biz sənə soldat?
Niyə tuşlanıb
Bizə avtomat?

Digər şeirlər də beləcə uçaq qəzəbinin poetik ifadəsidir.

Teymur Əliyev zəngin ədəbi irsə malik görkəmli şairdir, dram əsərlərinin, ssenarilərin müəllifidir, şeirlərinə mahnılar bəstələnib, bədii tərcüməçi idı, əsərləri xarici ölkə xalqlarının dillərində də çap olunub.

Publisistik yazıları da vardı. Xatırlayıram ki, Ermənistanın ilk başlanğıcda Azərbaycana iradı ondan ibarət idi ki, Dağlıq Qarabağın iqtisadiyyatına lazımi diqqət yetirilmir. Mədəniyyət nazirinin müavini olan Teymur müəllim həmin vaxt "Молодёж Азербайджана" qəzetində ermənilərin bu iradını statistik rəqəmlərlə ifşa edən bir neçə yazı çap etdirmişdi.

Gənclik illərindən mətbuatda və radioda, Azərbaycan komsomolunun Bakı Komitəsində və Mərkəzi Komitəsində, nəşriyyat işi və digər sahələrdə çalışıb püxtələşmiş Teymur Əliyev sonralar mühüm vəzifələrdə – Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin sədri, Azərbaycan KP MK Təbliğat və Təşviqat Şöbəsinin müdiri, Azərbaycan mədəniyyət nazirinin müavini və Azərbaycan KP MK şöbəsinin müdiri kimi mühüm vəzifələrdə çalışıb. Ümumilikdə, 40 ildən artıq bir müddət ərzində yüksək vəzifələrdə Azərbaycan mədəniyyətinə və dövlətçiliyinə sədaqətlə xidmət etmişdir. Partiya orqanlarında çalışdığı illər də bıra daxildir. Kommunistlər özləri hakimiyyətdən gedəndən sonra rəsmən etiraf etdilər ki, partiya dövlət funksiyasını yerinə yetirirdi.

... Qəzetləri büküb arxivimə qaytarıram. Şeirlər bu qayda ilə (demək olar ki, ardıcıl) sanki onun qəlbini isindirmək üçün çap olunmuşdu. Təxminən iki ay sonra dünyasını dəyişdi. Xalqının mədəniyyətinə və dövlətçiliyinə Teymur Əliyev kimi böyük töhfələr vermiş insanlar unudulmur.

## A PERSON WHO MADE GREAT CONTRIBUTIONS TO HIS PEOPLE'S CULTURE AND STATEHOOD – TEYMUR ELCHIN

**Alirza Balayev**
*Honored Journalist*

The article is dedicated to the 100th anniversary of the birth of Teymur Elchin, a prominent writer and statesman of Azerbaijan.

Teymur Elchin is a notable poet with a rich literary heritage, the author of dramatic works and scripts, with songs composed to his poems. He was a literary translator, and his works have been published in the languages of foreign countries.

From his youth, Teymur Aliyev worked in the press and radio, in the Baku and Central Committees of the Azerbaijani Komsomol (youth organization), in publishing and other fields. Later, he held important positions such as Chairman of the Azerbaijani Television and Radio Broadcasting Committee, Head of the Propaganda and Agitation Department under the Azerbaijan Communist Party Central Committee, Deputy Minister of Culture of Azerbaijan, and Head of the General Department of the Azerbaijan Communist Party Central Committee. Overall, for more than 40 years, he faithfully served Azerbaijani culture and statehood in high-ranking positions, including years of working in party institutions. The Communists themselves officially admitted after leaving power that the party was performing state functions.

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏLİM

Oktyabrın 30-da Xəzər Universitetinin koordinatoru olduğu DIRNA layihəsi çərçivəsində təlim baş tutdu. Onlayn təlimi L'Aquila Universitetinin (İtaliya) əməkdaşı Francesco Tarquini keçirdi.

Təlimdə DIRNA layihəsinin bütün tərəfdaş universitetlərinin nümayəndələri (Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, İzmir Yüksək Texnologiya İnstitutu (Türkiyə), L'Aquila Universiteti, Jyvaskyla Universiteti (Finlandiya) iştirak edirdi. Mövzu "İnklüziv təhsildə çətinliklər və ya maneələr" idi.

Vebinar müddətində təqdimatçı Avropada təhsil sistemləri və inklüziv təhsilin, inklüziv təhsildə olan maneələrin növləri: struktur maneələr, fiziki maneələr, ictimai maneələr və münasibət maneələrinin ayrı-ayrılıqda açıqlamalarını verdi. Həmçinin, iştirakçıları inklüziv online təhsildə qarşılaşa biləcəkləri maneələr və onların aradan qaldırılması haqqında məlumatlandırdı. Sonda suallar cavablandırıldı.

## TRAINING WITHIN THE DIRNA PROJECT

On October 30, a training was held within the framework of the DIRNA project coordinated by Khazar University. The online training was conducted by Francesco Tarquini, a staff member from the University of L'Aquila (Italy).

Representatives from all partner universities of the DIRNA project participated in the training, including Baku State University, Azerbaijan Technical University, Academy of the State Customs Committee, Ganja State University, Lankaran State University, Nakhchivan State University, Mingachevir State University, Izmir Institute of Technology (Türkiye), University of L'Aquila, and University of Jyväskylä (Finland). The topic was "Challenges and Barriers in Inclusive Education." During the webinar, the presenter provided explanations about education systems in Europe and inclusive education, as well as different types of barriers in inclusive education: structural barriers, physical barriers, social barriers, and attitudinal barriers. Additionally, participants were informed about potential barriers they might encounter in inclusive online education and ways to overcome them. Questions were answered at the end of the session.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİ "MÜASİR İNCƏSƏNƏTDƏ GÖBƏKLİTƏPƏ" ADLI SƏRGİDƏ

Oktyabrın 31-də Azərbaycan Milli Xalça Muzeyində Yunus Əmrə İnstututunun təşəbbüsü ilə "Müasir İncəsənətdə Göbəklitəpə" adlı sərgi keçirilmişdir. Sərgidə Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllim və tələbələri də iştirak etmişlər.

## INSTRUCTORS AND STUDENTS OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY ATTEND THE EXHIBITION "GÖBEKLI TEPE IN MODERN ART"

On October 31, an exhibition titled "Göbekli Tepe in Modern Art" was held at the Azerbaijan National Carpet Museum on the initiative of the Yunus Emre Institute. Instructors and students from the Department of History and Archaeology of Khazar University also attended the exhibition.

## CİHANNÜMA CƏMİYYƏTİNİN TƏMSİLÇİLƏRİ "XƏZƏR"DƏ



Hamlet İsaxanlı



## REPRESENTATIVES OF THE CIHANNÜMA SOCIETY AT "KHAZAR"

Noyabrın 1-də Türkiyənin rektorlar, prorektorlar, müxtəlif elm adamları, maarif işçiləri və bələdiyyə başqanlarından ibarət olan Cihannüma cəmiyyətinin təmsilçiləri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı ilə görüşmüşdür.

Görüşdə Xəzər Universiteti ilə Türkiyənin müxtəlif elm mərkəzləri arasındakı əməkdaşlığın genişləndirilməsi yolları müzakirə edilmiş, Azərbaycan-Türkiyə qardaşlığının dərin tarixi köklərindən bəhs olunmuşdur. Görüşün sonunda Kırşehir Ahi Evran Univetsiteti ilə Xəzər Universiteti araslnda əməkdaşlıq protokolu imzalanmışdır. Protokolu rektorlar Mustafa Kasım Karahocagil və İradə Xəlilova imzalamışlar.

On November 1, representatives of the Cihannüma Society, consisting of rectors, pro-rectors, various scholars, education professionals, and municipal leaders from Türkiye, met with Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees.



İradə Xəlilova, Mustafa Kasım Karahocagil

During the meeting, ways to expand collaboration between Khazar University and various Turkish scientific centers were discussed, and the deep historical roots of Azerbaijan-Türkiye brotherhood were addressed. At the conclusion of the meeting, a cooperation protocol was signed between Kırşehir Ahi Evran University and Khazar University. The protocol was signed by rectors Mustafa Kasım Karahocagil and Irada Khalilova.



# AKM NÜMAYƏNDƏLƏRİNİN MƏLUMAT SESSİYASI

Noyabrın 1-də Xəzər Universitetində Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin (AKM) nümayəndələri məlumat sessiyası keçirib. Sessiya zamanı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN), İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) İsrailin "Technion" Texnologiya İnstitutu ilə birgə təsis etdiyi Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin (AKM) təlimlərinin yeni V dalğası üçün qeydiyyat açıq elan olunub.

Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin icma meneceri Leyla Kərimli dünyada və ölkədə mövcud kiber təhdidlər və onun zərərləri haqqında ətraflı məlumat verib. Bildirib ki, AKM təlimlərinin keçirilməsində məqsəd ölkədəki kibertəhlükəsizlik sahəsi üzrə kadrların ən yüksək səviyyədə bilik və bacarıqlarını formalaşdırmaqdır. Mərkəzin nümayəndəsi Xəzər Ubiversitetinin tələbələrini təlimlərin V dalğasına qoşulmağa çağırıb.

AKM-nin əməkdaşları Nemət Rəhimli, Orxan Abdullayev və Fərzəli Vəliyev bildiriblər ki, mərkəzin icra etdiyi təlimlər İsrailin "Technion" Texnologiya İnstitutunun təlim proqramına əsaslanır. Nemət Rəhimli qeyd edib ki, xarici təlimçilər komandası təlimlərə müraciət etmiş iştirakçıların həm İT biliklərini yoxlayır, həm də müsahibə bacarıqlarını testdən keçirir. Nəticədə hər iki mərhələdə uğur qazanmış namizədlərə "Blue team" (müdafiə) və "Red team" (hücum) istiqamətində 6 aylıq təlimlər (tam təqaüdlü şəkildə) keçilir. Təlimi uğurla bitirənlərə "Technion" İnstitutunun rəsmi sertifikatı verilir.

Sessiya zamanı vurğulanıb ki, mərkəzin indiyədək 180-ə qədər məzunu olub və hazırda onlar həm dövlət qurumlarında, həm də özəl sektorda çalışırlar.

Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

# INFORMATION SESSION BY ACM REPRESENTATIVES

On November 1, representatives of the Azerbaijan Cybersecurity Center (ACM) held an information session at Khazar University. During the session, registration was announced open for the new Wave V of training programs at the Azerbaijan Cybersecurity Center (ACM), which was established jointly by the Ministry of Digital Development and Transport (MDDT), Innovation and Digital Development Agency (IDDA), and Israel's Technion Institute of Technology.

Leyla Karimli, the community manager of the Azerbaijan Cybersecurity Center, provided detailed information about current cyber threats and their harmful effects both globally and in the country. She stated that the purpose of ACM training is to develop the highest level of knowledge and skills for cybersecurity professionals in the country. The Center's representative invited Khazar University students to join Wave V of the training program.

ACM staff members Nemat Rahimli, Orkhan Abdullayev, and Farzali Valiyev explained that the center's training programs are based on the curriculum of Israel's Technion Institute of Technology. Nemat Rahimli noted that the team of foreign trainers evaluates both the IT knowledge and interview skills of training applicants. As a result, candidates who succeed in both stages receive 6-month fully funded training in "Blue team" (defense) and "Red team" (attack) directions. Those who successfully complete the training receive an official certificate from the Technion Institute.

During the session, it was emphasized that the center has had around 180 graduates so far, who are currently working in both government institutions and the private sector.

At the end of the event, students' questions were answered.





*Orxan Vəliyev*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ BAKI İSTEDADLI GƏNCLƏR AKADEMİYASINDA

Noyabrın 2-də Gəncliyə Yardım Fondunun nəzdində fəaliyyət göstərən Bakı İstedadlı Gənclər Akademiyasının (BİGA) təşkilatçılığı ilə Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev BİGA-da "Türk Dövlətləri Təşkilatı: ideyadan reallığa" mövzusunda seminarda çıxış etmişdir. Seminar Azərbaycanın müxtəlif universitetlərində təhsil alan tələbələrin iştirakı ilə keçib.

BİGA-nın koordinatoru Şahalı Cəlilov seminarın iştirakçılarını salamlayaraq, Dr. Orxan Vəliyevə gənclərlə görüşə gəldiyi üçün təşəkkürünü bildirib. O, bu görüşün tələbələr üçün faydalı olacağını və onların gələcək karyeralarında istifadə edə biləcəkləri qiymətli məlumatlar əldə edəcəklərini vurğulayıb.

Sonra çıxış edən Dos. Orxan Vəliyev tələbələrə Türk Dövlətləri Təşkilatı haqqında geniş məlumat vermişdir. Bu təşkilata daxil olan ölkələrin arasındakı əməkdaşlığı gücləndirmək üçün həyata keçiriləcək gələcək layihələrdən danışıb.

Seminarın sonunda Bakı İstedadlı Gənclər Akademiyası tərəfindən qonağa xatirə hədiyyəsi təqdim edilib.

## HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY AT BAKU TALENTED YOUTH ACADEMY

On November 2, under the organization of the Baku Talented Youth Academy (BTYA) operating under the Youth Aid Fund, the head of the Department of Political Sciences and Philosophy, Assoc. Prof. Orkhan Valiyev, delivered a seminar on "Organization of Turkish States: From Idea to Reality." Students from various universities in Azerbaijan participated in the seminar.

Coordinator of BTYA, Shahali Jalilov, welcomed the participants and thanked Dr. Orkhan Valiyev for organizing the meeting with the youth. He emphasized that the seminar will be useful for the students, providing them with valuable knowledge that they can use in their future careers.

Following this, Assoc. Prof. Orkhan Valiyev gave a detailed presentation on the Organization of Turkic Speaking States, discussing future projects aimed at strengthening cooperation between the organization's member countries.

At the end of the event, the Baku Talented Youth Academy presented a commemorative gift to the guest.



*Əfsanə Tahirova*

# SEMİNAR: "GENDER BƏRABƏRSİZLİYİ: MİFLƏR VƏ GERÇƏKLƏR"

# SEMINAR: "GENDER INEQUALITY: MYTHS AND REALITIES"

Noyabrın 4-də Xəzər Universitetinin Psixologiya departamenti və "VarYox" platformasının birgə təşkilatçılığı ilə universitetdə "Gender bərabərsizliyi: miflər və gerçəklər" mövzusunda seminar təşkil olundu. Seminar "VarYox" platformasının spikeri Əfsanə Tahirova tərəfindən keçirildi.

Seminarın əsas məqsədi Azərbaycanda və dünyada gender bərabərliyi sahəsindəki problemləri işıqlandırmaq, bu sahədə yayılmış yanlış anlayışları və stereotipləri müzakirə etmək, eləcə də gender bərabərsizliyinin səbəbləri və təsirləri haqqında məlumat vermək idi.

Əfsanə Tahirova tədbir iştirakçılarına gender bərabərsizliyinin müasir cəmiyyətdəki yeri, onun yaratdığı sosial, iqtisadi və psixoloji təsirlər barədə ətraflı məlumat verdi. Seminarda, həmçinin, gender bərabərliyi ilə bağlı müxtəlif miflər və gerçəkliklər müzakirə olundu və iştirakçılar fəal şəkildə fikirlərini bölüşdülər.

Psixologiya departamentinin koordinatoru Mələk Kərimova "VarYox" platformasına seminarın təşkilinə görə təşəkkür edərək, gələcəkdə də əməkdaşlığın davam etdiriləcəyini bildirdi.

On November 4, the Department of Psychology at Khazar University, in collaboration with "VarYox" platform, organized a seminar on "Gender Inequality: Myths and Realities." The seminar was conducted by Afsana Tahirova, a speaker from the "VarYox" platform.

The main objective of the seminar was to highlight gender equality issues in Azerbaijan and worldwide, discuss common misconceptions and stereotypes in this field, and provide information about the causes and impacts of gender inequality.

Afsana Tahirova provided detailed information to the participants about the place of gender inequality in modern society and its social, economic, and psychological impacts. During the seminar, various myths and realities about gender equality were also discussed, and participants actively shared their opinions.

Malak Karimova, the coordinator of the Psychology Department, thanked the "VarYox" platform for organizing the seminar and expressed that the collaboration would continue in the future.



# NOBEL MÜKAFATI LAUREATLARI - 2024

## FİZİOLOGİYA VƏ TİBB ÜZRƏ



Victor Ambros



Gary Ruvkun

Fiziologiya və tibb üzrə Nobel mükafatına Amerika Birləşmiş Ştatlarından olan genetika üzrə alimlər Viktor Ambroz (Victor Ambros) və Qari Ravkan (Gary Ruvkun) mikroRNT-nin kəşfinə və onun transkripsiyadan sonrakı gen tənzimlənməsindəki rolunun müəyyənləşməsinə görə layiq görülüblər.

Nobel Komitəsinin bəyanatına görə, bu tədqiqat orqanizmin eyni DNK-ya malik hüceyrələrinin müxtəlif cür zülal sintezləşdirməsinə aydınlıq gətirir. Viktor Ambroz və Qari Ravkan`ın tədqiqatlarının nəticələri haqqında məqalə 1993-cü ildə dərc olunsa da, elmi ictimaiyyət tərəfindən indi dəyərləndirilmişdir.

**Viktor Ambroz** 1953-cü il dekabrın 1-də ABŞ-ın Hannover şəhərində (Nyu-Hempşir əyaləti) anadan olub. Massaçusets Texnologiya İnstitutunu bitirmişdir. Molekulyar biologiya üzrə mütəxəssisdir. Harvard Universiteti, Dartmut Kolleci və Massaçusets Texnologiya İnstitutunda çalışmışdır.

**Qari Ravkan** 1952-ci il martın 26-da ABŞ-ın Berkli (Kaliforniya) şəhərində anadan olub. Berkli Kaliforniya Universitetini bitirmişdir. Molekulyar biologiya və genetika üzrə mütəxəssisdir. Harvard Universitetinin professorudur.

Hər iki alim ABŞ Milli Elmlər Akademiyası və Amerika İncəsənət və Elmlər Akademiyasının üzvüdürlər və çoxlu nüfuzlu mükafatlara latıq görülüblər.

## FİZİKA ÜZRƏ



John Hopfield



Geoffrey Hinton

Süni intellekt və maşınöyrənmə üzrə mütəxəssislər - amerikalı Con Hopfild (John Hopfield) və Britaniya-Kanada Ceffri Hinton (Geoffrey Hinton) süni neyron şəbəkələrindən istifadə etməklə fundamental kəşflər və ixtiralara görə Nobel mükafatı alıblar. Süni intellekt ətrafındakı hazırkı böyük canlanmanın əsası onların 1980-ci illərdəki tədqiqatları ilə qoyulmuşdur.

**Con Hopfild** 1933-cü il iyulun 15-də Çikaqoda anadan olmuşdur. ABŞ-ın Kornell Universitetini bitirmişdir. Prinston Universiteti, Berkli Kaliforniya Universiteti və Kaliforniya Texnologiya İnstitutunda işləmişdir. ABŞ Milli Elmlər Akademiyası, Amerika İncəsənət və Elmlər Akademiyası və Amerika Fəlsəfə Cəmiyyətinin üzvüdür.

**Ceffri Hinton** 1947-ci il dekabrın 6-da Londonun Uimbldon rayonunda anadan olmuşdur. Kembric Kral Kolleci və Edinburq Universitetində təhsil almışdır. Toronto Universiteti və Karneqi Mellon Universitetində çalışmışdır. Ceffri Hinton London Kral Cəmiyyəti, Amerika İncəsənət və Elmlər Akademiyası, Süni İntellektin İnkişafı Assosiasiyası, Kanada Kral Cəmiyyəti və Hesablama Texnikası Assosiasiyasının üzvüdür.

Nobel laureatları fəaliyyətləri ərzində bir çox mükafatlarla təltif olunublar.

## KİMYA ÜZRƏ



David Baker John Jumper Demis Hassabis

Nobel mükafatına amesikalı Devid Bayker (David Baker) hesablamalı zülal dizaynına görə, britaniyalılar Con Camper (John Jumper) və Demis Hassabis (Demis Hassabis) isə zülal strukturlarının proqnozlaşdırılmasına görə layiq görülüblər.

Amerikalı alimin tədqiqatının həticələri 2003-cü ildə, britaniyalı mütəxəssislərin tədqiqatının nəticələri isə 2020-ci ildə nəşr olunmuşdur.

**Devid Bayker** 1962-ci il oktyabrın 6-da Vaşinqton federal dairəsinin Sietl şəhərində anadan olmuşdur. Berkli Kaliforniya Universitetində və San-Fransisko Kaliforniya Universitetində təhsil almışdlr. Vaşinqton universitetinin professorudur. Biokimya, genom elmləri, biomühəndislik, kimya mühəndisliyi, kompüter elmləri və fizika üzrə tədqiqatları var. ABŞ Milli Elmlər Akademiyası və Amerika İncəsənət və Elmlər Akademiyasının üzvüdür.

**Con Camper** 1985-ci ildə ABŞ-ın Arkanzas ştatının Litl-Rok şəhərində anadan olmuşdur. Çikaqo Universiteti, Kembric Universiteti və Vanderbilt Universitetində (ABŞ) təhsil almışdır.

"Nature" elmi jurnalı Camper`i 2021-ci ildə özünün illik "Elmdə on önəmli insan"siyahısına daxil etmişdir. Hal-hazırda DeepMind Technologies şirkətinin direktoru vəzifəsində çalışır.

**Demis Hassabis** 1976-cı il iyulun 27-də Londonda anadan olmuşdur. London Universitet Kolleci və Kembric Universitetini bitirmişdir. Süni intellekt tədqiqatçısı, nevroloq və kompüter oyunları tərtibatçısıdır. Amerikanın "DeepMind Technologies" şirkətinin baş elmi işçisidir.

Demis Hassabis London Kral Cəmiyyəti, Amerika İncəsənət və Elmlər Akademiyası və Papa Elmlər Akademiyasının üzvüdür.

## ƏDƏBİYYAT ÜZRƏ

Ədəbiyyat sahəsində Nobel mükafatı Cənubi koreyalı yazıçı Han Kanqa (Han Kanq) verilib. Qeyd olunur ki, Han Kanq bu mükafata "tarixi sarsıntılarla qarşılaşan və insan həyatının kövrəkliyini üzə çıxaran gərgin poetik nəsrinə" görə layiq görülüb.

**Han Kang** 1970-ci ildə Cənubi Koreyada anadan olub. O, yazıçı Han Sınqvo`nun qızıdır. 10 yaşında olarkən öz "Yunan dərsləri" adlı əsərində də bəhs etdiyi Yaponiyanın Okinava əyalətinin Syuri şəhərinə köçüb. Yonsey Universitetində ədəbiyyat üzrə təhsil alıb. Müəllifin qardaşı Han Donq Rim də yazıçıdır.



Han Kanq

1993-cü ildə şeirlərinin "Ədəbiyyat və cəmiyyət" adlı dərgidə çap edilməsi ilə karyerasına başlayıb. Öz bədii debütünü isə növbəti ildə qısa hekayəsi "Qırmızı lövbər"in "Seul Şinmun" bahar müsabiqəsində qalib gəlməsi ilə başlayıb. O vaxtdan bəri "İ Sanq" ədəbiyyat mükafatı (2005), "Günün gənc artisti" mükafatı və "Koreya Roman Ədəbiyyatı" mükafatına layiq görülüb.

2016-cı ildə yazdığı mental cəhətdən xəstə olan və ailəsinin etinasızlığı ilə qarşılaşan qadının həyatından bəhs edən "Vegeterian" adlı əsəri Beynəlxalq "Booker" mükafatına layiq görülüb.

Roman həmçinin müəllifin ingilis dilinə tərcümə edilən ilk əsərlərindəndir.

## SÜLH MÜKAFATI



Nihon Hidankyo

Yaponiyanın milli təşkilatı "Nihon Hidankyo" 2024-cü il Nobel Sülh Mükafatının laureatı olub. Bu təşkilat mükafata nüvə silahının törətdiyi humanitar fəlakətlər haqqında məlumatların yayılmasında mühüm rol oynayan fəaliyyətinə və nüvə silahına qarşı beynəlxalq kampaniyalarda fəal iştirakına görə layiq görülüb.

Təşkilat nüvə silahlarını qadağan etmək üçün mübarizə aparır və sağ qalanlara atom bombası hücumlarının nəticələri ilə bağlı hüquqi və tibbi məsələlərdə köməklik göstərir.

## İQTİSADİYYAT ÜZRƏ





Daron Acemoqlu Simon Johnson James Robinson

İqtisadiyyat üzrə Nobel mükafatı laureatları türk-amerikalı iqtisadçısı Daron Əcəmoğlu (Daron Acemoqlu), britaniya-amerikalı iqtisadçı Saymon Conson (Simon Johnson) və britaniyalı iqtisadçı və politoloq Ceyms Robinson`dur (James Robinson). Nobel mükafatı alimlərə "institutların formalaşması və onların rifaha təsirləri ilə bağlı araşdırmalarına görə" verilib.

Mükafat sahibləri öz tədqiqarlarında göstəriblər ki, ölkələrdə müxtəlif rifah səviyyələrinin səbəblərindən biri də müstəmləkəçilik zamanı yaradılan sosial institutlardır. Müstəmləkəçilik dövründə yoxsul olan ölkələr çox vaxt inklüziv institutları (cəmiyyətin geniş təbəqələrinin mülkiyyət hüquqlarını qoruyan və bütün vətəndaşların mənfəət üçün iqtisadi münasibətlərdə iştirakına imkan verən qurumlar) qəbul ediblər.

Digər ölkələr əhalinin böyük hissəsini gəlir bölgüsündən kənarlaşdıran hasilat iqtisadi institutları yaradıblar. Nəticədə, inklüziv institutların tətbiqi hər kəsə uzunmüddətli fayda gətirib, lakin hasilat institutları hakimiyyətdə olan insanlara qısamüddətli fayda verib. Nobel Komitəsinin mətbuata açıqlamasında deyilir ki, bu, bir vaxtlar zəngin olan bəzi keçmiş müstəmləkələrin niyə indi kasıb, digərlərinin isə zənginləşdiyini izah edir.

**Daron Əcəmoğlu** 1967-ci il sentyabrın 3-də İstanbulun Kadıköy rayonunda anadan olub. Müəllim olan anası direktor vəzifəsində də çalışmışdı. Atası müəllim və hüquqşünas idi. Daron Kadıköydəki Aramyam ibtidai məktəbini bitirdikdən sonra 1986-cı ildə Qalatasaray Liseyində təhsil alıb. 15 yaşından siyasətlə maraqlandığını deyən Əcəmoğlu Türkiyənin vəziyyəti, dünyanın vəziyyəti, demokratiya və geriləmə kimi mövzularla maraqlandığını, çoxlu kitab oxuduğunu bildirib.

İqtisadiyyat təhsili almağı qarşısına məqsəd qoyan Əcəmoğlu xaricə getməyə qə-

rar verib. Almaniyada Qalatasaray Universitetində təhsil alan illərdə ingilis dilini öyrənməyə başlayıb. O, İngiltərənin York Universitetinin Riyazi İqtisadiyyat və ekonometriya departamentində bakalavr dərəcəsini bitirmişdir (1989).

Bakalavr təhsili zamanı atasını itirən Əcəmoğlu həmin dövrdə çətinlik çəkdiklərini və Türkiyəyə qayıtmağı düşündüyünü bildirib. Banklarda təcrübə keçən, lakin onlardan xoşu gəlməyən və təhsilinə davam etmək qərarına gələn Əcəmoğlu London İqtisadiyyat Məktəbində magistr (1990) və doktorluq (1992) dərəcələrini alıb.

1992-1993-cü illərdə London İqtisadiyyat Məktəbində dərs demişdir. 1993-cü ildən ABŞ-da Massaçusets Texnologiya İnstitutunda tədris işini davam etdirib. 2000-ci ildə iqtisadiyyat professoru, 2019-cu ildə isə institut professoru adını alıb ki, bu da universitetdə müəllim heyətinə verilə biləcək ən yüksək addır.

Əcəmoğlu siyasi iqtisad, iqtisadi inkişaf, iqtisadi artım, gəlir və maaş tarazlığı bərabərsizliyi, əmək iqtisadiyyatı, iqtisadi nəzəriyyə, insan kapitalı və təhsillə bağlı araşdırmalar aparır. Onun politoloq Ceyms Robinsonla birgə yazdığı "Diktatura və demokratiyanın iqtisadi mənşəyi" (2006) və "Millətlərin süqutu: gücün, rifahın və yoxsulluğun mənşəyi" (2012) adlı əsərləri çoxsaylı mükafatlara layiq görülüb.

**Saymon Conson** 1963-cü il yanvarın 16-da İngiltərənin Yorkşir qraflığının Şeffild şəhərində anadan olmuşdur. Oksford Universiteti, Massaçusets Universiteti və Mançestr Universitetində təhsil almışdır. Beynəlxalq Valyuta Fondunun baş iqtisadçısı və Tədqiqat departamentinin direktoru olmuşdur. Hazırda Peterson Dünya İqtisadiyyatı İnstitutunun böyük elmi əməkdaşıdır.

**Ceyms Robinson** 1960-cı il fevralın 27-də İngiltərədə anadan olmuşdur. Yale Universiteti (ABŞ) və Uorik Universitetində (Britaniya) təhsil almışdır. Çikaqo Universitetinin Harris adına Kütləvi Siyasət Məktəbinin professorudur.Harvard Universiteti, Berklidəki Kaliforniya Universiteti, Cənubi Kaliforniya Universiteti və

***

Xatırladaq ki, mükafatın təqdim edilməsi mərasimi hər il dekabrın 10-da iki ölkənin – İsveçin və Norveçin paytaxtlarında keçirilir. Fizika, kimya, fiziologiya və tibbi, ədəbiyyat və iqtisadiyyat sahəsində mükafatlar Stokholmda İsveç kralı tərəfindən, sülhün qorunması sahəsində mükafat isə Osloda, şəhər ratuşasında Norveç kralının və kral ailəsi üzvlərinin iştirakı ilə Norveç Nobel Komitəsinin sədri tərəfindən təqdim edilir.

Laureatlara pul mükafatı ilə yanaşı üzərində Nobelin təsvir edildiyi qızıl medal və diplom təqdim olunur. Pul mükafatının məbləği Nobel fondundan alınmış gəlirdən asılı olaraq dəyişir.

Bu il mükafatın məbləği təxminən 1 milyon ABŞ dollarına bərabərdir.




## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ "*AFRİKA MATEMATİKA*" JURNALINDA

## JOINT ARTICLE BY MATHEMATICS DEPARTMENT PROFESSORS PUBLISHED IN "*AFRIKA MATEMATIKA*" JOURNAL

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin "The resolvent of impulsive dynamic singular Sturm-Liouville operators" ("İmpulsiv dinamik sinqulyar Şturm-Liuvill operatorlarının rezolventi") adlı birgə məqaləsi "*Afrika Matematika*" jurnalında (2024, Cild 35, № 62) dərc edilmişdur. Qeyd edək ki, "Afrika Matematika" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Məqalədə impulsiv dinamik sinqulyar Şturm-Liuvill məsələsinin rezolvent operatoru tədqiq edilir. Bu məsələnin spektral funksiyası qurulur. Spektral funksiyadan istifadə etməklə rezolvent operatorun inteqral təsvir düsturu əldə edilir.

A joint article titled "The resolvent of impulsive dynamic singular Sturm-Liouville operators" by Academic Hamlet Isakhanli, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor of Mathematics Department, and Professor Bilandar Allahverdiyev from the same department has been published in "Afrika Matematika" journal (2024, Volume 35, No. 62). It should be noted that "*Afrika Matematika*" journal is indexed in "Web of Science" and "Scopus" databases.

In this study, the resolvent operator of the impulsive dynamic singular Sturm-Liouville problem is considered. The spectral function was first established.The integral representation of the resolvent operator is obtained using this function.

***https://link.springer.com/article/10.1007/s13370-024-01205-5***

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ ƏMƏKDAŞININ MƏQALƏSİ "*SOCIAL SCIENCES & HUMANITIES OPEN*" JURNALINDA

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT EMPLOYEE'S ARTICLE PUBLISHED IN "*SOCIAL SCIENCES & HUMANITIES OPEN*"




Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Dr. Məhəmməd İmran`ın məsul müəllifi və həmmüəllifi olduğu "Emerging E-learning trends: A study of faculty perceptions and impact of collaborative techniques using fuzzy interface system" ("Ortaya çıxan elektron tədris trendləri: fakültə qavrayışlarının və əməkdaşlıq texnikalarının təsirinin qeyri-səlis interfeys sistemi ilə tədqiqi") adlı məqalə Scopus Q1 kateqoriyalı "*Social Sciences & Humanities Open*" (2024, 10-cu cild) jurnalında dərc olunmuşdur.

Bu tədqiqat universitetlərdə elektron tədris trendlərini araşdırır, COVID-19 sonrası təhsildə süni intellekt, oyun halına gətirmə və mobil təlimin təsirlərinə diqqət yetirir.

An article titled "Emerging E-learning trends: A study of faculty perceptions and impact of collaborative techniques using fuzzy interface system," coauthored by Dr. Muhammad Imran of Khazar University's English Language and Literature Department as the corresponding and coauthor, has been published in "*Social Sciences & Humanities Open,*" (2024, Volume 10) Scopus Q1 journal.

This study explores e-learning trends among university faculty, focusing on AI, gamification, and mobile learning's impact on education post-COVID-19.

***https://doi.org/10.1016/j.ssaho.2024.101035***

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİ MÜƏLLİMİNİN HƏMREDAKTORU OLDUĞU KİTAB İNGİLTƏRƏDƏ ÇAP EDİLİB




Noyabr ayında Tokio Universiteti Muzeyinin direktoru Prof. Yoshihiro Nishiaki, AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi Dos. Azad Zeynalov və həmin institutun aparıcı elmi işçisi, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Dr. Yaqub Məmmədovun elmi redaktorları olduqları "Damjili Cave: Investigating the Late Pleistocene to Holocene Human History in the Southern Caucasus" ("Damcılı mağarası. Cənubi Qafqazda son pleystosendən holosen dövrünədək bəşəriyyətin tarixinin tədqiqi") adlı kitab dünya üzrə arxeoloji tədqiqatlar və onların nəticələri barədə elmi ədəbiyyatın nəşri üzrə ixtisaslaşmış "Oxbow books" nəşriyyat evində çap olunmuşdur.

Azərbaycan-Yaponiya beynəlxalq arxeoloji ekspedisiyasının 2016-2023 - cü illərdə Avey Dövlət Tarix-Mədəniyyət Qoruğunun abidələr kompleksinə daxil olan Damcılı mağarasında (Qazax rayonu, Daş Salahlı kəndinin inzibati ərazisi) apardığı tədqiqatların nəticələrinə həsr edilən əsərin üç fəslinin həmmüəllifi Tarix və arxeologiya departamentinin müəllimi Ülviyyə Səfərova, bir fəslinin həmmüəllifi isə Orxan Zamanovdur.

Qeyd edək ki, Ülviyyə Səfərova, Orxan Zamanov Damcılı mağarasında aparılan arxeoloji tədqiqatların iştirakçısı, Dr. Yaqub Məmmədov isə iştirakçı olmaqla bərabər Azərbaycan tərəfdən bir müddət (2022-2023) rəhbəri də olmuşdur.

## A BOOK CO-EDITED BY HISTORY AND ARCHAEOLOGY DEPARTMENT INSTRUCTOR PUBLISHED IN ENGLAND

In November a book titled "Damjili Cave: Investigating the Late Pleistocene to Holocene Human History in the Southern Caucasus" was published by "Oxbow Books," a publishing house specializing in archaeological research and scientific literature worldwide. The book was scientifically edited by Prof. Yoshihiro Nishiaki, Director of the University Museum at the University of Tokyo, Assoc. Prof. Azad Zeynalov, leading researcher at the Institute of Archaeology and Anthropology of ANAS, and Dr. Yagub Mammadov, leading researcher at the same institute and instructor at Khazar University's Department of History and Archaeology.

The book focuses on the results of research conducted by the Azerbaijan-Japanese international archaeological expedition at Damjili Cave (located in the administrative territory of Dash Salahli village, Gazakh region) within the Avey State Historical-Cultural Reserve complex between 2016-2023. Ulviyya Safarova, instructor at the Department of History and Archaeology, is a co-author of three chapters, while Orkhan Zamanov is a co-author of one chapter.

It should be noted that Ulviyya Safarova and Orkhan Zamanov were participants in the archaeological research conducted at Damjili Cave, while Dr. Yagub Mammadov was not only a participant but also served as the head of the Azerbaijani side for a period (2022-2023).

iJIM International Journal of Interactive Mobile Technologies

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ ƏMƏKDAŞLARININ BİRGƏ MƏQALƏSİ "*INTERNATIONAL JOURNAL OF INTERACTIVE MOBILE TECHNOLOGIES (IJIM)*" JURNALINDA

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşları Dr. Muhammad İmran və Dr. Milana Abbasovanın birinci və məsul müəllifləri olduqları "Artificial Intelligence in Higher Education: Enhancing Learning Systems and Transforming Educational Paradigms" ("Ali təhsildə süni intellekt: təhsil sistemlərinin təkmilləşdirilməsi və təhsil paradiqmalarının transformasiyası") adlı məqalə Scopus indeksli "*International Journal of Interactive Mobile Technologies (iJIM)*" jurnalında (2024, 18-ci cild, №18) dərc edilib.

Bu tədqiqat ali təhsil səviyyələrində süni intellektin dil təhsilinə inteqrasiyasını, xüsusilə təhsil sistemlərinin təkmilləşdirilməsi və təhsil paradiqmalarının transformasiyası aspektlərini araşdırır.

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT LECTURERS' JOINT ARTICLE PUBLISHED IN "*INTERNATIONAL JOURNAL OF INTERACTIVE MOBILE TECHNOLOGIES (IJIM)*"

An article titled "Artificial Intelligence in Higher Education: Enhancing Learning Systems and Transforming Educational Paradigms," by Dr. Muhammad Imran and Dr. Milana Abbasova of Khazar University's English Language and Literature Department as published as the First and Corresponding Authors, has been published in "*International Journal of Interactive Mobile Technologies (iJIM)*," (2024, Volume 18, No. 18) Scopus indexed journal.

This study explores the integration of artificial intelligence into language education at higher education levels, especially in enhancing learning systems and transforming educational paradigms.

*https://doi.org/10.3991/ijim.v18i18.49143*

iJEP International Journal of Engineering Pedagogy

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ ƏMƏKDAŞININ MƏQALƏSİ "*INTERNATIONAL JOURNAL OF ENGINEERING PEDAGOGY*" JURNALINDA

İngilis dili və ədəbiyyatı departamentinin əməkdaşı Dr. Muhammad İmranın birinci və məsul müəllifi olduğu "Education for a Sustainable Future: The Impact of Environmental Education on Shaping Sustainable Values and Attitudes among Students" ("Davamlı gələcək üçün təhsil: ətraf mühit təhsilinin tələbələr arasında davamlı dəyərlər və münasibətlərin formalaşmasına təsiri") adlı məqaləsi Scopus Q2 və ISI Q2 indeksli "*International Journal of Engineering Pedagogy*" jurnalında (2024, 14-cü cild, No. 6, səh. 155-171) dərc edilmişdir.

Məqalədə tələbələr arasında davamlı dəyərlər və biliklərin formalaşmasında təhsilin təxirəsalınmaz rolu, eləcə də təhsil müəssisələrində yaxşı strukturlaşdırılmış tədris proqramları, müəllim hazırlığı və ekoloji təşəbbüslərə olan vacib ehtiyac vurğulanır.

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT EMPLOYEE'S ARTICLE PUBLISHED IN "*INTERNATIONAL JOURNAL OF ENGINEERING PEDAGOGY*" JOURNAL

Dr. Muhammad Imran, the employee of English Language and Literature Department, as the first and corresponding author, has published an article titled "Education for a Sustainable Future: The Impact of Environmental Education on Shaping Sustainable Values and Attitudes among Students" in *International Journal of Engineering Pedagogy*, 2024, Volume 14, No. 6, pp. 155-171, a Scopus Q2 and ISI Q2 indexed journal.

This study underscores the urgent role of education in fostering sustainable values and knowledge among students, emphasizing the critical need for well-structured curricula, teacher training, and environmental initiatives within educational institutions.

*https://doi.org/10.3991/ijep.v14i6.48659*

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN KİTABI İRANDA FARS DİLİNDƏ ÇAP OLUNUB

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin Sakarya Universitetinin (Türkiyə) Siyasi elm və dövlət idarəçiliyi kafedrasında müdafiə etdiyi dissertasiyası əsasında Türkiyədə nəşr edilən "*Azərbaycanda Milliyetçilik*" (2020) monoqrafiyası "Qalanyurd" nəşriyyatı tərəfindən eyni adla fars dilinə tərcümə edilərək, İranda nəşr olunmuşdur (2024).

Qeyd edək ki, monoqrafiya Türkiyədə iki dəfə nəşr edilmişdir. Bu nəşr monoqrafiyanın birinci nəşri əsasında hazırlanmışdır.

Dos. Vəliyev monoqrafiyada Azərbaycanın modernləşmə, millət quruculuğu və ilk modern dövlət olan cümhuriyyət quruluşunu tədqiq etmişdir.




# BOOK BY HEAD OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT PUBLISHED IN PERSIAN IN IRAN

The monograph "*Nationalism in Azerbaijan*" (2020) by Associate Professor Orkhan Valiyev, Head of the Political Science and Philosophy Department, based on his dissertation defended at Sakarya University's (Türkiye) Department of Political Science and Public Administration, has been translated into Persian and published in Iran (2024) under the same title by "Qalanyurd" Publishing House.

It should be noted that the monograph has been published twice in Turkey. This Persian edition was prepared based on the first publication of the monograph.

In the monograph, Associate Professor Valiyev investigates Azerbaijan's modernization, nation-building, and the establishment of the republic as its first modern state structure.

https://qalanyurd.com/product/ملی-گرایی-در-جمهوری-آذربایجان/



Yaqub Məmmədov

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMLƏRİ BEYNƏLXALQ ELMİ KONFRANSDA

## FACULTY MEMBERS OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY PARTICIPATE IN AN INTERNATIONAL SCIENTIFIC CONFERENCE

Noyabrın 5-6-da Bakı Dövlət Universitetində (BDU) və Xəzər Universitetində uzun illər çalışmış professor Qüdrət İsmayılzadənin anadan olmasının 90 illiyi münasibətilə BDU-da "Qarabağ və Zəngəzurun mədəni irsi arxeoloji və etnoqrafik tədqiqatlarda" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

AMEA Arxeologiya və Antropologiya İnstitutu və BDU-nun birgə təşkilatçılığı ilə keçirilən konfransda Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Yaqub Məmmədov "Azıx mağarasında hansı insan növləri yaşayıb?", Orxan Zamanov "Qüdrət İsmayılzadənin elmi-yaradıcılıq irsində silah və hərb işi problemi" və Dr. Yaqub Məmmədov və Ülviyyə Səfərova "Tağlar mağarasında arxeoloji tədqiqatların bərpası" mövzularında məruzələr ilə çıxış ediblər. Qeyd edək ki, Dr. Yaqub Məmmədov və Ülviyyə Səfərova bu il 38 illik fasilədən sonra Tağlar mağarasında başlanan arxeoloji ekspedisiyanın üzvləri olublar.

On November 5-6, an international scientific conference on "Cultural Heritage of Karabakh and Zangezur in Archaeological and Ethnographic Research" was held at Baku State University (BSU) on the occasion of the 90th anniversary of the birth of Professor Gudrat Ismayilzade, who had worked at BSU and Khazar University for many years.

The conference was co-organized by the Institute of Archaeology and Anthropology of ANAS and BSU. Faculty members from the Department of History and Archaeology at Khazar University delivered presentations: Dr. Yaqub Mammadov - "What human species lived in the Azykh cave?"; Orkhan Zamanov - "The problem of weapons and warfare in the scientific and creative heritage of Gudrat Ismayilzade"; Dr. Yaqub Mammadov and Ulviyya Safarova - "Restoration of archaeological research in the Taghlar cave". It is noteworthy that Dr. Yaqub Mammadov and Ulviyya Safarova were members of the archaeological expedition that resumed work in the Taghlar cave this year after a 38-year hiatus.



Orxan Zamanov






*Theresa Tania Gebhardt*

## BEYNƏLXALQ ENERJİ AGENTLİYİ TƏMSİLÇİLƏRİNİN TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ

## MEETING OF INTERNATIONAL ENERGY AGENCY REPRESENTATIVES WITH STUDENTS

Noyabrın 6-da Xəzər Universitetində İqtisadiyyat və Biznes Yüksək Təhsil fakültəsinin təşkilatçılığı ilə Beynəlxalq Enerji Agentliyinin (BEA) Xəzər və Qara Dəniz Proqramları üzrə mütəxəssisi Tereza Taniya Qebhardt (Theresa Tania Gebhardt) və BEA-nın Azərbaycan üzrə eksperti Pərviz Qəribzadənin tələbələrlə görüşü keçirildi.



Fakültənin dekanı Prof. İnqilab Əhmədov qonaqlqrı təqdim edəndən sonra Tereza Tanya Qebhardt`ın təqdimatı dinlənildi və çoxsaylı suallar cavablandırıldı.

Görüşdə, həmçinin, COP29 və iqlim dəyişikliyinin qlobal problemləri, eləcə də Azərbaycanın enerji keçid perspektivləri müzakirə edildi, tələbələr mövzu ilə bağlı fikirlərini bölüşdülər.

On November 6, a meeting of students with Theresa Tania Gebhardt, the Caspian and Black Sea Programs Specialist at the International Energy Agency (IEA), and Parviz Garibzade, the IEA's Azerbaijan expert, was organized by the Graduate School of Economics and Business at Khazar University.



After the introduction of the guests by the Dean of the Faculty, Prof. Ingilab Ahmadov, Theresa Tania Gebhardt delivered a presentation, which was followed by a Q&A session with the students.

During the meeting, the global issues of COP29 and climate change, as well as the energy transition perspectives of Azerbaijan, were also discussed. The students shared their opinions on the topics.




*Səbinə Quluyeva, Lyudmila Sotova, Fəridə Tatardar*

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ERASMUS+ 3E-TƏRƏFDAŞLIQ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İSPANİYANIN CORUNA UNİVERSİTETİNƏ SƏFƏR EDİBLƏR

# KHAZAR UNIVERSITY EMPLOYEES VISIT CORUÑA UNIVERSITY WITHIN THE ERASMUS+ 3E-PARTNERSHIP PROJECT

Noyabrın 6-7-də Xəzər Universitetindən Lyudmila Sotova (Keyfiyyət Təminatı Mərkəzinin direktoru), Fəridə Tatardar (Fizika və elektronika departamentinin müdiri) və Səbinə Quluyevadan (İnkişaf Mərkəzinin layihə meneceri) ibarət heyət İspaniyanın Coruna Universitetində keçirilən Erasmus+ "Azərbaycan, Gürcüstan və Ukraynada Avropa enerji səmərəliliyi üzrə qarşılıqlı yardım tərəfdaşlığı" 3E layihəsinin növbəti tədbirində iştirak ediblər.

Tədbiri Coruna Universitetinin professoru Ana Ares Pernas açıb. Sonra Sənaye mühəndisliyi şöbəsinin müdiri José Luis Calvo Rolle Ferrol Politexnik və mühəndislik fakültəsi haqqında məlumat verib.

Gün boyu davam edən tədbirdə iştirakçılar Ferrol kampusundakı CITENI laboratoriyasının enerji texnologiyalarındakı ən son yeniliklərlə tanış olublar.

Növbəti gün NAVANTIA Gəmiqayırma Zavoduna və Qalisiya Texnologiya İnstitutuna tur təşkil edilmişdir.

Tədbirin sonunda qarşıda duran planlar müzakirə olunub.

On November 6-7, a delegation from Khazar University consisting of Lyudmila Sotova (Director of the Quality Assurance Center), Farida Tatardar (Head of the Department of Physics and Electronics), and Sabina Guluyeva (Project Manager at the Development Center) participated in the next event of the Erasmus+ "European Energy Efficiency Mutual Assistance Partnership in Azerbaijan, Georgia, and Ukraine" (3E) project at A Coruña University in Spain. The event was opened by Ana Ares Pernas, a professor at A Coruña University. Subsequently, José Luis Calvo Rolle, Head of the Industrial Engineering Department, provided information about the Ferrol Polytechnic and the Faculty of Engineering.

Throughout the day-long event, participants familiarized themselves with the latest innovations in energy technologies at the CITENI laboratory located in the Ferrol campus.

The following day, a tour was organized to the NAVANTIA Shipyard and the Galician Technology Institute. At the end of the event, upcoming plans were discussed.

# TƏLƏBƏLƏR "ŞİRVANŞAHLAR SARAYI KOMPLEKSİ" DÖVLƏT TARİX-MEMARLIQ QORUQ-MUZEYİNDƏ

# STUDENTS AT THE "SHIRVANSHAHS' PALACE COMPLEX" STATE HISTORICAL-ARCHITECTURAL RESERVE-MUSEUM



Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisasında təhsil alan I kurs tələbələri noyabrın 7-də Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun təşkilatçılığı ilə "Şirvanşahlar Sarayı Kompleksi" muzeyində olmuşlar.

Ekskursiya zamanı fənn müəllimi Orxan Zamanov və bələdçi Zülfiyyə Məhərrəmova tələbələrə muzey haqqında geniş və maraqlı məlumat vermişlər.

Tələbə Leyla Xalıqovanın təəssüratı: "Bu ekskursiya sayəsində XV əsrə aid "Şirvanşahlar Sarayı Kompleksi" haqqında geniş məlumat əldə etdik. Kompleksdə Şah sarayı, məscid, məqbərə, divanxana, ovdan və türbə kimi tikililər mövcuddur. Saray kompleksi qədim Azərbaycan memarlıq üslubu ilə bəzədilmişdir və hər bir hissəsi unikal dizayn elementləri ilə zəngindir. Ən diqqətəlayiq cəhətlərdən biri isə səliqəli daş işçiliyi və binanın tarixi məqamlarının qorunub saxlanmasıdır. Şirvanşahlar Sarayı həm Azərbaycan tarixini öyrənmək, həm də qədim memarlıq abidələri ilə tanış olmaq üçün möhtəşəm bir məkandır. Bu ekskursiya üçün Orxan müəllimə və bizə bütün incəlikləri danışan bələdçimiz Zülfiyyə xanıma təşəkkür edirik."

First-year students studying History Education at the Faculty of Humanities, Education and Social Sciences visited the "Shirvanshahs' Palace Complex" museum on November 7, organized by Orkhan Zamanov, an instructor from the Department of History and Archaeology.

During the excursion, subject instructor Orkhan Zamanov and guide Zulfiyya Maharramova provided students with extensive and interesting information about the museum.

Student Leyla Khaligova's impression: "Through this excursion, we gained extensive knowledge about the 15th-century 'Shirvanshahs' Palace Complex'. The complex includes structures such as the Shah's palace, mosque, mausoleum, divankhana, ovdan, and tomb. The palace complex is decorated in ancient Azerbaijani architectural style, and each section is rich with unique design elements. One of the most notable aspects is the meticulous stonework and the preservation of the building's historical features. The Shirvanshahs' Palace is a magnificent place both for learning Azerbaijan's history and getting acquainted with ancient architectural monuments. We thank Mr. Orkhan and our guide Zulfiyya khanum, who explained all the details to us, for this excursion."

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİ MÜDİRİNİN "ŞƏRQ" QƏZETİNƏ ŞƏRHİ

## COMMENTARY BY THE HEAD OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY IN "*SHARQ*" NEWSPAPER

Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu 2024-cü il noyabrın 6-da "*Şərq*" qəzetində Ermənistanla Azərbaycan arasında yaxınlarda imzalanması ehtimal edilən sülh sazişinin müxtəlif istiqamətlərini şərh etmişdir.

On November 6, Assoc. Prof. Telman Nusratoghlu, Head of the Department of History and Archaeology, commented on various aspects of the potential peace agreement recently anticipated to be signed between Armenia and Azerbaijan.

***https://sherg.az/siyaset/279249***

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ *XƏZƏR TV*-DƏ

## DEPARTMENT HEAD OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON *KHAZAR TV*

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev 2024-cü il noyabrın 17-də *Xəzər TV*-nin "Xəbər ertəsi" proqramının "COP29-un Azərbaycan və dünya ölkələri üçün əhəmiyyəti" mövzusuna həsr olunmuş verilişində iştirak etmişdir. Dos. Orxan Vəliyev Azərbaycanın COP29-a ev sahibliyi etməsi və bu layihənin ölkəmizə təklif edilməsinin əhəmiyyəti, dövlətlərin iqlim dəyişikliklərinə daha çox diqqət ayırması, könüllü tələbələrin COP29-da zəngin təcrübə əldə etməsi və digər məsələlərə toxunmuşdur.

On November 17, 2024, the head of the Department of Political Sciences and Philosophy, Assoc. Prof. Orkhan Valiyev, participated in the "After the news" program of *Khazar TV* about "The importance of COP29 for Azerbaijan and World Countries". Assoc. Prof. Orkhan Valiyev touched upon the significance of Azerbaijan hosting COP29 and the importance of this initiative being offered to the country, the growing attention of states to climate change, the valuable experience gained by volunteers at COP29, and other related issues.

***https://www.youtube.com/watch?v=jBvgRgwCMno***

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ *FÜYUZAT.AZ*- DA

## AN ARTICLE BY THE HEAD OF DEPARTMENT IS IN *FUYUZAT.AZ*

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri dos. Orxan Vəliyevin "*Füyuzat*": dövlətsiz başlanğıc" adlı məqaləsi Füyuzat.az-da dərc edilmişdir.

Dos. Vəliyev məqalədə Modern Azərbaycan mətbuatının "Əkinçi" qəzeti ilə başlaması, Azərbaycan milli kimliyinin intellektual, ideoloji başlanğıcının "Füyuzat" jurnalının 32 nömrəlik sütunlarında yer alması, "Füyuzat"ın modern bir təşəbbüs olaraq bütün türkləri bir yazı ətrafında birləşdirməyi hədəfləməsi və digər məsələlər haqqında yazmışdır.

An article by Assoc. Prof. Orkhan Valiyev, Head of Political Science and Philosophy Department at Khazar University, titled "*Fuyuzat*": stateless beginning", has been published in Fuyuzat.az. In the article, Assoc. Prof. Valiyev touched on the beginnings of modern Azerbaijani press with the newspaper "Akinchi," the intellectual and ideological origins of Azerbaijani national identity being laid out in the 32 issues of the journal "Fuyuzat," and how "Fuyuzat," as a modern initiative, aimed to unite all Turks around a common written discourse, among other issues.

***https://fuyuzat.az/fuyuzat-dovletsiz-baslangic/***

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏSİ "*İMGELEM*" JURNALINDA

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "Milli kimlik: dövlət mənəm" adlı məqaləsi "*İmgelem*" jurnalında (Özbəkistana aid xüsusi nömrəsində, s. 449-458, 2024) nəşr edilmişdir.

Məqalədə Azərbaycan kontekstində milli kimlik anlayışının necə formalaşdırıldığına diqqət yetirilir, milli kimliyin müxtəlifliyi idarə etmək və cəmiyyətlərdə bərabərhüquqlu tanınmanı əldə etmək üçün vacibliyi qeyd olunur, milli kimliklərin sosial birləşmə və idarəçilik aləti kimi meydana çıxdığı vurğulanır.

## ARTICLE BY HEAD OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT IN THE "*IMGELEM*" JOURNAL

The article by Assoc. Prof. Orkhan Valiyev, Head of the Department of Political Sciences and Philosophy at Khazar University entitled "National identity: I am the state" has been published in the "*Imgelem*" Journal (Special Issue of Uzbekistan, Page 449-458, 2024).

The article focuses on how the concept of national identity is shaped in the context of Azerbaijan, highlights the importance of national identity to manage diversity and foster equal recognition within societies, and emphasizes that national identities emerged as tools for social cohesion and governance.

***https://dergipark.org.tr/en/pub/imgelem/issue/83945/1556941***

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "*THE NATIONAL INTEREST*" JURNALINDA

THE NATIONAL INTEREST

## ARTICLE BY DR. VASIF HÜSEYNOV, LECTURER OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT IN "*THE NATIONAL INTEREST JOURNAL*"

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynovun "Cop29 and Armenia-Azerbaijan Relations" (Cop29 və Ermənistan-Azərbaycan münasibətləri) adlı məqaləsi "*The National Interest*" jurnalında dərc edilmişdir.

Məqalədə Azərbaycanın 2024-cü il noyabrın 11-dən 22-dək Bakıda COP29-a ev sahibliyi etməsindən, bu tədbirin həm də Azərbaycan və Ermənistan arasında sülhün təşviqi üçün də mühüm olmasından bəhs edilir. Bildirilir ki, Azərbaycanın COP29 təşəbbüsünü Ermənistanın dəstəkləməsi müsbət əlamətdir, lakin sülh sazişinin əldə edilməsində, xüsusilə konstitusiya məsələləri və təzminatlarla bağlı hələ də çoxlu problemlər vardır.

Qeyd edək ki, "The National Interest" ABŞ-da The Center for the National Interest tərəfindən nəşr olunur.

An article by Dr. Vasif Huseynov, Lecturer of Political Science and Philosophy Department at Khazar University, titled "Cop29 and Armenia-Azerbaijan Relations", has been published in "*The National Interest*" journal.

V. Huseynov touched upon Azerbaijan hosting COP29 in Baku from November 11 to 22, 2024, highlighting its importance for climate action and peace promotion between Azerbaijan and Armenia. Armenia's support for Azerbaijan's COP29 bid is a positive sign, but there are still many challenges in reaching a peace agreement, especially regarding constitutional issues and reparations.

It is important to note that "The National Interest" is a US-based journal published by The Center for the National Interest.

***https://nationalinterest.org/feature/cop29-and-armenia-azerbaijan-relations213370?fbclid=IwY2xjawGJxbtleHRuA2FlbQIxMQABHeD4Mqn__BbhHBE9JCan-mAQ0ej5cGTkay8Wv2LExFkxFfgJyGRhkNCHpQ_aem_Tw4ltqEuUZSyzaqqrKNu1A***

# XƏZƏR UNİVERSİTETİ VƏ MÜASİR ÇİN VƏ DÜNYA ARAŞDIRMALARI AKADEMİYASI GƏLƏCƏK ƏMƏKDAŞLIQ ÜÇÜN MÖHKƏM TƏMƏL QOYDU

# KHAZAR UNIVERSITY AND ACADEMY OF CONTEMPORARY CHINA AND WORLD STUDIES LAID A SOLID FOUNDATION FOR FUTURE COLLABORATION

Noyabrın 15-də Xəzər Universiteti potensial tərəfdaşlıq və birgə təşəbbüsləri araşdırmaq üçün Müasir Çin və Dünya Araşdırmaları Akademiyasının (MÇDAA) nümayəndə heyətini qəbul etdi. Bu mühüm görüş Azərbaycan və Çin arasında tədris  və mədəni mübadiləni gücləndirmək üçün mühüm bir addım oldu.

Görüş zamanı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı nümayəndə heyətini səmimiyyətlə salamlayaraq, səfərlərinə görə onlara minnətdarlığını bildirib. O, əvvəlki Çin səfəri zamanı olan müsbət təəssüratlarını bölüşərək, potensial uğurlu tərəfdaşlıq imkanları ilə bağlı  fikirlərini ifadə etdi.

Ümumi tanışlıqdan sonra  rektor Dos. İradə Xəlilovanın rəhbərliyi ilə Xəzər Universitetinin heyəti günün proqramını müəyyənləşdirdi. Dos. Xəlilova universitetin tarixi,tədris sahəsindəki üstünlükləri, müasir imkanları və beynəlxalq nailiyyətlərindən bəhs etdi. Çin qurumları ilə tərəfdaşlıqları və Xəzər Universitetinin Çin Tədqiqatlar Mərkəzinin fəaliyyətini vurğulayaraq, əməkdaşlıq imkanlarını qeyd etdi. Həmçinin, "Dünya" məktəbi və Nailəxanım Fondu haqqında da məlumat verdi.

On November 15, Khazar University hosted a distinguished delegation from the Academy of Contemporary China and World Studies (ACCWS) to explore potential partnerships and collaborative initiatives. This landmark meeting marked a significant step toward fostering academic and cultural exchange between Azerbaijan and China.



*Fan Daqi, Zhao Lisha, Zhang Yuanxiong*

The meeting commenced with warm greetings from Prof. Acad. Hamlet Isakhanli, the Founder of Khazar University, who expressed his appreciation for the delegation's visit. Reflecting on his own positive experiences in China during his previous visit, Prof. Akad. Isakhanli shared his enthusiasm for the potential of a fruitful partnership.

Following the introductions from both sides, Khazar University staff, led by Assist. Prof. Irada Khalilova, outlined the day's agenda. Prof. Khalilova presented an overview of Khazar University's history, academic strengths, modern facilities, and international achievements. Highlighting partnerships with Chinese institutions and the activities of the University's China Studies Centre, she emphasized the shared opportunities for collaboration. She also touc-



*Hamlet İsaxanlı*

Vitse-prezident Fan Daqi, köməkçi elmi işçi Zhao Lisha və tədqiqat assistenti Zhang Yuanxiong`dan ibarət MÇDAA nümayəndə heyəti Bakı haqqında ilk təəssüratlarından və Akademiyanın diqqət mərkəzində olan tədqiqat mövzularından danışdılar. Onlar süni intellekt, mülki mühəndislik, iqlim dəyişikliyi, mədəniyyət tədqiqatları və Bakı - Pekin arasında birgə tədqiqat layihələri də daxil olmaqla bir neçə əməkdaşlıq sahəsi təklif etdilər. Birgə tədqiqat mərkəzi və iki qurum arasında mübadilə proqramlarının yaradılması da müzakirə olundu.

Müzakirələr zamanı Dos. Xəlilova birgə konfransın keçirilməsini təklif etdi və bu təklif MÇDAA nümayəndə heyəti tərəfindən böyük maraqla qarşılandı. Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurası sədrinin köməkçisi Turana Əliyeva tərəfindən təqaüd proqramları da təklif olundu. Görüş qarşılıqlı hədiyyələrin mübadiləsi və birgə foto çəkdirməklə başa çatdı.

Bu görüş gələcək əməkdaşlıqlar üçün möhkəm təməl qoydu, Xəzər Universitetinin beynəlxalq tərəfdaşlıqları genişləndirmək və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək öhdəliyini bir daha nümayiş etdirdi.




*İradə Xəlilova*

hed on Khazar's initiatives, including Dunya School and the Nailekhanim Foundation.

The ACCWS delegation, represented by Vice President Mr. Fan Daqi, Associate Research Fellow Ms. Zhao Lisha, and Research Assistant Mr. Zhang Yuanxiong, reciprocated with insights into their first impressions of Baku and the Academy's research focus. They proposed areas of potential cooperation, including artificial intelligence, civil engineering, climate change, cultural studies, and joint research projects in Baku and Beijing. They also suggested the creation of a joint research center and exchange programs between the two institutions.

During the discussions, Assist. Prof. Khalilova proposed hosting a collaborative conference, which was warmly received by the ACCWS delegation. Further suggestions included fellowship programs, presented by Turana Alieva, Assistant to the Chairman of the Board of Trustees and Founder of Khazar University. The meeting concluded with an exchange of presents.

This meeting has laid a solid foundation for future collaborations, underlining Khazar University's commitment to expanding international partnerships and fostering intercultural dialogue.

# AMERİKA TEXNOLOGİYA UNİVERSİTETİ İLƏ XƏZƏR UNİVERSİTETİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANIB

# AMERICAN UNIVERSITY OF TECHNOLOGY SIGNS MOU WITH KHAZAR UNIVERSITY



*Hamlet İsaxanlı, Said Irandoust*

Noyabrın 20-də Özbəkistanın Daşkənd şəhərindəki Amerika Texnologiya Universitetində (ATU) həmin universitetlə Xəzər Universiteti arasında tədris, mədəni mübadilə və peşəkar inkişafı təşviq etmək məqsədilə güclü tərəfdaşlıq qurmaq üçün Anlaşma memorandumu imzalanıb.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və ATU-nun qurucu rektoru Prof. Dr. Said Irandoust tərəfindən imzalanan Anlaşma memorandumu hər iki təhsil müəssisəsinin tələbələri, professor-müəllim heyəti və əməkdaşları üçün təhsil və tədqiqat imkanlarının genişləndirilməsinə dair ortaq öhdəliyi nəzərdə tutur.

Mərasimdə Cintana Education-ın prezidenti, ATU-nun qurucu prezidenti Prof. Rick Shangraw və ATU-nun qurucu tərəfdaşı Timur Rəhmanov, eləcə də ATU-nun digər rəsmiləri çıxış edərək, bu əməkdaşlığın əhəmiyyətini vurğuladılar.

Qeyd edək ki, Arizona Dövlət Universiteti (ADU) tərəfindən dəstəklənən ATU Özbəkistanda 2024-cü ildə Prezident fərmanı ilə təsis edilmiş yeni özəl beynəlxalq universitetdir. ADU-Cintana Alyansının üzvü olaraq ATU yerli və qlobal karyera uğuru üçün işəgötürən yönümlü təhsil vermək məqsədilə ADU-nun ciddi akademik standartlarını və innovativ tədris metodlarını tətbiq edir.

On November 20, The American University of Technology (AUT), Tashkent, Uzbekistan, and Khazar University, Baku, Azerbaijan, have signed a Memorandum of Understanding (MoU) to establish a robust partnership aimed at fostering academic excellence, cultural exchange, and professional development.

The MoU, signed by Prof. Dr. Hamlet Isakhanli, Founder and Chairman of the Board of Directors and Trustees of Khazar University, and Prof. Dr. Said Irandoust, Founding Rector of AUT, underscores a shared commitment to enhancing educational and research opportunities for students, faculty, and staff of both institutions.

The ceremony was graced by the presence of Prof. Rick Shangraw, President of Cintana Education and the AUT Founding President, and Mr. Timur Rachmanov, the AUT Founding Partner, as well as other AUT officials, further highlighting the significance of this collaboration.

AUT, powered by Arizona State University (ASU), is a newly established private international university in Uzbekistan, founded in 2024 by Presidential Decree. As a member of the ASU-Cintana Alliance, AUT adopts ASU's rigorous academic standards and innovative teaching methods to deliver employer-focused education for local and global career success.

Memorandum aşağıdakı sahələrdə əməkdaşlıq üçün yol açır: tələbə və müəllim mübadiləsi, birgə tədris və tədqiqat təşəbbüsləri, peşəkar inkişaf proqramları, ömürboyu öyrənmə fəaliyyətləri, yay-qış tələbə düşərgələri, mədəniyyətlərarası və ictimai əlaqələr layihələri.

Bu tərəfdaşlıq qarşılıqlı anlaşmanı və qlobal əməkdaşlığı gücləndirməklə yanaşı, tələbə və müəllim heyəti üçün imkanları artırır.

The agreement paves the way for cooperation in various areas, including student and faculty exchanges, joint academic and research initiatives, professional development programs, lifelong learning activities, summer and winter student camps, cross-cultural and community engagement projects.

This partnership enhances opportunities for students and faculty while fostering mutual understanding and global engagement.

## SICHUAN UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

Noyabrın 22-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları ilə Çinin Sichuan Universitetinin Xaricdə təhsil şöbəsinin koordinatoru Ping Liang ilə görüş keçirildi. Görüşdə şöbənin müdiri Fatimə Vəliyeva, koordinatorları Əli Mirzəzadə və Jalə Məmmədova iştirak etdilər.

Fatimə Vəliyeva Xəzər Universiteti, Ping Liang isə Sichuan Universiteti haqqında ətraflı məlumat verdilər. Keçirilən müzakirələrdə iki universitet arasında əməkdaşlıq, tələbə mübadiləsi və digər birgə layihələr haqqında fikir mübadiləsi aparıldı.

Görüşdən sonra Ping Liang Xəzər Universiteti ilə, o cümlədən Çin Tədqiqatlar Mərkəzi və Konfutsi sinifləri ilə tanış oldu.

## MEETING WITH SICHUAN UNIVERSITY REPRESENTATIVE

On November 22, a meeting was held between the staff of the International Relations Department of Khazar University and Ping Liang, the Coordinator of the International Education Department of China's Sichuan University. Meeting participants were Fatima Valiyeva, Department Head and coordinators Ali Mirzazadeh and Jala Mammadova.

Fatima Valiyeva provided detailed information about Khazar University, while Ping Liang presented comprehensive details about Sichuan University. The discussions focused on potential collaboration between the two universities, student exchange programs and other joint research projects. Following the meeting, Ping Liang toured Khazar University, including the China Studies Center and Confucius Classrooms, to gain a deeper understanding of the institution.



*Əli Mirzəzadə, Ping Liang, Fatimə Vəliyeva, Jalə Məmmədova*

# XƏZƏR UNİVERSİTETİNİN ALİMİ QARAQALPAQ RESPUBLİKASI YÜKSƏK MƏCLİSİNİN FƏXRİ ÜZVÜ SEÇİLDİ

# SCIENTIST FROM KHAZAR UNIVERSITY ELECTED AS HONORARY MEMBER OF THE SUPREME COUNCIL OF THE REPUBLIC OF KARAKALPAKSTAN



*Qaraqalpaq Respublikası Yüksək Məclisinin sədri Amanbay Orynbayev, Nəzakət Məmmədli*

Noyabrın 13-15-də Xəzər Universiteti Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun (MƏFAİ) direktoru, filologiya elmləri doktoru Nəzakət Məmmədli Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayevin layihə rəhbərliyi ilə böyük Qaraqalpaq şairi Hacıniyaz Kosıbay oğlunun anadan olmasının 200 illiyi münasibətilə şairin əsərlərinin Türkiyə və Azərbaycan türkcəsinə tərcümələrinin təqdimat mərasimində və Beynəlxalq Türk Akademiyası Qaraqalpaq Humanitar Elmlər İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən Beynəlxalq elmi konfransda iştirak etmişdir.

Hacıniyazın əsərləri Azərbaycan türkcəsinə Nəzakət Məmmədli, Türkiyə türkcəsinə Hüseyin Yıldırım tərəfindən tərcümə edilmişdir.

N. Məmmədli noyabrın 13-də Berdağ adına Qaraqalpaq Universitetində təşkil edilmiş təqdimat mərasimində şairin seçilmiş əsərlərindən ibarət "Bəylər, tərif edim Qalpaq yurdunu" adlı şeirlər kitabının tərtibçisi, tərcüməçisi, qeyd və izahların, giriş məqaləsinin, lüğətin müəllifi kimi çıxışında Qaraqalpaq və Azərbaycan ədəbi əlaqələrindən, Hacı-

From November 13-15, Dr. Nazakat Mammadli, Director of the Mowlana Literary-Philosophical Research Institute (MLPRI) at Khazar University, participated in the presentation ceremony of translations of works by the great Karakalpak poet Hajiniyaz Kosibay oglu into Turkish and Azerbaijani turkish, on the occasion of the 200th anniversary of the poet's birth, and in an international scientific conference jointly organized by the International Turkic Academy and the Karakalpak Institute of Humanitarian Sciences. The project was led by Shahin Mustafayev, President of the International Turkic Academy.

Hajiniyaz's works were translated into Azerbaijani turkish by Nazakat Mammadli and into Turkish by Huseyin Yildirim.

On November 13, at the presentation ceremony held at Berdakh Karakalpak University, N. Mammadli spoke about Karakalpak-Azerbaijani literary relations and the artistic features of Hajiniyaz's works as the compiler, translator, and author of notes, explanations, introduction, and glossary of the poetry book titled "Let me praise the land of Kalpak, my

niyaz yaradıcılığının bədii xüsusiyyətlərindən bəhs etmişdir.

Noyabrın 14-də konfransın açılışı Ginnesin rekordlar kitabına düşmüş ən böyük yurtada (çadırda) baş tutmuşdur. N. Məmmədliyə Qaraqalpaq ədəbiyyatına göstərdiyi xidmətlərə görə Qaraqalpaq Respublikası Yüksək Məclisinin Fəxri Üzvlük diplomu təqdim olunmuşdur.

Sonra bölmə iclasları keçirilmiş və N. Məmmədli "Hacıniyaz və Azərbaycan aşıq ədəbiyyatı" mövzusunda məruzə ilə çıxış etmişdir.

N. Məmmədliyə həm Türk Akademiyasının təşəkkürnaməsi, həm də konfransın sertifikatı təqdim olunmuşdur.

lords."

On November 14, the conference opening was held in the largest yurt (tent) registered in the Guinness Book of Records. N. Mammadli was presented with an Honorary Membership diploma from the Supreme Council of the Republic of Karakalpakstan for her services to Karakalpak literature.

Subsequently, sectional meetings were held where N. Mammadli presented a report on "Hajiniyaz and Azerbaijani Ashug Literature."

N. Mammadli was presented with both a letter of appreciation from the Turkic Academy and a conference certificate.

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNDƏ KEÇİRİLƏN "İQLİMİN İDARƏOLUNMASI MƏKTƏBİ"NDƏ

## HEAD OF KHAZAR'S DEPARTMENT ATTENDS "CLIMATE MANAGEMENT SCHOOL" AT SUMGAYIT STATE UNIVERSITY



Noyabrın 15-də Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova Sumqayıt Dövlət Universitetinin və Oksford Universitetinin (Saïd Business School) təşkilatçılığı ilə keçirilən "İqlimin idarəolunması məktəbi"ndə iştirak etmişdir. Tədbirdə Xəzər Universiteti ilə yanaşı, digər ali təhsil müəssisələrinin, həmçinin sənaye sektorunun və dövlət qurumlarının rəhbər nümayəndələri də iştirak etmişdir.

Məktəbin təşkil olunmasında məqsəd ekoloji problemlərin həlli üçün yeni yanaşmaların irəli sürülməsi, iqlim idarəçiliyində effektiv strategiyaların hazırlanmasının təşviqi və müzakirəsi olmuşdur.

On November 15, Dr. Jamala Eldarova, Head of the Life Sciences Department, participated in the "Climate Management School" organized by Sumgayit State University and Oxford University (Saïd Business School). Along with Khazar University, senior representatives from other higher education institutions, as well as representatives from the industrial sector and government agencies also attended the event.

The purpose of organizing the school was to propose new approaches to solving environmental problems, and to promote and discuss effective strategies in climate governance.

# "TEXNOPARKLARIN TƏHSİLDƏ VƏ İQTİSADİ İNKİŞAFDA ROLU" ADLI II RESPUBLİKA KONFRANSI

Naxçıvan Dövlət Universitetində "Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu" adlı II Respublika konfransı baş tutub. Tədbirdə elm və təhsil sahəsində texnoparkların əhəmiyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Konfransı açan Naxçıvan Dövlət Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov qeyd edib ki, texnoparklar sənaye ilə universitet arasında sıx əlaqə yaradan, innovativ layihələrin həyata keçirildiyi mərkəzlərdir. Texnoparklar elmi tədqiqatların tətbiq sahəsinə inteqrasiya olunmasında mühüm rol oynayır. Texnopark mərkəzləri vasitəsilə aparılan elmi işlər yalnız mövcud layihələrlə məhdudlaşmır, eyni zamanda bu sahədə gələcəkdə də yeni tədqiqatların həyata keçirilməsi planlaşdırılır. Müasir dövrdə texnoparkların ali təhsil ocaqlarının kampusunda qurulması böyük əhəmiyyət daşıyır.



*Elsevər Əsədov*



Türkiyə Respublikasının Ərzurum Atatürk Universitetinin professoru Kərəm Karabulut XXI əsrin texniki sənaye baxımından 4-cü sənaye dövrü olduğunu bildirib. O, bu dövrün, əvvəlki sənaye dövrlərindən fərqli olaraq, xəyal edilən və mövcud olmayan nüansları reallaşdıraraq istehsal edən xalqların önə çıxacağı bir dövr olacağını deyib. O, 4-cü sənaye dövrünün daha çox texnologiya və yeniliklər üzərində qurulacağını bildirib.

Naxçıvan Dövlət Universitetinin iqtisad üzrə fəlsəfə doktoru, professor Teymur Abbasov texnoparkların iqtisadiyyatdakı roluna və innovativ komponentlərin təhlilinin əhəmiyyətinə toxunub. O, iqtisadiyyatın inkişafında texnoparkların əhəmiyyətini getdikcə daha da artırdığını qeyd edib.

Türkiyə Respublikasının Düzce Universitetinin dosenti Özkan Şahin texnologiyanın iqtisadi böyüməyə olan təsirinin çox böyük olduğunu bildirib. O, texnoparkların gənclərin həm nəzəri biliklərini, həm də texniki bacarıqlarını inkişaf etdirmək üçün mühüm bir platforma olduğunu vurğulayıb.

Turizm üzrə ekspert, dosent Zəkəriyyə Bingöl texnoparkların innovativ fikirlərin inkişaf etdirilməsi və istehsalata açıq bir platforma olduğunu qeyd edib. Onun sözlərinə görə, texnoparklar, gənc sahibkarları qabağa çəkərək, yeni layihələrin yaradılmasında və bu layihələr arasında rəqabət yaranmasında mühüm rol oynayır. Türkiyə Respublikasının İstanbul Beykent Universitetinin texnoloji və nəqliyyat üzrə fəlsəfə doktoru Ebru Bağcı nöropazarlama sahəsindəki araşdırmalar haqqında geniş məlumat verib. O, nöropazarlamanın beynin davranış və qərar qəbul etmə proseslərini analiz edərək istehlakçıların alış-veriş vərdişlərini daha yaxşı başa düşmək məqsədini güddüyünü qeyd edib.

Naxçıvan Dövlət Universitetinin "Beynəlxalq ticarət və menecment" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımov texnoloji parkın məqsədindən, universitetin texnoparkların strukturu haqqında geniş məlumat verib.

Qeyd edək ki, üz-üzə və onlayn davam edən konfrans 6 elmi bölmədə 20-ə yaxın ali təhsil müəssisəsinin elm adamları tərəfindən 60-a yaxın mövzu ətrafında elmi məqalələr dinlənilib.

# NDU-DA TÜRKİYƏ RADİO VƏ TELEVİZİYA ALİ ŞURASININ ƏNƏNƏVİ "GƏLƏCƏKLƏ ÜNSİYYƏT" 14-CÜ BEYNƏLXALQ KONFRANSI



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq qeyd etdiki, konfras jurnalistika ixtisasında təhsil alan tələbələr və bu sahədə araşdırma aparan tədqiqatçılar üçün ideal platformadır. Natiq çıxışında Türkiyə-Azərbaycan əlaqələrindən bəhs edib və bu birliyin bütün sahələrdə olduğu kimi, elm-təhsil, eləcə də media sahəsində yüksələn inkişaf dinamikasında olduğunu bildirib. Vurğulanıb ki, hazırda Naxçıvan Dövlət Universitetində çox sayda türkiyəli tələbə təhsil alır, həmçinin bu ölkənin ən qabaqcıl universitetləri ilə geniş əlaqələr qurulub. Bundan başqa yeni tədris ilindən, qardaş ölkənin nüfuzlu universitetlərindən professorların, NDU-da mütəmadi olaraq tədris prosesində iştirak təmin olunub.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi Beynəlxalq Əməkdaşlıq şöbəsinin müdiri Müjdat Həsənov bildirib ki, hazırda Türkyənin müxtəlif universitetlərində 35 mindən çox azərbaycanlı tələbə təhsil alır. Vurğulanıb ki, Türkiyə Radio və Televiziya Ali Şurasının təşkil etdiyi bu konfrans Azərbaycan univeristetlərinin beynəlxalq səviyyədə əlaqələrinin artırılmasına önəmli töhfədir.

Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri, dosent Nəcibə Nəsibova çıxışında proqramın Naxçıvanda təşkil olunmasının bölgənin gələcəyi baxımından əhəmiyyətli olduğunu qeyd edib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya Naxçıvanın 100 illik tarixinə nəzər salıb. Hər iki ölkə arasında möhkəm bağların olduğunu dilə gətirən Asip Kaya bu əlaqələrin inkişafı istiqamətində görülən işlərdən, həyata keçirilən mühüm əhəmiyyətli tədbirlərdən ətraflı bəhs edib.

Türkiyə Radio və Televiziya Ali Şurası sədrinin müavini Orxan Karadaş 14-cü "Gələcəklə ünsiyyət" konfransının Naxçıvanda təşkil olunmasının vacibliyini qeyd edib. Mustafa Kamal Atatürkün Naxçıvanın Türk dünyası üçün böyük əhəmiyyətə malik olduğunu və qorunmasının vacibliyini nəzərə alaraq dediyi: "Naxçıvan Türkün qapısıdır. Bu xüsusiyyəti nəzərə alaraq əlinizdən gələni edin" sözlərini iştirakçıların diqqətinə çatdırıb. Konfransın builki mövzusunun "Ənənəvi rəqəmsal medya üsullarında dəyişim" olduğunu bildirən türkiyəli qonaq qlobal dünyada rəqəmsal medyanın gücü və bu gücdən düzgün istifadə olunmasının vacibliyini qeyd edib.

Sonra 15 ölkədən 26 tələbənin hazırladığı "Ənənəvi rəqəmsal medya üsullarında dəyişim" mövzusunda təqdimatlar olub. Rəqəmsal mediada islamofobiya, Ənənəvi medianın rəqəmsal transformasiyası, Tatarıstanda yayımlanan türk serialları və onların təsirləri, Mərkəzi Asiyada rəqəmsal mediadan istifadə, Mediada vizual dilin təkamülü həmçinin Ənənəvi radionun rəqəmsal çevrilməsi, Rəqəmsal əsrdə media savadlılığı: problemlər və həllər və bir sıra mövzularda hazırlanan təqdimatlar konfrans iştirakçılarının marağına səbəb olub.

*NDU, Media və ictimaiyyətlə əlaqələr bölməsi*

# "XƏZƏR"İN NORVEÇDƏ ÇALIŞAN MƏZUNU UNİVERSİTETDƏ
# "KHAZAR" GRADUATE WORKING IN NORWAY AT UNIVERSITY



*Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva, Hamlet İsaxanlı, Ramil Əliyev*

Noyabrın 15-də Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə Xəzər Universitetinin məzunu, Oslo Azərbaycan Evinin sədri, Oslo şəhər Östenşö rayonunun bələdiyyəsinin komitə üzvü, Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Norveç üzrə əlaqələndiricisi Ramil Əliyev, həmçinin Norveçdə çalışan Oslo şəhər Marienlyst ibtidai məktəbinin məsləhətçisi, Norveç-Azərbaycanlılar Gənclər Təşkilatının (NAYO) idarə heyətinin sədri Fariz Nadir Rzayev və digərləri Xəzər Universitetində oldular.

Görüşdə Xəzər Universitetinin rəhbərliyi, əməkdaşları və müəllimləri iştirak edib. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı qonaqları salamlayıb, onları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Ramil Əliyev Xəzər Universitetindən məzun olduqdan sonrakı təhsili, Norveçdəki fəaliyyəti ilə bağlı geniş məlumat verib. Eyni zamanda o, tələbəlik illəri ilə bağlı xoş xatirələrini paylaşıb.

R. Əliyev Norveçdən olan qonaqları da təqdim edərək, onlar haqqında məlumat verib.

Görüşdə Norveç ali təhsil müəssisələri ilə Xəzər Universiteti arasında yeni əlaqələrin qurulması, genişləndirilməsi və inkişafı; ali təhsil müəssisələrinin mərkəz, fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlıq; birgə layihələrin həyata keçirilməsi; elmi-tədqiqat işlərinin aparılması; professor-müəllim heyəti və təhsilalanların mübadiləsi və digər məsələlər geniş müzakirə olundu.

On November 15, with the organization of the Career and Alumni Center, Khazar University hosted a meeting with its graduates working in Norway, including Ramil Aliyev, Oslo Azerbaijani House President, Östenşö district municipal committee member, Norway coordinator for Scandinavian Azerbaijanis Coordination Council; Fariz Nadir Rzayev, Oslo Marienlyst Primary School consultant, Chair of Norwegian-Azerbaijani Youth Organization (NAYO).

The meeting was attended by Khazar University's leadership, staff, and instructors. The university's founder, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli welcomed the guests, expressing his pleasure at seeing them at the higher education institution. Ramil Aliyev provided extensive information about his education after graduating from Khazar University and his activities in Norway. He also talked about how much he enjoyed his time as a student.

R. Aliyev also introduced the guests from Norway and provided information about them.

During the meeting, discussions focused on establishing, expanding and developing new connections between Norwegian higher education institutions and Khazar University, mutually beneficial cooperation between centers, faculties and departments of higher education institutions, conducting scientific research, facilitating faculty and student exchanges and other issues.

## "TƏDRİS MƏQSƏDLƏRİ ÜÇÜN İNGİLİS DİLİNİ NECƏ ÖYRƏNMƏLİ" MÖVZUSUNDA VEBİNAR

Noyabrın 20-də İngilis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə ingilis dili üzrə mütəxəssis Michael Collins tərəfindən "Tədris məqsədləri üçün ingilis dilini necə öyrənməli" mövzusunda vebinar keçirildi. Vebinarda tədris dili ilə sosial dilin inteqrasiyası, ingilis dilində jarqon və terminologiyadan istifadə və bir sıra digər mövzular əhatə olundu. Tələbələr müzakirədə fəal iştirak etdilər.

## WEBINAR ON "HOW TO LEARN ENGLISH FOR ACADEMIC PURPOSES"

On November 20, the Department of English Language and Literature organized a webinar titled "How to Learn English for Academic Purposes," presented by Michael Collins, an English Language Fellow. The session explored topics such as successfully integrating academic and social language, the use of slang and terminology in English, and several other intriguing subjects. The students actively engaged in the discussion.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ ELMİ SEMİNARDA

## DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY INSTRUCTOR AT SCIENTIFIC SEMINAR

Noyabrın 20-də "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunda (Qazax rayonu) AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Qazax paleolit arxeoloji ekspedisiyası"nın 2024-cü ilin iyul ayında Qoruq ərazisində apardığı tədqiqatların yekunlarına dair elmi seminar keçirilmişdir. Seminarda qoruğun rəhbəri Dr. Səadət Əliyeva və əməkdaşları, institutun böyük elmi işçisi, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Dr. Yaqub Məmmədov və Dos. Mansur Mansurov iştirak etmişdir.

Ekspedisiyanın rəhbəri Dr. Yaqub Məmmədov aparılmış tədqiqatların yekunlarına dair geniş məruzə ilə çıxış etmiş, sonda iştirakçıları maraqlandıran suallar ətrafında müzakirə aparılmışdır.

Qeyd edək ki, Azərbaycanda 1953-cü ildə M.M. Hüseynov tərəfindən paleolit dövrün öyrənilməsinin əsasının qoyulduğu Damcılı mağarası və eləcə də Daşsalahlı mağarası Avey dağında yerləşir. Gələcəkdə bu istiqamətdə tədqiqatların davam etdirilməsi nəzərdə tutulur.

On November 20, a scientific seminar was held at the "Avey" State Historical and Cultural Reserve (Gazakh district) on the results of the research conducted by the ANAS Institute of Archaeology and Anthropology's "Gazakh Paleolithic Archaeological Expedition" in July 2024 in the Reserve's territory.

The seminar was attended by Dr. Saadat Aliyeva, director of the Reserve and its staff, Dr. Yagub Mammadov, senior researcher at the institute and lecturer at Khazar University's Department of History and Archaeology, Associate Professor Mansur Mansurov

The expedition's leader, Dr. Yagub Mammadov, delivered a comprehensive report on the research results, followed by a discussion addressing participants' questions.

It is worth noting that the Damjili Cave and Dashsalahli Cave, where the foundations of Paleolithic period studies were laid in Azerbaijan by M.M. Huseynov in 1953, are located on Avey Mountain. Further research in this direction is planned.



# ƏRİYƏN DAĞ BUZLARI İSVEÇRƏ İLƏ İTALİYA ARASINDAKI SƏRHƏDİ DƏYİŞİB

Kolumbiya Universitetinin amerikalı alimləri belə qənaətə gəliblər ki, İtaliya və İsveçrə arasında dövlət sərhədinin Alp dağlarında yerləşən hissəsi dağ buzlaqlarının əriməsi səbəbindən yerini dəyişib.

Tədqiqat Kolumbiya Universitetinin İqlim Məktəbinin (CCS) saytında dərc edilib.

Söhbət ən yüksək alp zirvələrindən biri olan Matterhorn zirvəsindəki buzlaqlardan gedir. Uzun onilliklər ərzində onlar iki ölkə arasında təbii sərhəd rolunu oynayıblar. Lakin son illərdə qlobal istiləşmə ilə əlaqədar buzlar İtaliyaya doğru sürüşüb.

Qeyri-dəqiqliyi aradan qaldırmaq üçün İtaliya və İsveçrə dövlət sərhədini tənzimləməyə razılaşıblar.

Alimlərin fikrincə, hər iki ölkənin sakinlərini daha çox ərazi məsələsi deyil, əbədi buzlaqların əriməsi və qar örtüyünün itirilməsi narahat edir. Bu proseslər dağlıq ərazilərin əhalisini təhdid edən sürüşmələrə səbəb olur.

**Report**
*10.12.2024*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**
Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.
Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.
İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.
Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).
Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.
Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi
* Memarlıq

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi
* Musiqi müəllimliyi